**Azərbaycan Milli Elmlər Akademiyası**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**

# XACƏ NƏSİRƏDDİN TUSİ

## ÖVSAFÜL-ƏŞRAF

**və**

## BİST BAB DƏR ELMİ-ÜSTÜRLAB

**BAKI-2023**

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 19 yanvar 2023-cü il tarixli 1 №-li iclasının qərarı ilə nəşr edilir.

*Hazırkı kitaba böyük Azərbaycan alimi və mütəfəkkiri Xacə Nəsirəddin Tusinin "Övsafül-əşraf" və "Bist bab dər elmi-üstürlab" adlı iki risaləsinin fars dilindən tərcüməsi daxil edilmişdir. "Bist bab dər elmi-üstürlab" ilk dəfə, "Övsafül-əşraf" isə müəyyən düzəlişlərlə təkrarən nəşr olunur.*

# MÜNDƏRİCAT

Tusi: ensiklopedist mütəfəkkir ............................................... 4
**Övsafül-əşraf** .........................................................................19
Ön söz ............................................................................... 20
**Bist bab dər elmi-üstürlab** .................................................... 63
Ön söz ................................................................................ 64
Şəkillər ............................................................................... 104
Qeydlər .............................................................................. 108
Ədəbiyyat ........................................................................... 111

# TUSİ: ENSİKLOPEDİST MÜTƏFƏKKİR

Xacə Nəsirəddin Tusi adı ilə məşhur olan Əbu Cəfər Məhəmməd ibn Həsən Cəhrudi Tusi cümə günü hicri 11 cəmadül-əvvəl 597-ci ildə (16 fevral 1201-ci il) Xorasan bölgəsinin Tus şəhərində doğulmuş, bazar günü 18 zilhiccə 672-ci ildə (24 iyun 1274-cü il) xilafətin paytaxtı Bağdad şəhərində vəfat etmiş, öz vəsiyyətinə uyğun Bağdadın şimalında, Kazimeyn məhəlləsində İmam Museyi-Kazim (ə) və İmam Məhəmməd Təqinin (ə) məzarının ayaq tərəfində dəfn edilmişdir. Tusi öz vəsiyyətində baş daşı üzərində elmi dərəcəsini və məqamını əks etdirən yazı lövhəsinin vurulmasını qətiyyən qəbul etməmiş, olsa-olsa Kəhf surəsi, 18-ci ayədən qısa bir parçanın həkk edlməsini istəmişdir:

"*Onların köpəyi də iki əlini (mağaranın) astanasına uzadıb yatmışdı*".

Bununla da ensiklopedist alim, münəccim, riyaziyyatçı və filosof olan Tusi öz məqamını təvazökarcasına kiçildir, Qur'anda verilən Əshabi-kəhf hekayəsinə uyğun olaraq mağarada uyuyan Allaha sadiq bəndələrin köpəyinə bənzədir.

Xacə Nəsirəddin Tusi, şübhəsiz ki, Şərqin İbn Sina, Farabi, Biruni, İmam Qəzali kimi bütün dünyada məşhurlaşan ensiklopedist zəka sahiblərindən və nüfuzlu şəxsiyyətlərindən biri olmaqla dini və dünyəvi elmlərin mühüm sahələri üzrə (Qur'an maarifi, kəlam, ilahiyyət, əxlaq, irfan, təbiətşünaslıq, tibb, mexanika, nücum, həndəsə, triqonometriya, riyaziyyat, musiqi, məntiq, fəlsəfə, hikmət, sosiologiya) çoxsaylı əsərlər yazmış, özündən sonra zəngin elmi miras qoymuşdur. Onun bir çox ləqəbləri elmi şəxsiyyətinin nə qədər yüksək dəyərləndirildiyini göstərir: "*kəlam və hikmət*

*elmlərinin ən fəzilətlisi*", "*tədqiqatçıların sultanı*", "*filosofların sonuncusu*", "*bəşərin ustadı*".

Şərqdə hikmət və fəlsəfə üzrə Aristotel birinci müəllim, Farabi ikinci, Nəsirəddin Tusi isə üçüncü müəllim adlanır. "*Nəsirəddin*" ləqəbini ona ilk təhsilinin son mərhələsində böyük alim, atasının dayısı Nəsirəddin Abdulla ibn Həmzə vermişdir .Bu məşhur elm adamı din alimlərinə xas müqəddəs libası ona geyindirmiş və *"dinin uğuru"* fəxri adına layiq görmüşdür.

Tusi hərtərəfli təhsil almış, ilk müəllimi atası Məhəmməd ibn Həsən olmuş, ondan ərəb dilini, Qur'an, üsul, hədis və fiqh elmlərini öyrənmiş, atası özü isə məşhur alim Fəzlüllah Ravəndinin şagirdi olmuşdur. İlk təhsildən sonra atasının tövsiyəsi ilə dayısı Nurəddin Əli ibn Məhəmmədin yanında məntiq, hikmət və riyaziyyat, Bürhanəddin Məhəmməd ibn Əli Həmədani Qəzvinidən və Nəsirəddin Əbu Talib Abdulla ibn Həmzədən hədis, Şeyx Müinəddin Misri Kəmaləddin Məhəmməd Hasibdən riyaziyyat elmini öyrənir. Sonra təhsilini dövrün elm və mədəniyyət mərkəzlərindən olan Nişapurda davam etdirir, burada Siracəddin Qumridən fiqh və üsul, məşhur filosof Fəxrəddin Razinin şagirdlərindən olan Fəridəddin Damad Nişaburidən İbn Sinanın fəlsəfəyə aid "əl-İşarat vət-Tənbihat" əsərini öyrənir, Qütbəddin Misri Şafei ona İbn Sinanın "Qanun" əsərini tədris edir, böyük sufi şəxsiyyətlərindən olan Fəridəddin Əttardan isə irfan dərsi alır. Sonra Reyə səfər edərək Bürhanəddin Məhəmməd Qəzvinidən, Qumda Xacə Əbülsəadət İsfəhanidən fiqh və kəlam elmini və İraqda Kəmaləddin Mosulidən nücum, riyaziyyat və musiqi elmlərini öyrənir. Təhsilini başa vurduqdan sonra hicri 628-ci ildə (1230) Xorasana qayıdır və Qain şəhərində Nərgiz xanımla evlənir, onun üç oğlan övladı olur.

Monqolların hücumu ərəfəsində Tusi ailəsi ilə İsmaililərin zəbt etdiyi Qəhistan qalasına dəvət olunur. Qalanın hakimi elmə və fəlsəfəyə dəyər verən Nasirəddin Əbdürrəhim İbn Əbu Mənsur Möhtəşəm tərəfindən bir müddət ehtiramla qarşılanır. O, burada elmi fəaliyyət üçün imkan tapır, İsmaililərin zəngin kitabxanasından istifadə edərək fəlsəfə, məntiq və digər elmlərə aid mühüm əsərlər yazır. İbn Miskəveyhin fərdi əxlaq məsələlərinə aid "Təharətül-İraq" əsərini farscaya çevirir, ona daha iki bölmə: ailə məsələlərinin tənzimlənməsi və "siyasəti-mədən" (cəmiyyətin mədəni idarə edilməsi) bölmələrini əlavə edir, bu mükəmməl kitabı qala hakiminin şərəfinə "Əxlaqi-Nasiri" adlandırır. Tusinin əxlaqa dair digər əsəri "Əxlaqi-Möhtəşəmi" adı ilə tanınır ki, bu kitab yenə Qəhistan qalasının hakiminə həsr olunmuşdur. Əxlaqi fəzilətlərdən bəhs edən bu əsər mənəvi dəyərlər, ədəb və ümumi davranış qaydaları toplusu kimi diqqəti cəlb edir, kitab çoxlu məsəllər, nəsihətlər, ibrətamiz hekayətlər və hikmətlərlə zəngindir. Nəsirəddin Tusi bu əsərində qədim İran, Hind və Yunan qaynaqlarından, Qur'an ayələri və hədislərdən, "İxvanüs-Səfa", hətta İsmaili mənbələrindən istifadə etmişdir; əsərdə Bozorgmehr, Ənuşirəvan, Platon, Sokrat, Diogen, Aristotel, Pifaqordan nümunələr verilir. Arı rəngarəng güllərdən şirə çəkdiyi kimi, zəngin və çoxşaxəli elmi məlumata və dünyagörüşünə malik olan Tusi heç bir təəssüb göstərmədən müxtəlif xalqların yaratdığı elm, hikmət və mədəniyyət xəzinəsinə müraciət edərək oradan dəyərli incilər toplayıb zövq ilə oxuculara təqdim edir. Ancaq o, hər bir əsərində olduğu kimi, bu əsərin başlanğıcında da İlahi və mənəvi dəyərlərə, diyanətə böyük əhəmiyyət verir. Digər İslam mütəfəkkirləri kimi, Nəsirəddin Tusi elm ilə imanı və əməli, İlahi hikmətlə məntiqi, əqli təfəkkürlə əxlaq və mənəviyyatı bir araya gətirir.

İsmaili hərəkatı Misirdə başlanıb, Fatimilər hakimlərinin rəsmi ideologiyası olub. İsmaililər on iki deyil, yeddi imama inanmışlar: İmam Cəfər Sadiqə qədər olan altı imam, bir də onun oğlu İsmayıl. Onların etiqadı yeddi üsula əsaslanır: vilayət, namaz, zəkat, oruc, həcc, cihad, təharət, şəhadət. Onlar eyni zamanda Hind mistiklərindən və Pifaqordan gələn "tənasüx" ideyasına inanırdılar, yəni ruh nəinki bir insandan başqasına, bəlkə cisimlərə də keçir. İslamda bu düşüncə qəbul edilmir və Tusi də həmin iddianı rədd edir. İsmaililər buddizmdən də müəyyən qədər təsirlənmişlər.

Bəzən Nəsirəddin Tusini İsmaili filosofu kimi qələmə verirlər və bu doğru fikir deyildir. O, İsmaililərin bəzi düşüncələrindən qismən təsirlənsə də, onların ideoloji pərdə ilə gizlənən ictimai-siyasi fikirlərini paylaşmırdı. Tusi İsmaililərlə iki məsələdə razılaşır:

1. Dini, elmi və fəlsəfi məsələlərin təhlilində ağıl və rasionalizmə əsaslanmaq; bu çox mühüm məsələdir, çünki İslam tarixində olduqca mühafizəkar cərəyan olan Sələfiyyə ağıl və rasionalizmi Qur'ana və İslama yaxın buraxmırdılar, bu isə elm və mədəniyyətin inkişafına mane olurdu; vəhhabilik firqəsi sonralar məhz yabançıların himayəsi ilə həmin firqənin əsasında yaranıb.

2. Qur'anın və digər dini və fəlsəfi mətnlərin şərhində təvil, yəni ezoterik və epistemoloji yozum üsulundan faydalanmaq ki, bu üsul müasir hermenevtika elmi ilə uyğun gəlir; bü cür yanaşma Qur'an mətninin zahiri izahı ilə məhdudlaşmır, daha dərin məna qatlarını aşkar etməyə imkan yaradır.

İsmaililər şiəliyi təhrif edərək on iki imam əvəzinə yeddi imamı qəbul edirdilər, halbuki Tusi onların bu fikrini qəbul etmirdi. İsmaililərin öncə işarə edilən tənasüx ideya-

sını da Tusi qəbul etməmişdi. Bu məsələlər onun əsərlərindən açıq şəkildə aşkar olur. Eyni zamanda İsmaililərin xalqla davranışı da onu narahat edirdi və qaladakı mühit onu sıxırdı. Ona görə Qəhistan qalasında olarkən Bağdada Abbasi xəlifəsi Mötəsimə qəsidə və məktub yazıb göndərir. Ancaq xəlifənin vəziri Tusinin elmi şəxsiyyətindən və nüfuzundan qorxaraq onun Bağdada gəlməsini istəmir, məsələni gizlicə Qalanın hakimi Nasirəddin Möhtəşəmə çatdırır. Hakim isə Tusini birdəfəlik İsmaililərin Qəzvindəki məşhur Ələmut qalasına sürgün edir. Savad və şəxsiyyətinə görə onu burada çox incitmirlər. Bununla belə 26 il ömrünü İsmaililərin qalalarında sürgün şəraitində keçirir. Ancaq Tusi iradəsini sındırmır və elmi fəaliyyətini davam etdirərək bir çox mühüm əsərlərini, o cümlədən İbn Sinanın məşhur "İşarat" əsərinə dördcildlik şərhini burada yazır. Onu da qeyd edək ki, Tusinin bu şərhi olmadan həmin fəlsəfi əsərin anlaşılması çox çətindir. İbn Sinanın İslam dünyasında fəlsəfi fikrin inkişafındakı xidməti məhz Tusinin şərhindən sonra müəyyən edilmişdir.

Nəsirəddin Tusi uzaqgörən mütəfəkkir kimi İsmaililərin və hətta Bağdad xilafətinin süqutunu öncədən hiss edirdi. Bəzi ərəb alimləri, o cümlədən Sələfiyyə firqəsinin məşhur ideoloqlarından İbn Teymiyyənin şagirdi İbn Qəyyim keçmişdə onu tənqid etmişlər və onlar hətta indi də Tusiyə qarşı çıxır, onu ərəb xilafətinin çökməsində, hətta İslam elmlərinin zəifləməsində günahlandırırlar, halbuki xilafətin və digər hakimiyyətlərin süqutunun başlıca səbəbi onların Qur'an ehkamlarından və Peyğəmbərin yolundan saparaq sərvət toplamağa qurşanması, xalqın sosial tələblərinə etinasız yanaşması, ədalətin pozulması kimi amillərlə bağlıdır ki, bunlar idarəetmə sisteminin əsas xəstəlikləri kimi dəyərləndirilir.

İdarəetmə sisteminin sağlamlığı məsələsi Tusinin sosiologiyasında xüsusi yer tutur ki, bu mövzu əvvəllər Farabi və Nizaminin baxışlarında diqqəti cəlb edirdi. Tusi cəmiyyətin sağlamlığını elm, əməl, iman və əxlaq arasında olan bağlılıqla əlaqələndirir; əməlsiz elmin faydası yoxdur, elm iman və əxlaqla kamilləşir, əxlaq olmayan yerdə ədalət də yoxdur. Deməli, fəzilətli və mədəni cəmiyyətin əsasında elm və əməl arasında vəhdət, əxlaq və ədalət dayanır.

İslam elmlərinə gəlincə, Tusinin bu yöndə böyük xidmətləri vardır və o, bütün məsələlərə münasibətində Qur'anın öz ruhundan gələn mötədil baxışa və elmi düşüncəyə əsaslanır. Hələ İslamın başlanğıcında Sələfiyyə adlı zümrə guya dini elmləri təhrifdən və yabançı təsirdən qorumaq adı ilə əqli düşüncəyə və elmi mühakiməyə qarşı çıxmaqla əslində İslam və Qur'anın təbiətinə zidd hərəkət etmişlər. Sələfilər tarix boyu adətən mühafizəkar mövqedə qalmış, onların böyük nümayəndələrindən biri İbn Təymiyyənin məsləkdaşlarından olan İbn Qəyyim İslam mədəniyyət tarixində elmə və fəlsəfi fikrin inkişafına böyük xidmət edən Tusiyə qarşı olmuşdur. İbn Qəyyimin iddiasına görə, guya Tusi İslam etiqadını zəiflətməyə çalışmışdır, halbuki onun əsərləri, xüsusilə “Təcridül-əqayid” kitabı ona qarşı yönələn iftiraların tam əsassız olduğunu göstərir. Eyni zamanda məşhur dini və elmi şəxsiyyətlər dəlillər və sübutlarla Tusini müdafiə etmiş, onu İslam dünyasının böyük mütəfəkkiri adlandırmışlar.

Hicri qəməri 654-cü ildə (1256) Hülaku xan Ələmut qalasını fəth edir, qalanın sonuncu hakimi Rüknəddin Xorşah Tusinin tövsiyəsi ilə təslim olur. Hülaku xan böyük elm, hikmət və nüfuz sahibi Tusini öz yanına götürür, onun məsləhətlərinə ehtiyac duyur. O zaman monqollar nücum elminə çox maraq göstərirdilər və Nəsirəddin Tusi bundan fay-

dalanaraq Hülaku xanda rəsədxana tikdirməyə həvəs oyadır. Padşah bu iş üçün böyük maliyyə ayırır və Bağdadın fəthindən sonra bütün vəqf təşkilatının ixtiyarını Tusiyə tapşırır. Rəsədxananın inşası üçün Marağa yaxınlığında Talıb xan və Hacı Kürd kəndləri arasında yerləşən münasib yüksəklik seçilir. İş 657-ci ildə (1258) başlayır və on dörd il davam edir. Rəsədxana və mədrəsə kompleksinin tam fəaliyyəti zamanı Hülaku xan ölür və onu əvəzləyən Abaqa xan bu işə himayəsini davam etdirir. 11 cəmadül-əvvəl 672-ci ildə (22 noyabr 1273) Tusi Abaqa xan və dostlarının müşayiəti ilə Bağdada gedir, orada xəstələnir və vəfat edir.

Rəsədxananın tikintisi və burada işlənən cihazların hazırlanması üçün Dəməşqdən Müəyyidəddin Ürzi (həndəsə alimi və mühəndis, rəsədxana alətləri üzrə mütəxəssis), Qəzvindən Nəcməddin Katibi (hikmət, kəlam, məntiq sahəsində böyük alim), Tiflisdən Fəxrəddin İxlati (mühəndis və riyaziyyatçı), Mosuldan Fəxrəddin Məraği (tibb və riyaziyyat mütəxəssisi), Nəcməddin Katib Bağdadi (riyaziyyat, həndəsə, rəsədxana cihazları üzrə mütəxəssis), Mühyiddin Məğribi (mühəndis, riyaziyyat, nücum), Qütbəddin Şirazi, Şəmsəddin Şirvani, Şeyx Kəmaləddin İci, Hüsaməddin Şami, Nəcməddin Şami, Nəcməddin Üstürlabi, Seyyid Rüknəddin Astrabadi və digər alimlər cəmlənir. Hətta Çindən mütəxəssis və mühəndis gətirilir.

İndi yalnız Marağa rəsədxanasının bəzi hissələri qalmışdır və həmin rəsədxananın tarixi abidə kimi yerini saxlamaq üçün divar qalıqları üzərində günbəz tikilmişdir.

Rəsədxananın nəzdində yaranan universitet tipli mədrəsədə dini elmlər, tibb, hikmət, nücum və dəqiq elmlər tədris edilir. Burada tədrislə məşğul olmaq üçün çoxlu alim və müəllim dəvət edilir. Rəsədxana və mədrəsənin bütün xərc-

ləri vəqf hesabına ödənilir. Nəsirəddin Tusi alim, filosof və həkimlər üçün ən yüksək əmək haqqı təyin edir.

Rəsədxananın nəzdində ən böyük kitabxana təşkil edilir və buraya Bağdad, Beyrut, Mosul, Xorasan, Dəməşq və s. elm və mədəniyyət mərkəzlərindən 400 min cild kitab toplanır, İsmaililərin zəngin kitabxanası da buraya cəmlənir. Onu zənginləşdirmək üçün xüsusi maliyyə ayrılır və müxtəlif bölgələrə ezamiyyətlər təşkil edilir. Bu böyük elm mərkəzi sonralar fəaliyyətdən dayandı, burada toplanan kitablar isə müxtəlif elm mərkəzlərinə aparıldı, əsasən Səfəvilərin elm və mədəniyyət mərkəzlərinin xəzinələrində yerləşdirildi. Ancaq təəssüflər olsun ki, Qacarlar zamanı həmin kitabların böyük bir qismini avropalılar öz ölkələrinə apardılar, digər qismi isə İran-Rus müharibələrindən sonra Tbilisi və Sankt-Peterburqa daşındı.

Marağada yaranan bu elm mərkəzi Orta əsrlərdə Bağdad və digər bölgələrdə Nizamülmülkün himayəsi ilə fəaliyyət göstərən Nizamiyyə mədrəsələri ilə eyni səviyyədə idi. Burada çoxlu alimlər çalışır və tələbələr təhsil alırdılar və bunların xərcini rəsədxana ödəyirdi. Monqollar tarixdə istilaçı kimi tanınmışlar, onlar ələ keçirdikləri şəhərləri qarət edirdilər. Ancaq müdrik və dərin düşüncə sahibi olan Tusi Hülaku xanı bu cür əməllərdən çəkindirərək hakimiyyətin diqqətini elmə, maarifə və mədəniyyətə yönəldə bildi. Bu onun tarixi xidmətlərindən ən birincisidir. Rəsədxana və onun nəzdində universitet yaradaraq yüzlərlə elm adamlarını və tələbələri şərəfli işə cəlb etmək, onların xərclərini ödəmək çox xeyirxah və səmərəli bir xidmət oldu.

Tusi müxtəlif elm sahələrinə aid ərəb və fars dillərində yüzdən çox elmi əsər yazmışdır ki, onlar arasında astronomiya, həndəsə, mexanika və riyaziyyat elmlərindən hər

birinə aid onlarla dəyərli kitab vardır. Müəllifin mühüm əsərləri bunlardır:

1. "Təcridül-əqayid": kəlam sahəsində mükəmməl kitab olmaqla ona çoxlu şərhlər yazılıb (Əllamə Hilli, Həkim Quşçu, Əbdülqadir Lahici).

2. "Şərh "əl-İşarat": İbn Sinanın mühüm fəlsəfi kitabı olan "əl-İşarat vət-Tənbihat" əsərinə şərh; Tusidən öncə bu əsərə məşhur filosof və təfsir alimi İmam Fəxr Razi şərh yazıb, Tusi öz şərhində onun səhvlərini və qüsurlarını ədəb çərçivəsində düzəldib. Bu şərh olmadan İbn Sina fəlsəfəsinin incəliklərini anlamaq mümkün deyil.[1]

3. "Ət-Təzkirə fi elmül-Heyət": astronomiya mövzusunda mükəmməl əsərlərdən biridir, ona çoxlu şərhlər yazılıb, o cümlədən Tusinin istedadlı şagirdi Qütbəddin Şirazi öz müəlliminin əsərini şərh edib.[2]

4. "Bist bab dər elmi-üstürlab": rəsədxanada işlənən üstürlab cihazı vasitəsilə göy cisimlərinin vəziyyətini izləməkdən və yüzə yaxın digər əməliyyat aparmaqdan bəhs edib. Tusi bu əsərini İsmaililərin yanında olarkən yazıb.

5. "Təhriri-Uqlidis" (Evklid həndəsəsinə və hesab fənninə giriş və şərh): h.q. 646-cı ildə (1248) qələmə alınmış mühüm əsərlərdən olub, ondan çox şərh yazılmışdır.

6. "Təhrir əl-Məcəsti":Tusi Bətlemyusun (Ptolemeyin) astronomiyaya aid məşhur əsəri üzərində işləyərək ona düzəliş, əlavələr və şərhlər vermiş, onu 644-cü ildə (1246) tamamlamışdır; astronomiyaya aid bu mükəmməl əsərdən Kopernik istifadə etmiş, heliosentrik sistemi önə çəkmişdir.

---

[1]Bax: Xacə Nəsirəddin Tusi. "Şərh "əl-İşarat". Ərəb dilindən tərcümə edən Söhrab Bayramlı. Bakı. "Nurlan". 2004.

[2]Bax: Xacə Nəsirəddin Tusi. "Təzkirə". Ərəb dilindən tərcümə edən Əmirşah Əmirəhmədov. Bakı. "Nurlan". 2002.

7. “Zici-İlxani”: Marağa rəsədxanasında aparılan asrtonomik müşahidələrin cədvəlidir.Bu əsərə çoxlu şərhlər yazılıb və orada yer alan məlumatlar çox hallarda müasir cihazlarla alınan məlumatlarla üst-üstə düşür.

8. “Övsafül-əşraf”: irfan və ezoterik idrak məsələsinə həsr olunmuş yığcam risalədir[1].

9. “Əsasül-iqtibas” (642/1244): məntiq elminin əsasları haqqında mükəmməl bir əsərdir; Farabi məntiq elmini 8 bölməyə ayırd edirsə, İbn Sina onu 9 qismə ayırır və Tusi son bölgünü əsas götürməklə buraya öz yeniliklərini artırır.

10. “Əxlaqi-Nasiri”: Qəhistan qalasının hakimi Nasirəddin Əbdürrəhim İbn Əbu Mənsur Möhtəşəmə həsr olunub, ümumi əxlaq məsələləri, ailə münasibətləri və cəmiyyətin idarə olunması (sosiologiya) problemindən bəhs edir[2].

11. “Əxlaqi-Möhtəşəmi”: 40 babdan ibarət bu kitab əsasən insan şəxsiyyətinin yetişməsi üçün zəruri sayılan əxlaq-ədəb qaydaları və hikmətlər toplusundan ibarətdir[3].

12. “Tənsuqnameyi-İlxani” (“Cəvahirnamə”): mineralogiyaya aid əsər.

13. “Rövzətül-qülub”: nəfsi paklıq üsullarından bəhs edən əsər.

14. “Elm əl-Müsəlləsat”:triqonometriyaya aid ilk mükəmməl əsər.

15. “Təcridül-Məntiq”: məntiq qaydalarının çıxarılması.

---

[1]Bax: Xacə Nəsirəddin Tusi. “Övsafül-əşraf” (şərafət sahiblərinin vəsfi). Fars dilindən tərcümə edən Rauf Şeyxzamanlı. Bakı. “Nurlan”. 2002 və Xacə Nəsirəddin Tusi. “Övsafül-əşraf” (şərafətli insanların xüsusiyyətləri). Fars dilindən tərcümə edən Füzuli Şəfiyev. Bakı. “Darül-hüda”. 2005.

[2]Bax: Xacə Nəsirəddin Tusi. “Əxlaqi-Nasiri”. Fars dilindən tərcümə edən Rəhim Sultanov. Bakı. “Elm”.1989.

[3]Bax: Xacə Nəsirəddin Tusi. “Əxlaqi-Möhtəşəmi”. Ərəb dilindən tərcümə edənlər Cəfər Həsənov və Rüstəm Tofiq. Bakı. “Qanun”. 2014.

16. “Adabül-mütəəlimin”: təlim qaydaları haqqında risalə[1].

17. “İsbati-Vacibül-vücud”: Allahın vacib vücudunun isbatı haqqında polemik əsər.

18. “Təcridül-Həndəsə”: həndəsə elminin ümumi qaydaları.

19. “Risalə dər külliyati-Tibb”: tibb elminin ümumi əsasları.

20. “İsbati-əql”: əqli (rasional) düşüncənin sübut və əsaslandırılması haqqında risalə.

21. “Təhriri-Kitabül-Məxuzat fi üsuli-Həndəsə”: Arximedin həndəsəyə aid kitabının şərhi.

22. “Təhriri-kürə və üstüvanə”: kürə və silindr haqqında Arximedin əsərinin şərhi.

23. “Cəvamiül-hesab”: nəzəri və praktiki riyaziyyat.

24. “Süvərül-kəvakib”: Əbdürəhman bin Ömər Sufi Razinin astronomiyaya aid əsərinin ərəbcədən fars dilinə tərcüməsi[2].

25. “Mədxəl fi elmün-nücum” (Nücum elminə giriş).

26. “Zübdətül-idrak fi heyətül-əflak”: (Astronomiya elminin dərkinin qaymağı).

27. “Risaleyi-əqsamül-hikmət”:elm və hikmətin təsnifatı.

28. “Nəsihətnamə”. Bu risalənin təsiri ilə Abaqa xan atası Hülaku xanın taxtına əyləşmişdir.

29. “Əl-Həvaşi ələl-kulliyati-Qanun”: İbn Sinanın tibbə aid “Qanun” kitabına ümumi qeydlər.

---

[1]Bax: Xacə Nəsirəddin Tusi. “Adabül-mütəəllimin” (tələbəlik mədəniyyəti). Ərəb dilindən tərcümə edən Kamandar Şərifli. Bakı. “Nurlan”.2002.

[2]Bax: Əbdürrəhman bin Ömər Sufi. “Süvərül-kəvakib” (ulduzların surətləri). Xacə Nəsirəddin Tusinin ərəbcədən farscaya tərcüməsi. Tərcümə edən Hacı Rauf Şeyxzamanlı. Bakı. “Qanun”. 2014.

30. “Təlxis fi elmül-kəlam”: kəlam elminə aid əsər.

31. “Si fəsl”: astronomiyaya və tarixə dair risalə[1].

Tusinin böyük elmi xidmətlərindən biri antik əsərlərin ərəbcə tərcümələri üzərində yenidən işləyərək bir çox düzəlişlər və şərhlər aparmasıdır. Qədim yunanlar astronomiya, təbabət, riyaziyyat, həndəsə, mexanika və təbiətşünaslıq üzrə əksər elmi fikirləri Şərqdən (Misir, Mesopotamiya, Babilistan, Hind, İran, Çin) götürmüş, sonra onları sistemə salaraq inkişaf etdirmişlər. Həmin əsərlərin çoxunun orijinalı qalmamış, amma ərəbcəyə tərcümələri mövcuddur. O zaman edilən elmi tərcümələrin dili qəliz və anlaşıqsız olmuş, onların üzərində yenidən işləmək, izah və şərhlər vermək lazım gəlmişdir. Tusi bu ağır işin öhdəsindən bacarıqla gələrək eyni zamanda həmin əsərləri yeni fikirlərlə zənginləşdirmiş, yanlış mülahizələrə düzəliş vermiş, çoxlu əlavələr etmiş, onlarla orijinal və dəyərli əsər ortaya qoymuşdur. O, eyni zamanda triqonometriya elminin banisi sayılır. Qeyd edək ki, Aristotel, Platon, Sokrat, Porfiriy, Plotin, Appoloni, Feodosi, Evklid, Ptolemey, Arximed, Arisrtax, Pifaqor, Demokrit və digər müəlliflərin bir çox əsərləri orijinalda qalmayıb, Tusinin qələmi ilə ərəb dilində elm tarixində qalmışdır.

Orta əsrlərdə ərəb dilinə tərcümələr vasitəsilə Yunan filosoflarının əsərləri ilə tanış olan müsəlmanlar onların fəlsəfi düşüncələrini nəinki inkişaf etdirdilər, bəlkə, yeni baxışlarla zənginləşdirdilər. Ona görə onları sadəcə yunan elminin təqlidçisi kimi təqdim etmək doğru deyildir. Eyni zamanda onlar Qur’an və digər islam qaynaqları üzərində araşdırma apararaq islam düşüncəsi ilə rasionalizm arasında uzlaşma olduğunu bildirmişlər. Tusi gəldikdə isə o, kəlam

---

[1]Bax: Xacə Nəsirəddin Tusi. “Si fəsl” (otuz fəsil). Fars dilindən tərcümə edən Kamal Abdullayev. Bakı. “Nurlan”. 2002.

ilə fəlsəfə arasında əlaqə qurmaqla öz düşüncələrini izah etmişdir. Tusi filosofların və kəlam alimlərinin varlıq (vücud) haqqında düşüncəsini bəsit hesab edir; belə ki, filosoflara görə, mövcud odur ki, onun haqqında məlumat olsun, yoxluq isə odur ki, onun haqqında məlumat vermək olmur. Kəlam alimlərinə görə, mövcud o şeydir ki, eynilə sabitdir, yoxluq isə odur ki, onun varlığı inkar edilir. Tusi bu fikirləri qəbul etmir, müəllifə görə, insan müşahidə etdiyi şeyləri sözlə ifadə edir və onlara ad verir; məsələn, su, torpaq və s. Hər bir şey beyində əks olunan təsəvvür ilə anlaşılır. Bu təsəvvür isə həmin şeyin özü deyil, beyində əks olunan surətidir. Tusi Allahın elmi barədə İbn Sina ilə mübahisəyə girişir; İbn Sina deyir ki, uca Allahın elmi Onun zatında olan surətlərlə hasil olur. Tusi buna etiraz edir və bildirir ki, Allahın vahid zatında müxtəlif elmi surətlərin olmasını düşünsək, bu tövhidə ziddir. Müəllifə görə, Allahın elmi hər şeyi əhatə edirsə, bu baxımdan Platonun aşağıdakı fikri məqbul sayıla bilər: bütün varlıq aləminin əqli surətləri Allahın zatında vardır. Tusi digər filosoflardan fərqli olaraq səbəbiyyət əlaqəsini bəsitcəsinə fiziki və mexaniki hadisə kimi deyil, universal qanunlara şamil edilən Allahın əmr sifətlərindən biri hesab edir və bunu iki Qur'an ayəsi ilə əsaslandırır:

"Bizim əmrlərimiz bir göz qırpımında yerinə yetər! (Bir şeyi yaratmaq istədikdə bircə dəfə: "Ol!" – deyərik, o da dərhal olar!)" (Qəmər: 50).

"Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) əmri ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar" (Yasin: 82).

Tusi eyni zamanda yunan fəlsəfi məktəbindən təsirlənən İslam filosoflarından fərqli olaraq etiqad ilə əqli-məntiqi idrak, rasional düşüncə ilə batini işıqlanma və qəlbdə olan ezoterik idrak arasında dərin əlaqə yaradan

hikmət sahibidir. Tusi bütün məsələlərə uca zirvədən, nəfs zindanından azad olmuş sağlam ağıl bucağından yanaşan bir mütəfəkkir olub. Bu baxımdan onun düşüncə tərzi İbn Sina, İmam Qəzali və Şeyx İşraq (Şihabəddin Sührəvərdi) ilə üst-üstə düşür.

Tusinin dünyagörüşündə İslam düşüncəsinə xas orta və tarazlaşdırılmışyol xususi yer tutur və bu baxımdan o, Qəzaliyə çox yaxındır. Orta yol ədalət ilə ahəngi təmin edir və insan bununla təkcə təbiətlə deyil, ailə və cəmiyyətlə bağlı münasibətləri, bütün davranış qaydalarını, iqtisadi-ictimai əlaqələri düzgün şəkildə tənzimləyə bilər. Hətta Şərq təbabətinə görə insanın sağlamlığı sadəcə dava-dərmanla deyil, onun yemək, içmək, yatmaq, hərəkət və rəftarında orta yolun saxlamasından asılıdır.

Sonda bir neçə məqama toxunmaq lazımdır:

Tusinin elmi istedadı, mənəvi gücü, əxlaqi keyfiyyətləri, dərin siyasi-ictimai baxışları, şəxsiyyəti və nüfuzu monqolların hücumu zamanı əhalinin qırılmasının, elm və mədəniyyətin dağıdılmasının qarşısını aldı. Onun tələbələri arasında Əllamə Hilli, Qütbəddin Şirazi, Kəmaləddin Əbu Məhəmmədrza Hüseyni, Seyyid Rüknəddin Əbülfəzayil, Kəmaləddin Bağdadi kimi məşhur alimlər yetişdi.Tusi həmçinin İsmaililərin gizli ictimai-siyasi mübarizəsindən doğa biləcək fəsadların qarşısını aldı, İslam mədəniyyətinin ali hədəflərini elmi-fəlsəfi yöndə şərh etməklə onu ifrat təmayüllərdən qorumağa müvəffəq oldu.

Bəzi qaynaqlar Nəsirəddin Tusinin Hülaku xanın yanında vəzir vəzifəsində işləməsini göstərmişlər ki, bu fikir öz təsdiqini tapmır. O, rəsmi vəzir vəzifəsi tutmamışdır, ancaq Tusinin böyük zəkası, uzaqgörənliyi və dərin dünyagörüşünü nəzərə alan Hülaku xan bir sıra mühüm məsələlərin

həllində onunla məsləhətləşmişdir. O, bir növ müşavir kimi böyük nüfuz sahibi olmuşdur.

Onun səmərəli və məhsuldar elmi fəaliyyətinin əsas istiqamətləri bunlardır:

1. Təbiətşünaslıq, riyaziyyat, həndəsə və nücum;
2. Fəlsəfə, hikmət və məntiq;
3. Əxlaq, təlim-tərbiyə və sosiologiya;
4. İslam elmləri (kəlam, etiqad), islam maarifi və irfan.

Tusinin mühüm elmi əsərləri təkcə müsəlman aləmində deyil, Avropada da tanınır, daha doğrusu, onun kitabları Avropada müxtəlif elm sahələrinin inkişafına təkan vermişdir. Onun əxlaq və sosiologiyaya aid məşhur "Əxlaqi-Nasiri" kitabı hələ 1964-cü ildə ingilis dilində nəşr edilmişdir. Tehranda Tusinin adını daşıyan Texnologiya Universiteti və müstəqil Elmi Araşdırmalar Mərkəzi fəaliyyət göstərir.

Etiraf etməliyik ki, bizim hələ də Nəsirəddin Tusinin kimliyi, şəxsiyyəti, fəlsəfi, əxlaqi-mənəvi, sosial-ictimai və elmi-intellektual irsinin ümumi həcmi və möhtəvası haqqında nisbətən mükəmməl təsəvvürümüz yoxdur. Bu dəyərli irsin toplanıb araşdırılması, tərcüməsi və mənimsənilməsi üçün Hülaku xanın dövründə olduğu kimi Tusinin adını daşıyan elmi mərkəzin yaradılmasına böyük ehtiyac vardır.

**Nəsib Göyüşov**
filologiya elmləri doktoru

# ÖVSAFÜL-ƏŞRAF

## (ŞƏRAFƏT SAHİBLƏRİNİN VƏSFİ)

Fars dilindən tərcümə edən: **Hacı Rauf Şeyxzamanlı**

Redaktorlar: **Nəsib Göyüşov**
*filologiya elmləri doktoru*
**Müqəddəs Payızov**
*filologiya elmləri namizədi*

# ÖN SÖZ

Böyük Azərbaycan alimi və mütəfəkkiri Məhəmməd ibn Məhəmməd ibn Həsən Tusinin (künyəsi Əbu Cəfər, ləqəbləri Xacə, Nəsirəddin, Ustadülbəşər) dünya elm xəzinəsinə bəxş etdiyi əsərlərin dəqiq sayını indiyə qədər müəyyənləşdirmək mümkün olmayıbdır. Ayrı-ayrı mənbələrdə onun 100-dən və hətta 200-dən artıq əsərin olduğu göstərilir. Tusinin bizim yaşadığımız zamanlara gəlib çatan fəlsəfi əsərlərinin içərisində "Övsafül-əşraf" risaləsi mühüm yer tutur və bu abidə ilə yaxından tanış olandan sonra onun ilahiyyatçı alimlər, orta əsr fəlsəfəsi ilə məşğul olanlar, müəllifin yaradıcılıq irsini tədqiq edənlər və ziyalılar təbəqəsi üçün həqiqətən də qiymətli mənbə olması fikrinə gəlməmək mümkün deyil. Məllif burada əsl alim dəqiqliyi ilə hətta fəlsəfədən uzaq olan oxucular üçün də anlaşıqlı və aydın dillə fəlsəfi məqamların və nəfsi təmizləmək mənzillərin təsnifatını vermişdir.

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində "Övsafül-əşraf"ın dörd nüsxəsi saxlanılır. Burada təqdim olunan mətn onların içində ən mükəmməli M-140şifrəli nüsxədən tərcümə edilmişdir. Əlyazma h.1072-ci/m.1661-ci ildə naməlum katib tərəfindən köçürülmüşdür. Risalənin yazılma tarixi məlum olmasa da, müəllifin öz sözünə istinad edərəkonun bu əsəri "Əxlaqi-Nasiri"dən (1236) sonra yazdığını yəqinliklə vurğulaya bilərik.

Əslində "Övsafül-əşraf"ın iki dildə yazıldığını bəyan etmək olar: Nəsirəddin Tusi mətni əsasən farsca yazsa da, burada külli miqdarda Qur'ani-Kərim aylərini, hədisləri, müxtəlif zərb-məsəlləri, atalar sözlərini və kəlamları bilavasitə ərəb dilində təqdim etmişdir. Hazırkı nəşrdə bütün

mətn ixtisarsız Azərbaycan dilinə tərcümə edilmişdir. Ayələrin verilməsində Qur'ani-Kərimin tərcüməsindən (akademiklər Ziya Bünyadov və Vasim Məmmədəliyev) istifadə olunmuş, qalan ərəbdilli mətnin tərcüməsində mənə dostum və həmkarım f.e.n. Müqəddəs Payızov kömək etmişdi. Allah burada adları çəkilən şəxslərin hər birinə rəhmət eləsin!

Qeyd edək ki, hazırkı nəşr ikincidir. İlk dəfə bu kitab 2002-ci ildə Xacə Nəsirəddin Tusinin 800-illiyi münasibətilə Bakının "Nurlan" nəşriyyatında işıq üzü görmüşdü, lakin o vaxtkı nəşrdə çoxlu texniki qüsurların olması bizi bu işə yenidən qayıtmağa vadar etdi. Onu da xatırladaq ki, 2005-ci ildə həmin əsər ilahiyyatçı alim Füzuli Şəfiyev tərəfindən həmçinin tərcümə edilərək "Darül-hüda" nəşriyyatında çapdan çıxmışdı.

***Rauf Şeyxzamanlı***

## Bismillahir-rəhmanir-rəhim

Saysız-hesabsız şükrlər olsun O Tanrıya ki, Onun həqiqətini ağılla dərk etmək və Onun elminin genişliyini əhatə etmək mümkün deyil. Onun mərifəti o qədər böyükdür ki, Onun şəninə söylənilən heç bir ifadə və Onun vəsfinə deyilən heç bir söz Ona layiq olmaz. Onun sübut sifəti, açıq-aşkar bənzətmə şübhəsindən təsəvvürə sığmaz və onun qeyri-sübut sifəti vəhm və təxəyyül nöqsanından zərər çəkməz. Bu barədə pakların rəhbəri və övliyaların yolgöstərəni Mühəmməd-əl-Mustafa (s) demişdi: «Sənə deyilən tariflər saysızdır və Sən özün özünü tərif etmisən və deyilən sözlərdən yüksəksən». Onun müqəddəs ruhuna və onun pak yaxınlarının və nəslinin ruhlarına, seçilmişlərin, dostların ruhuna minlərlə dualar, salavatlar, afərinlər və təhiyyatlar oxunsun bihəqqülhəqq!

Bu risaləni qələmə alan və bu sözlərin müəllifi Məhəmməd ət-Tusi kərimlərin əxlaqı və alicənab insanların siyasətindən bəhs edən «Əxlaqi-Nasiri» kitabını yazandan sonra həmin əsər həkimlərin [filosorfların] düşünmələrinə səbəb olmuşdur. Biz bu yığcam əsəri hazırlayarkən həmin sənətin cövhəri və xülasəsi olan övliyaların həyat tərzinə, düşüncə sahiblərinin üsul və qaydalarına, təriqət yolçularının seyr ilə süluk yollarına, həqiqət axtaranların davranış və ədalət qanunlarına, onların əməli və nəzəri incəliklərinə əsaslanmışıq. İşin və çətinliklərin həddindən artıq olması üzündən uzun müddət bu məsələni araşdırmaq bizə müyəssər olmamışdı və yalnız Tanrının işarəsi, nizam və düsturun böyük sahibi, qılınc və qələm valisi, ərəb ilə əcəm böyüklərinin rəhbəri, islam ilə müsəlmanların üzərinə işıq salan dövlətin parıldayan günəşi, dünyada bütün vəzirlərin məliki, məmləkətlər divanının sahibi, müsəlmanların və şərəflilərin fəxri,

ədalətin və ehsanın rəmzi, dünyanın ən kamil və fəzilətli insanı, İranın öndəri və himayədarı Məhəmməd ibn əs-Sahib əs-Səid Bəhaüddin Məhəmməd əl-Cüveyni (Allah onun ənsarlarını əzizləsin və iqtidarını artırsın) ilə görüş vaxtı əngəllərdən və sıxıntılardan qurtarmaq üçün yardım istədim. O, bu məsələyə nüfuz edərək əl tutdu, öz qərarı ilə maneələri aradan qaldırdı. O böyük şəxsiyyətin əmrinə və məta [yerinə yetirilməsi vacib] fərmanına itaət göstərib həqiqətlərin şərhini və dəqiqliklərin zikrini bu müxtəsər əsərdə yerləşdirdik, onun hər babında şahidliyə dəvət edən, «Nə öncə, nə də sonra batil ona yol tapa bilməz» [Füssilət. 42] olan Tənzili-Məcidin ayələrini qeyd etdik, adını isə «Övsafül-əşraf» qoyduq. Əgər öz şərəfli nəzərlərini bu yazılara salıb bəyənsələr, məqsədimizə çatmış olarıq və beləliklə o şərafətli zatın əxlaqi və əməli gözəllikləri bu əsərə görə bağışlama libasını geymiş və üzrxahlığa hazır olmuşdur. Tanrı Sübhanəhü və Təala onu məcazi aləmdə başçılıq məziyyətlərinə və rəhbərlik xüsusiyyətlərinə malik etdiyi kimi, həqiqi aləmdə də onu əbədi və qüdrətli dövlətin işığı kimi vəsf etmişdir.

*İnnəhül-lətifül-mücib*

Bu yazıda bəyan olunacaq sözün və zikrin başlanğıcı

Şübhəsizdir ki, özündə və öz halında olmayan hər bir şəxs özünü başqasına möhtac bilir, nöqsansız adamlara ehtiyac duyur və o, öz nöqsanından xəbərdardır. Onun batinində olan istək ağıla tələbat yaradır və o, ağıllı hərəkət etməyə ehtiyac duyur. Təriqət əhli bu hərəkəti doğru yol ilə süluk kimi tanıyar. Süluka rəğbət bəsləyən hər kəs üçün altı şey lazımdır:

Birinci: Hərəkətin başlanğıcı və hərəkətin məqsədə yetişməsinin çarəsi, yol tədarükü və miniklərin hazırlanması.

İkinci: Hərəkət və süluku əngəlləyən maneələrin aradan qaldırılması.

Üçüncü: Başlanğıcdan son mənzilə yetişmək üçün lazım olan hərəkətlər toplusu, yəni, seyr ilə süluk, salikin burada keçirdiyi hallar.

Dördüncü: Seyr ilə süluk əsnasında başlanğıcdan son məqsədə yetişənə qədər baş verən hadisələr və onların səciyyələri.

Beşinci: Sülukdan sonra məqsədə yetişən arifin keçirdiyi hallar.

Altıncı: Nəhayət, hərəkət və sülukun son mənzili – tovhid və fəna mənzilinin fasiləsiz davamı.

Süluk mərtəbələrindən hər biri bir neçə bölməyə ayrılır və biz bu altı süluk anlamını altı babda [bölmədə] açıqladıq. Hər bab altı fəsildən ibarətdir, təkcə altıncı bab bölünmür. Onu da bilmək lazımdır ki, hərəkət əsnasında bir cüzvü arxada qoyub başqa cüzvə yetişmək mümkündür və bir cüzvün ardı başqa cüzvdür. Sonuncu cüzv istisna olunur, belə ki, keçmiş və özündən sonra gələcək hadisələr arasında vasitə kimi çıxış edir. Bu vasitə olmadıqda ona tələbat olur. Hər halda, bizim fikrimizcə ondan öncə olan mükəmməl olmuşdur, amma diqqətimizi bundan sonrakı hala yönəldəndə başa düşürük ki, tələb olunan şey nöqsanlıdır və bu barədə belə deyiblər: «Məsumların yaxşı işləri Allaha yaxın olanların pis işləridir[1]». Bu məna təqdim olunan risalənin fəsillərində açıqlanır.

---

[1]Bu ibarəyə dair çoxlu rəvayətlər mövcuddur. Onlardan birində deyilir ki, bir nəfərin günahlarının sayı savab işlərindən bir ədəd qədər artıq olduğuna görə cəhənnəmə gedir. Yolda başqa birisinə rast gəlir ki, o, tam günaha batmış və ömründə cəmi bir savab iş görmüşdü. İkincisi vəziyyəti görüb özünün bircə

İndi bu ilkin başlanğıcdan sonra Allahın tovfiqi və köməyi ilə risalənin bablarına və fəsillərinə başlayaq.

## Birinci bab

*Hərəkətin başlanğıcı haqqında*

Hərəkət baş verməsə, onun nəticəsi olmaz. O, altı halda baş verir və biz onlann hər birini bir fəsildə aşağıdakı qayda üzrə təsvir edirik.

*Birinci fəsil*: İman haqqında; *İkinci fəsil:* Səbat haqqında;*Üçüncü fəsil*: Niyyət haqqında; *Dördüncü fəsil*: Sidq haqqında; *Beşinci fəsil*: İnabət haqqında; *Altıncı fəsil*: İxlas haqqında.

*Birinci fəsil*: İman haqqında. Allah-Təala buyurub: «İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmiş də onlardır» [Əl-Ən'am. 82].

İman bizim dilimizdə təsdiq deməkdir, yəni, inanmaq. Sünnət əhlinin qayda və adətlərinə görə, elmin qəti hasil etdiyi mətləb Peyğəmbərin (s) buyurduqlarına əsasən təsdiq olunur. Peyğəmbərin (s) mərifəti aləmin qüdrətli Yaradanının mərifətindən ayrı deyildir. Yaradan insanlar üçün Peyğəmbərlər göndərib və Məhəmmədə (s) göndərdiyi Qur'anda ehkamları, fərzləri, sünnətləri, halal və haramı elə şəkildə bəyan edib ki, bunların əsasında bütün ümməti toplasın və bir araya gətirsin. Beləliklə, iman deyilən məsələləri əhatə edir, nə artar, nə də azalar. Əgər bundan az olsa, iman deyil, bundan artıq olanda isə iman kamalının çoxluğudur. İmanın nişanələri və əlamətləri isə bunlardır: bilmək, demək və əməl etmək. Öncə bilmək, bilgini tələb etmək və Allahın buyuruğuna əməl etmək və məsləhət bili-

---

saleh əməlini o birisinə bağışlayır ki, onu cəhənnəm odundan qurtarsın. Belə alicənablığı görən Allah onun bütün günahlarını bağışlayır.

nən şeylərdən ehtiyat etmək. Bunlar hamısı düzgün işlər sırasındandır, artmaq və ya azalmaq qabiliyyətinə malikdir. Yuxarıda göstərildiyi kimi, iman haqqı təsdiq edir. Bu cəhətdən əməlisaleh adamlar imana bağlıdır və imanlı şəxs kimi tanınır: «İman gətirənlər (möminlər) və əməlisalehlar (xeyirli işlər görəniər)» [Əl-Bəqərə. 277]. Biz bilməliyik ki, iman çoxpilləlidir və ən aşağı mərtəbə dildə iman gətirənlərə xasdır. «Ey iman gətirənlər (inananlar)» ondan ibarətdir. «Ərəblər deyiblər: – Biz iman gətirdik!» [Onlara] de ki: – Siz [qəlbən] iman gətirmədiniz! Ancaq «Biz islamı [mənfəət naminə] qəbul etdik» deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır» [Əl-Hücürat. 14] buna bir işarədir. İnamın bu dərəcəsindən üstün təqliddir və daha önəmli təsdiq dərəcəsidir. Amma onun zavalı mümkündür və həlledici təsdiq hasil olduqda onun hər ayini saleh əməl üçün zəruri olan məsələnin təsdiqidir: «Möminlər o kəslərdir ki, Allaha və Onun Rəsuluna inanıb, sonradan şübhə etmirlər» [Əl-Hücürat. 15]. On dan daha yaxşısı qeybə olan imandır, imanın bu dərəcəsinin sübutu və təsdiqi batindədir. Bu isə hicab arxasında olan imandır və bu cəhətdən qeybə yaxın olur. Ondan daha kamili haqqında aşağıdakı sözlər söylənilən kəslərin imanıdır: «Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar» [Əl-Ə'nam. 2]. O yerdə ki belə buyurulub: «Onlar həqiqi möminlərdir» [Əl-Ən'am. 4] və bu kamil iman mərtəbəsidir və imanın yəqinlik dərəcəsinə bağlıdır. Yəqinliyin şərhi bundan sonra gələcəkdir. Bu, iman mərtəbələrinin sonuncusudur. Sülukda təqlid və qeybi inamın ondan az olması güman edilir. Təkcə dildə zikr edilən iman həqiqi iman deyil. «Onların əksəriyyəti ancaq şərik qoşaraq Allaha inanarlar»

[Yusif. 106] ona işarədir. Hər yerdə ki Kamili-Mütləqə, yəni Yaradana, qəti etiqad vardır, haqqa doğru süluk, yəni hərəkət, nəfsin sakitliyi ilə mümkün olur və o, çox asan və azacıq səylər hesabına əldə edilir, inşaallah-təala.

*İkinci fəsil*. Səbat haqqında. Allah-Təala buyurmuşdur: «Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə sabitqədəm edər» [İbrahim. 27].

Səbat elə bir haldır ki, iman onunla bütövləşməsə kamala yetişmək istəyi ilə çalışan nəfsin rahatlığı müyəssər olmaz, çünki öz etiqadında tərəddüd edən şəxs kamillik tələbində ola bilməz. İmanın səbatlı olması qəti qərar verməkdən ibarətdir. Bu, kamillik və kamal dərəcəsidir. Səbatsız kamilliyə yetişmək olmaz. Kamal tələbinin əzmi və əzmin səbatı hasil olmayınca süluk mümkün deyil və səbatsız əzmin sahibi «yer üzündə şaşqın dolaşarkən şeytanların azdırdığı adam kimi» [Əl-Ən'am. 71] olar, bəlkə heyrətə düşüb qərar vermək əzmində olmaz, ya müəyyən bir mərhələdə qərar vermək əzmində olmaz. Belə olduqda hərəkət, seyr ilə süluk baş tutmaz. Əgər hərəkət baş versə belə, nəticəsiz iztirab və tərəddüd ilə sonuclanır, bunun isə səmərəsi və faydası yoxdur. Batini səbatın səbəbi bəşarətdir [batini görümdür]. Həqiqətən də özünə və vicdanına etiqadı olan hər bir şəxs məqsədə çatmaqdan ləzzət alır və bu halın adətə çevrilməsi batini yöndə zavala uğramaz. Buna görə də səbat sahibi öz işini daimən düzgün görmək zorundadır.

*Üçüncü fəsil*. Niyyət haqqında. Allah-Təala buyurub: «De ki: – Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!» [Əl-Ən'am. 162].

Niyyətin mənası qəsd deməkdir və qəsd elm iləəməl arasında bir vasitədir. Nə qədər müəyyən bir işin bilinəsi və

görüləsi olduğunu müəyyən etməzlər, o işi görməyə qəsd etməzlər, qəsd etməyənədək isə o işdən heç bir şey hasil olmaz. Seyr ilə sülukun başlanğıcı niyyət və qəsddir. Qəsdin müəyyən məqsədi olur və məqsəd Kamili-Mütləqdən bir kamal əldə etməkdir. Niyyət Haqq-Təalaya yaxınlıq tələbi ilə edilir, çünki Odur Kamili-Mütləq. Belə halda tənha niyyət tənha əməldən yaxşıdır ki, «Möminin niyyəti onun əməlindən xeyirlidir». Niyyət can yerində, əməl isə bədən yerindədir. Əməllər niyyət- lərlədir». Beləliklə, bədənin yaşamağı candadır. «Hər bir insanın payına onun niyyət etdiyi düşür. Kim Allaha və Onun Rəsuluna hicrət edir, onun hicrəti Allaha və Onun Rəsulunadır. Kim ki dünyaya hicrət edir, onu əldə edir, qadına hicrət edən isə evlənir və onun hicrəti hicrət etdiyi məqamadır. Xeyirli əməl niyyətlə müşayiət olunur. O, qürbət [Haqqa yaxınlıq] tələbidir və hər an kamala yetiş- mək üçün vacibdir. Bu barədə Allah-Təala buyurub: «Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Xeyir ancaq sədəqə verməyə, yaxud yaxşılıq etməyə və ya insanlar arasında sülh yaratmağa əmr edən şəxsin söhbətindədir. Allahın razılığını qazanmaq üçün belə işlər görən şəxsə böyük mükafat verəcəyik» [Ən-Nisa. 124].

*Dördüncü fəsil.* Sidq haqqında. Allah-Təala buyurub: «Ey iman gətirənlər! Allahdan qorxun və doğru olanlarla olun!» [Ət- Tövbə. 119].

Sidqin mənası düzgün danışmaq, düz işi görmək və s.-dir. Bu halda sidqin hədəfi düzgünlükdür, istər sözdə, istərsə də əməldə, niyyətdə, əzmdə, dildə deyilənə və vəd edilənə sədaqətli olmaqdır və bütün ortaya çıxan hallarda düzgün hərəkət etməkdir və siddiq bu xasiyyətlərə malik olan bir şəxsdir, bunlara zidd olanlar isə, sözsüz ki, heç vaxt nə sözlə, nə də duyğu ilə onda tapılmaz. Alimlər

deyiblər ki, bu cür adamların yuxuları da düz və çin olur. «Elələri də vardır ki, Allahla etdikləri əhdə sadiq olarlar» [Əl-Əhzab. 23]. Onların haqqında belə deyilib və siddiqləri peyğəmbərlərlə və şəhidlərlə bir sıraya gətiriblər: «Onlar Allahın nemət verdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməli-salehlərlə bir yerdə olacaqlar [Ən-Nisa. 69]. İbrahim (ə) ilə İdris (ə) kimi böyük peyğəmbərləri sidq ilə vəsf etmişlər: «Həqiqətən, o, siddiq (büsbütün doğru danışan bir zat) – bir peyğəmbər idi» [Məryəm. 41]. Digərləri barədə isə deyiblər: «Təriflərini dillər əzbəri etdik» [Məryəm. 50]. Düzgün yol məqsədə çatmaq üçün ən yaxın yoldur və bu yolla gedənin ümidi də çox olar.

*Beşinci fəsil.* İnabət haqqında. Allah-Təala buyurub: «Tövbə edib Rəbbinizə dönün və Ona təslim olun» [Əz-Zümər. 54].

İnabət Tanrı axtarışı və Onu qəbul etməkdir. İnabətin üç növü var. Biri batində olur ki, həmişə Allah-Təalaya yönəldilmişdir, fikir və niyyətlər də Onun qürbətini [yaxınlığını] istəyir. «Tərtəmiz bir qəlblə gəlmişdi» [Əs-Saffat. 84]. Başqa növ sözdədir ki, bütün kəlmələr onu zikr edər, bu isə O Həzrətə ən yaxın olanların zikridir. «Ancaq tövbə edib Rəbbinə dönən kimsə ibrət alar» [Əl-Mü’min. 13]. Üçüncüsü, zahiri əməllərdədir ki, həmişə Allaha yaxınlıq niyyəti ilə itaətə və ibadətə səy göstərər, fərz və nafılə namazları və din böyükləri haqqında məlumat verər, sədəqələr və ehsanlar paylamağın xeyirli olduğunu Allah-Təalanın xalqına çatdırar, zərərli işlərdən çəkindirər, müamilələrdə düzgünlüyü gözləyər, özündə və öz ümmətində insaf hissini gücləndirər və ümumilikdə insanı Allah-Təalaya yaxınlaşdıran şəriət hökmlərini bərqərar edər: «Cənnət də müttəqilər üçün yaxın bir yerə gətiriləcəkdir. Bu, vəd olunduğunuz cənnətdir. O, hər bir qayıdan, qoru-

yan. Rəbbindən onu görmədən qorxan və haqqa dönən qəlblə gələn bəndə üçündür. Oraya sağlıqla, əmin-amanlıqla daxil olun. Bu, əbədiyyət günüdür. Orada onlar üçün istədikləri hər şey vardır. Dərgahımızda isə ondan artığı mövcuddur» [Qaf. 31-35].

*Altıncı fəsil.* İxlas haqqında. Allah-Təala buyurub: «Onlara əmr edilmişdir ki, Allaha – dini yalnız Ona məxsus edərək, bütün batin dinlərdən dönərək – ibadət etsinlər» [Əl-Beyyinə. 5].

İxlas saf etmək və xalis vəziyyətə gətirmək deməkdir, yəni nəyinsə ona qarışmış və ondan olmayan şeylərdən pak edilməsidir. Burada «ixlas» o mənada işlənir ki, dediklərində və etdiklərində Allah-Təalaya yaxınlıq istəyi səmimi və xalis olsun, istər axirət, istərsə də dünyəvi işlərlə bağlı heç bir məqsəd Allah ilə bəndə arasına qatılmasın. «Bil ki, xalis din ancaq Allaha məxsusdur» [Əz-Zümər. 3]. Ayrı bir niyyət – ixlasa qarışmamalıdır. Mənsəb istəyi, şan-şöhrət tələbi, axirət savabı, cəhənnəm əzabından nicat arzusu bu qəbildəndir, çünki bunların hamısı şirkə aparır. Şirkin iki növü var: açıq və gizli. Açıq şirk bütpərəstlikdir, yerdə qalanı isə gizli şirkdir. Peyğəmbər (s) demişdir: «Müşriklərin ümmətimin qəlbinə sirayət etməsi zülmətli gecə vaxtı qaya üstündə qara qarışqanın yavaş hərəkətinə bənzər». Kamal tələbi şirk üçün sülukda ən məhvedici maneədir. «Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi qoşmasın» [Əl-Kəhf. 110]. Gizli şirk aradan qalxdıqca süluk və haqq ilə qovuşma [vüsul] asanlaşır: «Allaha qırx gün səhər-səhər sidq ürəklə itaət edənlərin dilində hikmət bulağı çağlayar».

## İkinci bab

*Seyr ilə süluk mənzillərini keçmək üçün maneələrin aradan qaldırılması haqqında*

Bu [bab] altı fəsildən ibarətdir: *Birinci fəsil:* Tövbə haqqında; *İkinci fəsil:* Zöhd [zahidlik] haqqında; *Üçüncü fəsil:* Fəqr [yoxsulluq] haqqında; *Dördüncü fəsil:* Riyazət haqqında; *Beşinci fəsil:* Müraqibət və mühasibət haqqında; *Altıncı fəsil:* Təqva haqqında.

*Birinci fəsil.* Tövbə haqqında. Allah-Təala buyurub: «Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız!» [Ən-Nur. 31].

Tövbənin mənası günahdan dönməkdir. Burada öncə günahın nə olduğunu bilməliyik. Bilmək gərəkdir ki, bəndələrin hərəkətləri beş qismdir: birincisi, vacib və gərəkli hərəkət, yəni, bu hərəkəti insan etməyə bilməz; ikincisi, edilməsi yasaqlanan hərəkət, yəni, bu hərəkəti insan edə bilməz; üçüncüsü, edilməsi edilməməsindən daha yaxşı olan hərəkət; dördüncüsü, edilməməsi edilməsindən yaxşı olan hərəkət; və beşincisi, edilməsi və edilməməsi eyni olan hərəkət. Zəruri olanı etməmək birinci qism günah hərəkətlərdəndir; etmək günahı ikinci qismdəndir və aqillər onların hamısından tövbə etməyi vacib biliblər. Biz də burada hərəkətləri yalnız fiziki hərəkətlər kimi qəbul etmirik, bəlkə bütün fikirlərin, sözlərin və əməllərin hər bir aqilin gücünə və iradəsinə tabe olmasını istəyirik. Amma üçüncü qismdən olan (etməmək) hərəkət və dördüncü qismdən olan (etmək) hərəkət tərki-övladır [daha müvafiq, yerinə düşən tərk, nədənsə imtina]. Məsumlar [günahsızlar] tərki-övlanı bəyənirlər və onların tövbəsi tərki-övladandır. Məqsədləri Haqq-Təala və Təqəddüsdən qeyrisinə iltifat etmək olan süluk əhli günah işlətməkdədir və onları bundan tövbə etdirmək lazımdır. Tövbə üç qism olur: «amm» –

ümumi tövbə (bütün bəndələrin tövbəsi); «xas» – xüsusi tövbə (məsumların tövbəsi) və «əxs» tövbəsi (süluk əhlinin tövbəsi). Asilər ümmətinin tövbəsi birinci qismdəndir, Adəm (ə) və digər peyğəmbərlərin tövbəsi ikinci qismdəndir və «O, mənim qəlbimə layiqdir və mən gündə yetmiş dəfə Allahdan istiğfar diləyəcəyəm» demiş Peyğəmbərimizin (s) tövbəsi üçüncü qismdəndir. Amma ümumi tövbə iki şərtə bağlıdır. Birinci şərt hərəkətlərin növlərini öyrənməkdir ki, hansı hərəkət insanı kamal dərəcəsinə çatdırar. Ayrı-ayrı şəxslərin fikrincə kamal müxtəlifdir: bəziləri üçün əzabdan nicat qazanmaqdır, bəziləri üçün savabın hasil edilməsi, bəziləri üçün Uca Yaradanın rizası və onun qürbəti [yaxınlığı]. Bəs hansı hərəkət insanda naqislik yaradır? Bu məsələ də ayrı-ayrı rəylərə görə müxtəlif olur: cəzaya uğramaq, ya savabdan məhrum olmaq, ya da Pərvərdigarın qəzəbinə düçar olmaq, ikinci şərt kamal dərəcəsinə yetişməyin faydasından və Allah-Təalanın rizasından, eləcə də nöqsan tapmağın xələlindən və Allah-Təalanın qəzəbindən xəbərdar olmaqdır. Əlbəttə, bu iki şərti yerinə yetirən hər bir aqil günah işlətməz və əgər işlətsə belə, onu tövbə ilə yüngülləşdirər. Tövbə üç şeyə aid edilir. Birincisi, keçmiş zamanla müqayisə, ikincisi, indiki zamanla müqayisə və üçüncüsü, gələcək zamanla müqayisə. Keçmiş zamanla müqayisə iki növdür. Biri keçmiş zamanda işlətdiyi günaha görə peşman olmaq və həddindən artıq təəssüflənməkdir. Bu növ başqa iki növ üçün zəruridir və bu səbəbə görə həmin tövbə məzəmmət etmə tövbəsi adlanır. Bu, ikinci növ gördüyü işin əvəzini çıxmaqdır və o, üç kəslə müqayisədə olur. Biri Allah-Təala ilə bağlıdır ki, Ona itaətsizlik göstərmişdir. İkincisi, özü ilə bağlıdır, belə ki, öz nəfsi ilə Allah-Təalanın qəzəbinə səbəb olmuşdur. Üçüncüsü, bir başqasıyla bağlıdır, belə ki,

hərəkətlə ona zərər yetirmişdir. Başqasının haqqını ödəməyincə tövbə qəbul edilməz: sözdə birinin haqqını çatdırmaq üçün üzr istəmək ya da itaət göstərmək lazımdır. Ümumiyyətlə, Tanrının mükafatı Onun rizası üçün lazım olanlardır. Hərəkət baxımından kimsənin haqqının rədd edilməsi müqabilində ya onun haqqı ödənilməli ya da başqa şeylə əvəz edilməlidir. İtaətə görə mükafat ondan ya onun adından çıxış edən şəxsdəndir və işlətdiyi müəyyən günaha görə əzabın çəkilməsidir. Əgər o şəxs öldürülsə, onun övliyalarının rizasının əldə edilməsi də şərtdir və onun rizasının əldə edilməsi tövbənin kamilliyidir. Lakin tövbənin başqa şərtlərinə əməl etsə, ümidvar olar ki, axirətdə Allah-Təala özünün geniş rəhmətini ona yönəldər. Amma onun nəfsinin [özünün] haqqının əvəzini əmrə itaət etməklə, cəza çəkməklə və ya vacib olan saleh işlərlə çıxmalıdır. İlahi tərəfə dönüb boyun əymək və yalvarmaqla haqqınn ödənilməsindən sonra, ibadətin Allah-Təala tərəfindən razılıqla qəbul olunmasına ümid etmək olar, indiki zamanla müqayisə tövbəsi iki şeydən ibarətdir. Biri, Allah-Təalaya qürbət [yaxınlıq] məqsədilə günahı tərk etmək və ikincisi, haqqında günah işlədilmiş şəxsi razı salıb nöqsanı aradan qaldırmaqdır. Gələcək zamanla müqayisə tövbəsinə gəlincə, o da iki şeyi əhatə edir. Biri günahın qayıtmasının qarşısını almaq əzmidir. Əgər misal üçün onu öldürsələr ya yandırsalar, nə ixtiyari, nə də məcburi olaraq başqasının onun kimi günah işlətməsinə razı olmaz. İkincisi, bu işdə səbatlı olmaq əzmi. Elə olur ki, azim [əzm edən] özü özünə inanmırsa, nəzir ya da kəffarə verməklə və ya günahın qayıdışına mane olan başqa bir yolla həmin əzmi özündə təsbitləşdirir. Əgər tərəddüd edirsə və ya onun niyyətində qayıdışa imkan varsa, səbat hasil olmur. Onda Allah- Təalaya yaxın olmaq və Onun fərmanına itaət etmək

lazımdır. Bu camaat barədə belə deyilmişdir: «Günahından tövbə edən günahkar deyil». Bunların hamısı asilərə aid olan ümumi tövbədir və bu camaat haqqında belə buyurulmuşdur: «Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızın üstünü örtsün» [Ət-Təhrim. 2]. Yenə də buyurulmuşdur: «Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar nadanlıq ucundan pis bir iş gördükdən sonra dərhal tövbə edərlər. Allah belələrinin tövbəsini qəbul cdər» [Ən-Nisa. 17]. Amma tərki-övladan olan xüsusi tövbənin şərtləri qeyd olunduğu kimi məlumdur və bu barədə belə buyurulmuşdur: «Allah çətin saatda bir qisminin ürəyi dönmək üzrə ikən peyğəmbərə, onun ardınca gedən mühacirlərə və ənsara tövbə nəsib etdi» [Ət-Tövbə. 117]. Amma əxs tövbəsi iki şeyə gərəkdir. Biri salikin qeyri məqsədə diqqət və iltifat yetirməsindən, lütfkarlıq göstərməsindən doğur. Bu münasibətlə belə deyiblər: «Sağı-solu səhv». İkincisi, tərəqqi olan mərtəbəyə qayıdışdan, ya da həmin mətrəbədə dayanmaqdan, razılıq ilə ona göstərilən iltifatdan və yaxud nəfsin özünün tərəqqi edilən mərtəbədə dayanmasından irəli gəlir. Bunların hamısı günahdır və bu münasibətlə belə deyiblər: «Məsumların yaxşı işləri Allaha yaxın olanların pis işləridir». Onlar həmin günahdan tövbə ilə, istiğfarla [bağışlanmağı diləməklə], israr və tərslikdən dönməklə, gördükləri əməllərdən peşman olmaqla və Həzrət Pərvərdigari-Təalaya itaət etməklə pak edilməlidir. Allah tövbə edəni və sirrini Ona ixlas edəni sevir. Həqiqətən, Allah tövbə edənləri və pak olanları sevir.

*İkinci fəsil*. Zöhd [zahidlik] haqqında. Allah-Təala buyu rub: «Kafırlərin bəzi zümrələrini sınamaq üçün onlara dünya həyatının zinəti olaraq verdiyimiz mal-dövlətə rəğbət gözü ilə baxma» [Ta-ha. 131].

Zöhd çəkinmə deməkdir və rəğbətə, yəni, meyl göstərməyə ziddir. Zahid o şəxsdir ki, onu dünyaya bağlayan şeylərə: yemək-içməyə, geyimə, torpağa və digər şəhvət oyadan və ləzzət verən şeylərə, eləcə də mala, şöhrətə, yaxşı ad-san qazanmağa, hökmdarlarla dostluq etməyə [yaxın olmağa] və ölümdən uzaq hər bir şeyi ələ keçirməyə etinasız olar. Bu həm acizlik səbəbindən, həm də ona aid olan qərəz ya əvəz cəhətdən ola bilər. Bütün bu sifətlərə malik olan şəxs məlum dərəcədə zahiddir, amma həqiqi zahid cəhənnəm əzabından nicat tapmaq və cənnət savabını qazanmaq tamahı olmayan bir kəsdir. Bir növ sadaladığımızdan nəfsini üzmək hər birinin faydası bilinəndən sonra adətə çevrilər və həqiqi zahid tamah, ümid və istəklərə bağlanmadan nə dünyada, nə axirətdə heç nəyə qarışmaz. Bu sayaq nəfsi sifətlərin adətə çevrilməsi onu, yəni, nəfsi şəhvət tələbindən və dünyəvi işlərdən qorumaqla hasil olur. Bu iş məqsəddən vaz keçmək meyli möhkəmlənənədək bu yolda çəkilən əziyyətin hesabına başa gəlir. Zahidlərin hekayətlərində deyilir ki, bir otuzyaşlı kişi qoyun başını bişirib paltava ilə satarmış və heç vaxt heç birinin dadına baxmazmış. Ondan bu pəhrizkarlığın səbəbini soruşdular. Dedi: «Bir dəfə nəfsim bu iki təamın arzusuna düşmüşdü və bu yeməkləri qəbul edib muradıma çatmaq imkanında olmadığım üçün acımdan ölürdüm və heç bir yeməyə meylim çəkmirdi, dünyada savab və nicat istəyi (tamahı) ilə zahidlik edən kimi və ya axirətdə nə vaxtsa bir ziyafətdə çoxlu təamlar yemək ümidilə alçaqlıq və yaramazlığından günlərlə qida qəbul etməyən bir şəxs kimi, və yaxud ticarətdə xeyir götürmək məqsədilə mal alveri edən şəxs kimi idim». Sülukda zahidlik mənfəətini qazanmağın həqiqi yolu hər hansı bir

işin öhdəsindən gəlməkdir. Zahid bir işlə məşğul olmasa, məqsədinə çatmaz.

*Üçüncü fəsil.* Fəqr [yoxsuluq] haqqında. Allah-Təala buyurub: «Allaha və Onun peyğəmbərinə sadiq qalmaq şərtilə, acizlərə, xəstələrə və sərf etməyə bir şey tapa bilməyənlərə döyüşə getməməkdə heç bir günah yoxdur. Yaxşı işlər görənləri də məzəmmət etməyə heç bir əsas yoxdur» [Ət-Tövbə. 91].

Fəqir o kəsə deyilir ki, malı olmasın, ya əgər olsa belə, kifayət qədər olmasın. Bu yerdə deyərlər ki, mala və dünyanın var-dövlətinə marağı olmasın. Əgər onun əlinə mal-dövlət gəlsə, onun saxlanılmasına əhəmiyyət verməz, bilməməzlikdən, acizlikdən, inciklikdən, qəflətdən ya tamah üzündən bir şeyə meyl salmaz, hörmət, xeyir-zikr və səxavətli adını qazanmaq məqsədilə və ya cəhənnəm qorxusundan, ya axirət savabı tələbindən çıxış etməz. Bu, həm də süluk mənzilləri üçün həqiqətin qəbulu və İlahiyə yönəlmək üçün lazım olan iltifatın azlığıdır. Fəqrin dərəcələri ondan ötrüdür ki, Haqq-Təaladan savayı nə varsa, haqq yolçusunun önündə maneə [hicab] olmasın. Fəqr zahidliyin bir bölməsidir. Peyğəmbər (s) deyib: – «Sizin cənnət əhlinin məliklərindən xəbəriniz yoxdurmu? Dedilər: – Əlbəttə. Dedi: – Əgər tozlu və cındır paltarlı, saçları tökülmüş, miskin hər bir zəif və müstəz’əf Allaha and içsə, hökmən sözünə əməl edər». Dedilər: «Əgər istəsən, qızılla dolu Məkkə vadisini sənə verərik». Dedi: «Xeyr, amma ac qalan gün Sənə yalvararam, tox olan gün isə Sənə şükr edərəm».

*Dördüncü fəsil:* Riyazət [nəfsi qorumaq] haqqında. Allah-Təala buyurub: «Amma kim Rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini, şəhvətini qadağan

etmişsə, həqiqətən, onun yurdu cənnətdir» [Ən-Nazi'at. 40-41].

Riyazət minik [ya da yük] heyvanının can atdığı arzuolunmaz hərəkətlərinin qarşısı alınması yolu ilə onun ram edilməsi və sahibi qabağında təslim olmağa vadar edilməsi deməkdir. İrfanda riyazət dedikdə heyvani nəfsi sifətlərindən olan qəzəb və şəhvət hisslərinin və onlardan doğan meyllərin cilovlanması nəzərdə tutulur. Həmçinin mal-davarda hərislik, şöhrətpərəstlik kimi alçaq əxlaq və əməllərdən olan heyvani hisslərin yatırılması, məkr, yalan, kin, paxıllıq, pozğunluq, pisliyə meyl kimi xasiyyətlərə uymasının qarşısını almaq riyazətə aiddir. Riyazət yolu ilə insan nəfsinin kamilliyə doğru aparan əqli və əməli itaətə vərdiş etdirməsi mümkündür. Şəhvət hissinə tabe olan nəfsə vəhşilik nəfsi, qəzəb hissinə tabe olana qəddarlıq nəfsi, əxlaq və əməl baxımından alçaqlıq gətirən nəfsə şeytanlıq nəfsi və bunların hamısına bütövlükdə əmmarə nəfsi deyərlər, yəni, «Nəfsi-əmmarə pis işlər görməyə əmr edər» [Yusif. 53]. Həmişə pozğunluğa və şərə məhkum edilən nəfs əmmarə adlanır. Əgər bu hal sabit olmasa, bir vaxt şərə, o biri vaxt isə xeyrə meyl etsə və xeyrə meyl edərkən öncələr şərə meyl etdiyinə görə peşman olarsa və özü özünü qınayarsa, ona ləvvəmə nəfs və ya vicdan əzabı doğuran nəfs deyərlər. Əgər nəfs ağıla yönələrsə və onun istəyi xeyir işlər olarsa, buna mütməinnə nəfs (xatircəmlik nəfsi) deyərlər. Riyazətin məqsədi üç şeydir: biri, Haqqa yetişmək yolundakı maneələrin aradan qaldırılması (bunlar zahiri və batini işlərdəndir); ikincisi, heyvani nəfsin kamilik istəyinə səbəb olan əql və əmələ tabe etdirilməsidir; və üçüncüsü, nəfsi səbatın adətə çevrilməsidir ki, bununla Allah-Təalanın nemətlərini qəbul etməyə hazır olub kamilliyə yetişməsi imkanı əldə etsin, inşaallah-təala.

*Beşinci fəsil:* Müraqibət və mühasibət haqqında. Allah-Təala buyurub: «Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər» [Əl-Bəqərə. 284].

Mühasibət kiminləsə hesablaşmaqdır, müraqibət isə kimə və nəyəsə nəzarət etməkdir. Burada mühasibətin məqsədi özündə olan itaət ilə asilik dərəcəsini hesablayıb hansının daha çox olduğunu bilməkdir. Əgər itaət daha çoxdursa, onun itaətinin asiliyə nisbətən üstünlüyünün qədərinin Allah-Təalanın ona verdiyi nemətlərlə nə əlaqəsi olduğuna baxarlar. İlkin varlığın, yəni vücudun hikmətləri, onun qurumu və növünün şərhini alimlər ağılları kəsb edə bildiyi qədər bir neçə kitabda versələr də, vücud dəryasından heç bir qətrəni də anlaya bilməyiblər, amma nəbati və heyvani hisslərə məxsus olan neçə faydalar tapıblar. Vücudun yaradılışındakı incəliklər, hissi aləmin və əqli qüvvənin xilqəti Tanrının elm qüdrəti ilə bağlıdır. O, bir gün fitrəti əvvəldən təqdir etmiş, bütün ülvi və süfli aləmdəki xilqətin səbəbi və başlanğıcıdır. Əgər itaət asiliyə nisbətən bu nemətlərlə və saymaq iqtidarında olmadığımız başqa nemətlərlə müqayisədə (necə ki buyurulub: «Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz» [Ən-Nəhl. 18]) üstünlük təşkil edərsə, bütün hallarda öz qüsuruna əsaslanar. Amma əgər itaətlə asilik bərabərdirsə, öz təqsirini daha asan tapar. Əgər asilik üstün gəlsə, yəni «vay onun halına!» hər zaman kamillik tələb edən salik özü ilə hesablaşanda və özündən itaət xəbəri ortaya gəlməyəndə, özünü bu çatışmazlıqda müqəssir bilər. Bu səbəbə görə belə buyurulub: «Başqaları ilə haqq-hesab çəkməzdən öncə özünüzlə haqq-hesablaşın». Əgər öz hesabını etməsə [özü ilə haqq-hesab çürütməsə] və asilik etsə, o vaxt «Bir xardal dənəsi ağırlığında olsa belə, hər hansı bir əməli

nəzərə alarıq. Biz haqq-hesab çəkməyə kifayətik» [Əl-Ənbiya. 47]. Onun hesabını apararlar və o, böyük əzab və xəsarətlərə düçar olar. «Qorxun o gündən ki, heç kəsdən fıdyə alınmasın və heç kəsdən şəfaət qəbul olunmasın» [Əl-Bəqərə. 48]. Amma müraqibət odur ki, salik həmişə öz zahir və batininə baxar ki, etdiyi həsənatları [yaxşı işləri] batil edə biləcək hərəkətə yol verməsin, yəni daim öz əhvalını müşahidə edər və nə açıq, nə də gizli şəkildə asiliyə qədəm basmaz. Heç kəs, istər güclü və istər zəif, onu haqq yolundan döndərə bilməz. Həmişə bu mənanı öz xatirində saxlayar: «Bilin ki, Allah sizin qəlbinizdə olanı bilir. Allahdan qorxun» [Əl-Bəqərə. 235]. Bu hal istədiyi mətləbi əldə etmək mərtəbəsinə yetişənədək davam edər: Allah-Təala öz qullarından istədiyinə uğur bəxş edər. O, həqiqətən mərhəmətli və müdrikdir!

*Altıncı fəsil.* Təqva haqqında. Allah-Təala buyurub: «Allah yanında ən hörmətli olanınız, Allahdan ən çox qorxanınızdır» [Əl-Hücürat. 13].

Təqva asilikdən, Allah-Təalanın qəzəbindən və Ondan uzaqlaşmaqdan çəkinmə deməkdir. Sağlamlıq istəyində olan xəstə onun üçün zərərli olan şeyləri qəbul etməkdən, xəstəliyin şiddətlənməsinə səbəb olan hərəkətlərdən çəkinməli olur ki, xəstəliyinə əlac tapsın və dərman onun xəstəliyini sağaltsın, bunun kimi kamillik istəyində olan naqis bəndələr də kamilliyə zidd olan və seyr ilə süluk yolunda kamilliyi əngəlləyən hər bir işdən çəkinməlidirlər ki, süluka yetişmək üçün lazımi tədbirlər faydalı və təsirli olsun. «Kim Allahdan qorxsa, Allah ona bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər» [Ət-Təlaq. 2-3]. Əslində təqva üç şeydən ibarətdir: biri xofdur [qorxu], ikincisi asilikdən imtina [etmək] və üçüncüsü qürbət [Allaha yaxınlıq] tələbi. Bu yazıda onların hər birisinin

şərhi ayrıca bəyan olunur. Təqva zikri və müttəqilər [təqva sahibləri] haqqında Tənzildə və hədislərdə bizim bu əsərimizdə bəyan edə biləcəyimizdən daha çox buyurulmuşdur. Bütün bunların son qayəsi Bari-Təalaya olan məhəbbətdir. «Xeyr, elə deyildir. Kim öz əhdinə vəfa etsə və pis əməllərdən çəkinsə, şübhəsiz ki, Allah belə müttəqiləri sevər» [Ali-İmran. 76].

## Üçüncü bab

*Seyr ilə süluk, kamillik tələbi və salikin əməlləri haqqında*

O da altı fəsli əhatə edir. *Birinci fəsil*: Xəlvət haqqında; *İkinci fəsil:* Təfəkkür haqqında; *Üçüncü fəsil:* Xof və hüzn haqqında; *Dördüncü fəsil:* Rica [ümid] haqqında; *Beşinci fəsil:* Səbr haqqında; *Altıncı fəsil:* Şükr haqqında.

*Birinci fəsil.* Xəlvət haqqında. Allah-Təala buyurub: «Dinlərini oyun və əyləncə sayanları, dünya həyatının məğrur etdiyi şəxsləri boşla getsinlər» [Əl-Ən'am. 70].

Həqiqi elmlərdə müəyyən olunub ki, İlahi nemətləri qəbul etməyə hazır olan şəxs istedaddan və o nemətlərə yetişmək yolunda maneələri dəf etməkdən məhrum ola bilməz. Nemət tələb etmək iki şeydən xəbəri olan şəxs üçün mümkündür: birisi, bu nemətin yəqinliyinin şəksiz-şübhəsiz olduğunu bilmək, o birisi isə, bu nemətin ona malik olan hər bir şəxsin kamilliyi üçün vacib olmasını bilməkdir. Bu iki bilgi bütün hallarda həmin nemətin qəbulunu təmin edir. Giriş sözündən sonra qeyd edək ki, kamillik istəyində olan salikin istedada yetişməsindən sonra qarşıya çıxan əngəllərin aradan götürülməsi vacibdir. Maneələrin ən böyüyü isə məcazi, yəni dünyəvi və maddi işlərdir. Nəfs məcazdan Allahın lütfkarlığına tərəf yönəlir və salikin iqbalı həqiqi məqsədə yetişməklə ölçülür.

Məcaza uyanlar zahiri və batini hisslərlə, başqa heyvani hisslər və məcazi fikirlərlə məşğuldurlar. Amma zahiri hisslər bunlardır: zahiri surəti müşahidə edilən və gözlə görülən şeylər, ahəngdar səsləri eşitmək, xoş qoxular, yemək və geyim. Amma batini hisslər müəyyən halları və surətləri xəyalda canlandırmaqla insanın batinində xoş duyğu yaradar: məhəbbət təxəyyülü, sıxıntı, bir şeyi böyütmək və ya kiçiltmək (uca tutmaq və həqir saymaq), intizam və nizamsızlıq, keçmişi düşünmək, istənilən şeylər (mal-sərvət, şan-şöhrət) barədə fikirləşmək. Lakin heyvani hisslərə qəm, qorxu, qəzəb, şəhvət, xəyanət, xəcalət, qeyrət, ləzzət ümidi, düşmənə qəhr etmək, çəkindirmək daxildir. Amma məcazi fikirlər əhəmiyyətsiz işlərin və faydasız elmin təfəkkürü ilə məşğuldur. Bunlar üstləri örtülü istəklərdir. Xəlvət bütün bu əngəllərin aradan qaldırılmasından ibarətdir. Xəlvət sahibi batini və zahiri hisslərin hakim olmadığı bir mövqe tutmalı və heyvani qüvvəni ram edərək zahidlik məqamına gətirməlidir, yəni həmin qüvvədə olan qeyri-mülayim cəhətləri dəf etməli, mülayim cəhətləri isə saxlamalıdır. Bir sözlə, məcazi fikirlərdən uzaq olmalıdır. Həmin [məcazi] fikirlərin qayəsi yaşayış və məişət, bir də miadla bağlı maraqları əhatə edir. Yaşayış-məişət maraqlan fani işlərdir, miadın maraqları isə son dərəcədə əbədi [baqi] ləzzətlərin qazanmasıdır. Bəqa [əbədiyyət] istəyən nəfs xəlvətlə bunu əldə edir. Xəlvət zamanı nəfsin haqqa doğru kamillik yolunda əngəl olan maneələrin aradan qaldınlması və batinin Allahdan başqa kimsəyə itaət göstərmək meylindən təmizlənməsi gərəkdir. Bununla hümmət və istək Haqqa doğru yönələr, diqqət və qəlbin yönümü isə qeybi hadislərin və Haqqın iradətinin anlamına çevrilər ki, buna təfəkkür deyirlər. Təfəkkür isə növbəti fəsildə belə izah olunur:

*İkinci fəsil.* Təfəkkür haqqında. Allah-Təala buyurub: «Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları ancaq haqq-ədalətlə yaratdığını düşünmürlərmi?» [Ər-Rum. 8].

Hərçənd alimlər təfəkkür haqqında çeşidli mülahizələr söyləmişlər, bütün təriflərin xülasəsi budur ki, təfəkkür insan batininin başlanğıcdan məqsədə doğru seyr etməsidir və alimlərin baxışında nəzər anlamı də həmin mənada işlənir. Heç kəs seyr yolundan başqa bir yolla nöqsan mərtəbəsindən kamillik mərtəbəsinə yetişə bilməz və bu səbəbə görə belə deyiblər ki, əvvəl təfəkkürün vacibatları və nəzərdir. Tənzildə təfəkkür barədə saysız-hesabsız mülahizələr buyurulub: «Düşünüb-daşınanlar üçün bunda dəlillər vardır» [Ən-Nəhl. 11] və hədisdə deyilir ki, «Bir saatlıq düşüncə yetmiş illik ibadətdən xeyirlidir». Bilmək lazımdır ki, hərəkətin başlanğıcı sayılan seyrin əvvəli afaq [xarici aləm və kainat] və ənfüs [nəfslər, yəni bəşərin iç dünyası] aləmlərini əhatə edir. Seyr hər iki aləmin nişanələrinin dəlilidir, yəni elə bir hikmətdir ki, ikisi də zərrələrin hər bir zərrəsində tapılır, Yaradanın böyüklüyü və kamalı başlanğıcdan Haqqın müşahidəsinədək Haqqın nuru ilə hər bir zərrəyə sirayət edir. «Qur'anın haqq olduğu onlara bəlli olsun deyə, Biz Öz nişanələrimizi həm xarici aləmdə, həm də onların öz nəfslərində mütləq göstərəcəyik» [Füssilət. 53]. Bundan sonra şəhadət edilir ki, O Calal Sahibi Həzrətdən başqa hər şey onun yaratdıqlarındandır.

«Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyilmi?» [Füssilət. 52]. Zərrələrin hər birində Allah-Təalanın zühurunun təcəllisi açıq görsənər. Amma afaq aləminin, yəni Kainatın, nişanələri [ayətləri] Allahdan savayı mövcud olan dünyəvi-maddi varlıqların olduğu kimi tanınması (mərifəti) üçün zahir olub. Varlığın [vücudun]

hər birinin hikməti insanın imkanı qədər hasil edilir və afaq [kainat] elmi fələkləri, ulduzları, onların hərəkət və mövqelərini, göy cismlərini və onların arasındakı məsafələri və bir-birinə olan təsiri, eyni zamanda süfli aləmə [aşağı Yer aləminə] xas olan cismləri öyrənən nücum elminə, həm də maddi [dörd ünsür] qarşılıqlı tərtib, əfal və keyfiyyət dəyişmələrindən doğan mədən, bitki və heyvanlar haqqında kitablarda izahat vermiş elmə, Yer və göyə xas nəfslərin mərifət gücünə, hər birinin başlanğıcını, onlardan törənənə və onlarda olan əşya və hadisələr arasındakı münasibətləri, ixtilafları, qarşılıqlı əlaqələri və xasiyyətləri araşdıran elmə, bununla bağlı olan ədədlər və miqdarlar elminə və tətbiqi elmlərə şamil edilir. Amma nəfslərin ayətlərinə gəldikdə, bu, nəfslər və bədənlərin mərifətidir və o, ayrı-ayrı bədən üzvlərini öyrənən elmə aiddir. Buraya sümüklər, sinirlər, əzələlər və damarlar və hər birinin faydası və quruluşu, baş və köməkçi bədən üzvləri və hər birinin faydası və quruluşu, əsas və köməkçi bədən üzvləri və hər birinin hissələri, ətraflar və hər birinin hərəkət və vəziyyətinin mərifəti, məsələn, sağlamlıq və xəstəliyin tanınması, nəfslərin mərifəti və onların bədənlə olan əlaqələrinin keyfiyyəti, hər birinin fəaliyyəti və başqaları ilə müştərək əlaqəsi, hər birində olan nöqsan və kamilliyin səbəbləri, keçici və davamlı xoşbəxtliyin və bədbəxtliyin şərtləri və bunlarla bağlı olanlar daxildir. Bunların hamısı seyrin başlanğıcıdır. Təfəkkür də ondan ibarətdir. Seyrin son məqsədləri isə bu fəsillərin və babların iç bölmələrində göstərilir. Seyr ilə sülukun sonu kamal mərtəbələrinin zirvəsidir.

*Üçüncü fəsil.* Xof və hüzn haqqında. Allah-Təala buyurub: «Əgər möminsinizsə, Məndən qorxun» [Ali-İmran. 175].

Alimlər deyiblər: «Hüzn keçənlərə görə, xof gələnlərə görədir». Hüzn xoşagəlməz [məkruh] işlərdən baş verən və qarşısı çətinliklə alınan hadisədən yaranan qəm-qüssədir və yaxud fürsəti əldə verməklə baş verən, əvəzi çətinliklə çıxan hadisədən törənən batini dərd-qəmdir. Əgər hadisənin baş verməsi məlum olarsa və ya güman edilərsə bu gözlənilən məkruh əməl sayılır, onun qəm-qüssəsi də çoxdur; hadisənin baş vermə səbəbi məlum olarsa xof sayılır, buna malxulya deyərlər. Hüzn ilə xof süluk baxımından faydasız deyil və əgər hüzn asilik səbəbindən və ya vaxt itkisindən olarsa, ibadətdən uzaq olmaq və ya ruhani seyri tərk etmək dəyərincədir. Bu isə kamillik yolunda tövbə məqamının əzminə bərabərdir. Əgər xof günah işlətməkdən, naqislikdən və əbrar dərəcəsinə yetişə bilməməkdən baş verərsə, xeyirxah işlər görməyə və kamillik yoluna qoymağa səbəb olar. «Allah öz bəndələrini bununla qorxudur» [Əz-Zümər. 16]. Bu məqamda xof və hüznə qatlaşmayan qəsavət [rəhmsiz] əhli sayılır. Elə isə «vay qəlbləri Allahın zikrinə qarşı sərt olanlann halına! Onlar açıq-aydın azmışlar» [Əz-Zümər. 22]. Bu məqamda zavaldan [məhv olmaqdan] qorxan hər kəs həlak olmağa düçardır. «Allahın onları bəla toruna salmayacağına əmin idilərmi? Allahın bəla toruna salmayacağına özlərinə zərər edənlərdən başqa heç kəs əmin ola bilməz» [Əl-Ə’raf. 99]. Amma kamal əhli bu xofdan və hüzndən pakdır: «Bilin ki, Allahın dostlarının heç bir qorxusu (xof) yoxdur və onlar qəm-qüssə (hüzn) görməzlər» [Yunis. 62]. Hərçənd ki, lüğətdə xof ilə xəşyət bir mənada işlənir, bu tayfanın adətinə görə onların arasında fərq var. Xəşyət alimlərə xasdır («Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar» [Fatir. 28]) və cənnət onlar üçündür. («Bu, Rəbbindən qorxanlar üçündür» [Əl-Beyyinə. 8]) və xof onlardan uzaqdır («La xövfün əley-

him»). Xəşyət Haqqın (əzzü və əla) əzəmətini duymaqdan, onun qorxusundan, Tanrıya bəndəlik etməkdə nöqsana yol verməkdən ya itaətkarlığı tərk etmək təxəyyülündən irəli gələn qorxudur. Xəşyət xüsusi bir xofdur. «Rəbbindən və pis haqq-hesabdan qorxurlar» [Ər-Rə'd. 21] ona dəlildir və heybət xəşyətə yaxındır. «Rəbbindən qorxanlar doğru yola və mərhəmətə nail olacaqlar» [Əl-Ə'raf. 154] və salik riza dərəcəsinə yetişəndə onun xofu əminlik ilə əvəz olunur. «Haqq yola yönəlmişlər onlardır» [Əl-Ən'am. 82]. Onda salik heç bir məkruh işə nifrət etməz və heç bir mətlub işə maraq göstərməz. Belə əmin-amanlığın səbəbi kamillikdir; yuxarıda göstərilmiş əminliyin səbəbi nöqsan olduğu kimi, və belə xatircəmliyə yetişən salik vəhdət baxımından təcəlli etməsə, xəşyətdən bir əsər-əlamət qalmaz. Xəşyət kəsrətə aid haldır.

*Dördüncü fəsil.* Rica [ümid] haqqında. Allah-Təala buyurub: «Həqiqətən, Allaha iman gətirənlər, köçüb gələnlər və Allah yolunda cihad edənlər Allahın mərhəmətinə ümidvardırlar» [Əl-Bəqərə. 218].

Hər vaxt mətlubun [arzu olunan kamil dərəcənin] əldə edilməsinə ümid bağlayanda, talib mətlubun səbəblərinin hasil olmasını zənn edərsə, onun batinində mətlubun təsəvvürü ilə ümidin qarışığından əmələ gələn fərəhə rica deyərlər. Əgər saxta səbəblərin və istənilən şeylərin gələcəkdə mütləq olacağını bilsə və yəqin etsə, ona mətlubun intizarı deyərlər. Onda fərəh aşkar olar. Hasilin səbəblərinin saxtalığı məlum və məznun olmasa, ona təmənna deyərlər. Əgər səbəblərin çətinliklə hasili məlum olsa, ricanın hüsulunun təvəqqösi qürur və səfehlikdəndir. Xof ilə rica qarşılıqlıdır və sülukda rica xof kimi çoxlu faydalara malikdir. Rica kamillik dərəcəsinə yetişmək yolunda tərəqqiyə və seyr yolunda mətlubu əldə etməyin tezləşməsinə

bais olur. «Kasad olmayacaq bir ticarət umarlar ki, Allah onlara mükafatlarını versin və öz lütfündən onlara artırsın» [Fatir. 29-30]. Rica həm də Bari-Təalanın bağışlamağına və əfvinə, eləcə də Allah-Təalanın mərhəmətinə əmin olmağa inanmaq üçün zəruridir. «Onlar Allahın mərhəmətinə ümidvardırlar» [Əl-Bəqərə. 218]. Mətlubun hasil edilməsində ona müvafiq olaraq təvəqqe buyurulmuşdur: «Mən qulumun məndən umduğunu yerinə yetirəcəyəm». Bu məqamda ricanın olmaması ümidsizlik olardı. «Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər» [Yusif. 87]. İblis ümidsizlik təlqin etdiyinə görə əbədi söz-söhbətə hədəf olub. «Allahın rəhmindən ümidsiz olmayın» [Əz-Zümər. 53]. Amma salik mərifət mərtəbəsinə çatanda onun ricası məhv olur [ona ehtiyac olmaz]. Bunun da səbəbi ondadır ki, salik bilir ki, gərəkli olan nə varsa edilmişdir, edilməsi lazım olmayan isə gərəkli sayılmaz. Bu təsəvvürlə əgər rica baqi qalsa, ona cahillik üz verər [ehtiyac olsa ya olmasa] və yaxud mətlubdan məhrum olduğuna görə Tanrıdan şikayətlənər. Əvvəlki fəsillə bu fəsildən məlum olur ki, neçə ki salik seyr ilə süluk mənzillərindən keçir, xof və ricadan qurtara bilməz. «Qorxu (xof) və ümid içində Rəbbinə dua edərlər» [Əs-Səcdə. 16]. Belə ki, vəd ilə vəid [təhlükə] ayələrini dinləməkdən, kamillik ilə nöqsanın dəlillərini bilməkdən, hər birinin başqası ilə əvəzlənməsini istəyindən, sülukun sonluğunun ya məqsədə yetişmək ya da yetişməmək, və yaxud ondan məhrum olmaq təsəvvüründən bu hal doğur. Rica ilə xof tarazlaşdırılır. Bir tərəfə o birinə nisbətən üstünlük verilməsi mümkün deyil. «Əgər möminin qorxusu və istəkləri tarazlaşarsa, hər ikisi mötədil olar». Əgər ricaya üstünlük versələr, əmin-amanlıq bərqərar olmaz. «Allahın onları bəla toruna salmayacağına əmin idilərmi?» [Əl-Ə’raf. 99]. Əgər isə xofa üstünlük versələr,

ümidsizlik aradan gedər. «Allahm mərhəmətindən yalnız kafirlər ümidini üzər» [Yusif. 87].

*Beşinci fəsil.* Səbr haqqında. Allah-Təala buyurub: «Allah səbr edənlərlədir» [Əl-Bəqərə. 153].

Səbr dilimizdə məkruh bir işin baş verməsi vaxtı özünü kədərlənməkdən saxlamaq deməkdir. O, batini iztirabdan, dili şikayət üçün açılmaqdan, bədən üzvlərini insana yaraşmayan hərəkətlərdən qoruyar. Səbr üç olur. Birincisi, avam səbr və aqillər və ümumiyyətlə müsbət adamlar dərəcəsinə yaxınlaşmaq məqsədilə tələsik hərəkət və rəftardan özünü saxlamaq və dözümlü olmaqda dönməzlik göstərməkdir. «Onlar dünya həyatının zahirini bilirlər, axirətdən isə x-əbərsizdirlər» [Ər-Rum. 7]. İkincisi, ibadət edənlərin, zahidlərin, təqva əhlinin və xasiyyəti yumşaq olan adamların səbridir, axirət savabı ümidilə edilər. «Yalnız səbr edənlərə saysız-hesabsız mükafat ediləcəkdir» [Əz-Zümər. 10]. Üçüncüsü, ariflərin səbridir ki, onlardan bəziləri məkruh işlərdə ləzzət tapıblar. Bu isə ondan irəli gəlir ki, onların təsəvvüründə Mə’bud (c.c.) onları başqa bəndələrin içindən seçib o məkruhu onlara məxsus etmişdir və beləliklə onlar yenidən Onun nəzərinə hədəf olmuşlar. «Səbr edənlərə müjdə ver. O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman «Biz Allahın bəndələriyik və Ona tərəf qayıdacağıq» deyirlər, onları Rəbbi tərəfindən bağışlanmaq və rəhmət gözləyir» [Əl-Bəqərə. 155-157]. Əsərlərdə deyilir ki, kübar səhabələrdən biri Cabir bin Abdullah Əl-Ənsari ömrünün sonunda zəifliyə, qocalığa və acizliyə mübtəla olmuşdur. Baqir adıyla məşhur olan Məhəmməd Əli bin Əl-Hüseyn (səlamüllah əleyhim) ona baş çəkməyə getmiş və onun halını soruşmuşdur. Cavabında deyib: – O haldayam ki, qocalığı cavanlıqdan, xəstəliyi sağlamlıqdan, ölümü isə yaşamaqdan daha çox xoşlayıram. Məhəmməd

Baqir (ə) isə deyib: – Mən isə eləyəm ki, qoca ilə qocalığı xoşlayıram, cavan ilə cavanlığı, əgər xəstə iləyəm xəstəliyi, sağlamla sağlamlığı, əgər ölü iləyəm ölümü, diri ilə yaşamağı xoşlayıram. Cabir bu sözü eşidən kimi Məhəmməd Baqiri (ə) üzündən öpdü və dedi: – Sədəqə Rəsulullah ki, Allahın Elçisi mənə demişdi: – Sən mənim övladlarımdan biri, mənim adaşımsan». «O, elmi öküz yeri buynuzlarıyla eşdiyi kimi eşir». Bu səbəblə onu ülumül-əvvəlin və ülumül-axirinin baqiri [bilicisi] adlandırmışdılar. Bu mərtəbələrin mərifətindən məlum olur ki, Cabir səbr əhlinin mərtəbəsindən olmuş, Məhəmməd Baqir (ə) isə riza əhlinin mərtəbəsindən. Bundan sonra da rizanın şərhi verilir.

*Altıncı fəsil.* Şükr haqqında. Allah-Təala buyurub: «Şükr edənləri, əlbəttə, miikafatlandıracağıq» [Ali-İmran. 145].

Şükr lüğətdə nemətlər bağışlayana bu nemətlər əvəzində söylənən sənalardır. Bütün nemətlərin ən böyüyü Haqq-Təaladan gəlir və deməli, ən yaxşı əməl Allah-Təalanın şükrü ilə məşğul olmaqdır. Şükr etmək üç şey üçün lazımdır. Birincisi, afaq ilə ənfüsü [kainat ilə nəfsləri] əhatə edən bağışlanan nemətin mərifətidir. İkincisi, o nemətlərin əldə olunmasına görə sevinməkdir. Üçüncüsü, itaətkarlıq və nemət bağışlayanın rizasını qazanmağa cəhd etməkdir. Bu isə batində ona olan məhəbbət şəklində, sözdə ona layiq olan tərif və təzim şəklində, qiyamda isə bağışlayan qarşısında ediləsi işlərdir, mükafat, xidmət, itaət və acizliyin etirafı kimi hallardır. Allah-Təala buyurub: «Əgər şükr etsəniz, sizə olan nemətimi artıracağam» [İbrahim. 7]. İman iki yarıdan ibarətdir: yarısı səbr, yarısı şükr. Salik heç bir halda mülayim ya qeyri-mülayim, layiqli – layiq olmayan, uyğun – uyğun olmayan işlə üzləşməkdən boyun qaçırmaz. Mülayim işə görə şükr etməliyik, qeyri-müla-

yimə görə isə səbr. Axırıncının əvəzi qəm-qüssə olduğu kimi, şükrün də əvəzi küfrandır və küfr küfranın növüdür. «Əgər nankorluq etsəniz, mənim əzabım, həqiqətən, şiddətlidir» [İbrahim. 7]. Buradan məlum olur ki, şükrün dərəcəsi səbrin dərəcəsindən daha yüksəkdir. Ürək, dil və digər bədən üzvlərindən başqa heç nə ilə şükr etmək olmaz. Hər üçü onun nemətidir və hər birindən istifadə etmək imkanı ayrı bir nemətdir və hər birinin işlədilməsində uğur qazanmaq ayrı. Hər bir nemətə görə şükr etmək istəsələr, ayrı-ayrı etməlidirlər və şükr etmək haqqında belə bir söz işlədərlər ki, şükrün əvvəli və sonu acizlikdir. Şükr etməkdə aciz olmağın etirafı şükrün axırıncı mərtəbəsidir, tariflərin ən böyüyü təriflməkdə aciz qalmağın etirafı olduğu kimi. Bu səbəbdən deyiblər ki: «Etdiyin yaxşılıqları və həmdü sənaları sanki özünə edirsən və bu, yalnız sözdə deyənlərin əməllərindən daha artıqdır». Təslimçilərə xas olan şükr tərəfsiz şükrdür, yəni sona çatmış şükr, Bağışlayanın mükafatına və cəzasına şükr etməkdir. Bəndəlik məqamında özünə məhəl qoymayan bir kəs hər şeyə malik olan şəxsin qarşısına necə çıxa bilər? Şükrün sonu orada olur ki, özünü bir vücud, bağışlayanı isə başqa bir vücud kimi bilsinlər.

## Dördüncü bab

*Sülukda məqsədə yetişən zaman yaranan vəziyyət haqqında*

Altı fəsli əhatə edir: *Birinci fəsil:* İradət haqqında; *İkinci fəsil:* Şövq haqqında; *Üçüncü fəsil:* Məhəbbət haqqında; *Dördüncü fəsil:* Mərifət haqqında; *Beşinci fəsil:* Yəqin haqqında; *Altıncı fəsil:* Sükun haqqında.

*Birinci fəsil.* İradət haqqında. Allah-Təala buyurub: «Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbrli apar» [Əl-Kəhf. 28].

İradət istək, dilək deməkdir və o, üç şeyə bağlıdır: murad şüuru, murada yetişmiş kamalın şüuru və muradın eybi. Əgər murad [istənilən məqsəd] mürid tərəfindən yerinə yetirməyi mümkün olan işə aiddirsə, bir-birinə bağlı olan iradətlə qüdrətin hər ikisi bu murada yetişmək üçün bir əsasdır və əgər yerinə yetirilmiş və mövcud olan, amma hazır olmayan işə bağlıdırsa, onda hər ikisi murada yetişmək üçün zəruridir. Məqsədə çatmaq istiqamətindəki hərəkət dayandığı zaman, iradət üçün müriddə şövq deyilən hal yaranır. Şövq vüsaldan [qovuşmaqdan] önəmlidir. Vüsal tədricən baş verəndə və ondan nəsə əldə ediləndə ona məhəbbət deyərlər. Məhəbbət də mərtəbələrə [dərəcələrə] bölünür və onun axırıncı mərtəbəsi süluk tam yetişən zamana aiddir. Amma iradət sülukun səbəbidir və süluk üçün lüzumlu olduğuna görə kamillik tələbinin bir növüdür. Məqsədə yetişmək ya ondan imtina etmək səbəbi ilə iradət [istək] dayandıqda süluk da kəsilir. Süluk üçün əsas olan iradət nöqsan əhlinə xasdır, amma kamal əhli üçün iradət elə həmin muraddır. Hədislərdə deyilir ki, cənnətdə Tuba adlı bir ağac vardır. Həmin ağac arzusu olan hər kəsi təxirsiz-intizarsız muradına çatdırar. Onu da deyiblər ki, bəzi adamlar dünyada itaət etdiklərinin savabını axirətdə biləcəklər və bəzilərin əməllərinin bərabəri qədər onların savabı olacaq. Bu söz ona dəlalət edir ki, bəziləri üçün iradətlə murad eynidir. Sülukda riza dərəcəsinə yetişmiş şəxs üçün iradət yox olur. O mərtəbənin talibi olmuş böyüklərdən biri demişdir: «Nə istədiyimi soruşanda, deyirəm ki, heç nə istəmirəm».

*İkinci fəsil:* Şövq haqqında. Allah-Təala buyurub: «və özlərinə elm verilən kəslər bilsinlər ki, haqq sənin Rəbbindəndir. Ona inansınlar və ürəkləri Ondan xatircəm olsun» [Əl-Həcc. 54].

Şövq məhəbbət ləzzətinin gerçəkləşməsi deməkdir və ayrılıq dərdilə qovuşan iradətin vacib şərtidir. Süluk zamanı iradətin şiddətlənməsindən sonra şövqə zəruridir. Elə olur ki, sülukdan öncə şüur mətluba yetişir və seyr qüdrəti ona yetişmir və ayrılıq səbri tükənir. Salik öz süluk yolunda irəlilədikcə onun şövqü da artır, səbri isə azalır və bu hal mətluba çatana qədər davam edir. Ondan sonra kamala yetişmək ləzzəti riyakarlıqdan doğan dərddən tamamilə saflaşar və şövq məhv olar. Təriqət əhli məhbubun müşahidəsini şövq sayırlar. Bunu da onunla əsaslandırırlar ki, onlar məhbubla ittihad tələb edən zümrədir və hələ o mərtəbəyə [yəni Haqq ilə birliyə] yetişməyiblər.

*Ücüncü fəsil.* Məhəbbət haqqında, Allah-Təala buyurub: «İnsanların içərisində Allahdan qeyrilərini Ona şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır. Və iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir» [Əl-Bəqərə. 165].

Məhəbbət kamilliyin hasil edilməsindən və ya onun güman olunan ya həqiqi təxəyyülündən sevinc duymaqdır. Başqa sözlə, məhəbbət nəfsin şüurdakı təsəvvüri ləzzətə və ya kamilliyə olan meylidir. Ləzzət mülayim idrakdır, yəni kamilliyə nail olmaqdır. Buna görə məhəbbət ləzzətdən ya ləzzət təxəyyülündən xali deyil. Məhəbbət güclənməyə və zəiflənməyə qabildir və onun birinci mərtəbəsi iradətdir ki, məhəbbətsiz olmur. Ondan sonra şüura qovuşur, iradət ilə şövq aradan qalxır və məhəbbət üstün gəlir. Taliblə mətlubun ziddiyyəti qaldıqca məhəbbət sabit olur, məhəbbətin eşqi [şiddəti] isə daha da artır. Belə də olur ki, talib ilə

mətlub ziddiyyət əsasında birləşir. Bu birliyin əsası zəifləyəndə məhəbbət də məhv olur. Məhəbbətin və eşqin ən axırıncısı ittihaddır. Müdriklər deyiblər ki, məhəbbət ya fitri olar, ya da kəsbi. Fitri məhəbbət bütün kainatda mövcuddur. Məhəbbət göyün hərəkəti üçün zəruridir. Təbii məkan anlayışı olan hər bir ünsürdə təbii məkan məhəbbəti vardır. Məhəbbət həmçinin başqa təbii hallarda, o cümlədən təbii varlıqların vəziyyət, miqdar və hərəkətinə şamil olunur. Mürəkkəb birləşmələrdə (məsələn, miqnatislə [ahənrüba] dəmir arasında) məhəbbətin öz yeri var. Bitkilərdə məhəbbət mürəkkəb birləşmələrdən də çoxdur, çünki onların böyüməsi, bar verməsi, yığılması və qorunması mütəhərrik bir haldır. Heyvanlarda isə məhəbbət bitkilərdən artıqdır, dostluq, cütləşmə və ana-bala münasibətlərində özünü büruzə verir. Amma kəsbi [tədricən qazanılan] məhəbbət daha çox insan növündə olur. Onun səbəbi bu üç şeydən biridir: birincisi, ləzzətdir, cismani ya qeyri-cismani olur. Qeyri-cismani isə ya vəhmi olur, ya da həqiqi. İkincisi, mənfəətdir. O da ya məcazi ya da dünyəvi məhəbbət kimi olur. Onun xeyri fərz və güman ilə müəyyən edilir. Və üçüncüsü, mahiyyətdir ki, bu da ya ümumi olur ya xüsusi. Ümumi mahiyyət təbiət və yaranış etibarilə eyni olan və bir-birinin hərəkətindən, xasiyyətindən və əxlaqından razılıq və sevinc hissi duyan iki şəxsə aiddir. Xüsusi mahiyyət isə haqq əhlinə məxsusdur, kamillik istəyən salikin [talibin] Mütləq Kamala, yəni Tanrıya məhəbbəti belədir. Göstərilən səbəblərə görə məhəbbətin səbəbi mürəkkəbdir. O, mərifətdən də yarana bilər: arifə ləzzət, mərifət, mənfəət və xeyir Mütləq Kamaldan gəlir və Tanrıya olan məhəbbət məhəbbətin abaşqa növlərindən üstündür və «Və iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir» [Əl-Bəqərə. 165] ayəsinin mənası burada

aydın olur. Zövq əhli deyib ki, rica, xəşyət [qorxu], üns, sevinc, şövq, riza, təvəkkül və təslim – bunlar hamısı məhəbbət üçün vacibdir. Belə ki, məhəbbətdə sevgilinin mərhəmətinin təsəvvürü rica tələb edir, onun heybətinin təsəvvürü isə – qorxu, vüsalın olmaması – şövq, vüsalın olması – üns, ünsün həddindən artıq olması – sevinc, güclü inam – təvəkkül, bir hərəkətin sevgili tərəfindən bəyənilməsi – riza, özünün aciz və qüsurlu olması və onun biliyə və gücə malik olması təsəvvürü təslim tələb edir. Ümumiyyətlə həqiqi məhəbbətin həddi təslimdir: belə ki, sevgilisini Hakimi-Mütləq bilir, öözünü isə məhkumi-mütləq hesab edir. Həqiqi eşqin həddi fənadır ki, bu məqamda sevgilisini görür, özünü isə görmür. Allahdan başqa nə varsa hicab [xaliqlə məxluq arasındakı pərdə] mərtəbəsinə yaxındır. Beləliklə, seyr təsəvvürdə seyrin məqsədi hər şüeydən vaz keçib Ona doğru qayıdışdır. «Və bütün işlər Ona qayıdacaqdır» [Hud. 123].

*Dördüncü fəsil.* Mərifət haqqında. Allah-Təala buyurub: «Allah özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq O qüvvət və hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər» [Ali-İmran. 18].

Mərifət anlamaq, tanımaq deməkdir. Tanrını dərk etmək, tanımaq mərtəbələri çoxdur və mərifət arzusu onların ən yüksək olanıdır. Mərifət mərtəbələrinin misalları bunlardır. Bəziləri eşidib və biliblər ki, od elə bir varlıqdır ki, ona toxunan her şeyi heçə çevirir, onun təsiri onun əksi olanın üzərində görünür, onu dayandıranda ona heç bir zərər yetməz və ondan ayrılan hər şey onun təbiətinə ziddir. Bu varlığı od kimi tanıyırlar. Bari-Təalanın mərifətində bu cür yol seçənlərə müqəllid [təqlid edən] deyərlər və bunlar heç bir dəlilə əsaslanmayıb böyüklərin sözlərini təsdiq

edənlərə bənzəyirlər. Bu camaatdan üstün dayananlar odun tüstüsünü duyanlardır. Onlar tüstünün nədən irəli gəldiyini bilib həmin tüstünü əmələ gətirən varlıq haqqında hökm sürərlər. Bu dərəcəyə yetişənlər nəzər əhlidir. Onlar bu varlığın Yaradanın qüdrətinin nəticəsi olduğunu qəti surətdə bilirlər. Bu mərtəbədən daha üstün olanlaryaxınlıqdakı onun hərarətini hiss edənlər və ondan faydalananlardır. Mərifətin bu mərtəbəsində olanlar qeyb möminləridir və Yaradanı pərdə arxasında tanıyanlardır. Bu mərtəbədən də üstün olanlar oddan istifadə edib çörək, qida və digər mənfəətlər əldə edənlərdir. Onlardan başqa mərifətdən mərifət ləzzətini alıb ona sevinənlər vardır. Buraya qədər bilik əhlinin mərtəbələri idi. Bu mərtəbədən yüksəkdə duranlar odu müşahidə edənlər və odun işığından yararlanıb bütün varlıqları öz gözlərilə müşahidə edənlər dayanır. Bu camaat görənlər və dərk edənlər sırasındadır, onları arif sayarlar və onlar həqiqi mərifət sahibidirlər. Bu mərtəbədən yuxarıda olanları da arif sayarlar və onlar yəiqn əhlidir. Yəqin və yəiqn əhli barədə bundan sonra bəhs olunacaq. Onların içində elələri var ki, onların mərifəti müarifə növündəndir və onlara hüzur əhli deyərlər. Üns və xüsusi sevinc onlara məxsusdur. Son mərifət isə arifin odda yanmış və heçə dönmüş bir kəs kimi məhv olmağındadır.

*Beşinci fəsil.* Yəqin haqqında. Allah-Təala buyurub: «Və axirətə şəksiz inanırlar» [Əl-Bəqərə. 4].

Bir hədisdə deyilir ki, «ən az elmi bilik əldə edən adam və bunun sayəsində ona verilmiş bəxt namazını və orucunu azaltmış adamın heç ağlına gəlməz».

Yəqin adət üzrə zavalı olmayan, sabit, uyğun və qəti bir inamdır və o, elmdən məluma yönəlmiş olanda həqiqətə doğru aparır, elmdən əks istiqamətə yönləndə isə düyünə çevrilir. Yəqinin öz mərtəbələri var. Tənzildə elmül-yəqin

[yəqin elm], həqqül-yəqin [yəqin haqq] və eynül-yəqin [yəqin göz] adlanır və bu barədə belə buyurulub: «əgər tam yəqinliklə bilsəydiniz ki, siz o cəhənnəmi mütləq görəcəksiniz? Bəli, siz onu mütləq öz gözünüzlə görəcəksiniz» [Ət-Təkasir. 5-7]. Digər yerdə isə belə buyurulub: «özü də cəhənnəmə atılacaqdır. Bu təkzibolunmaz həqiqətdir» [Əl-Vaqiə. 94-95]. Mərifət babında çəkilmiş od misalında deyilmişdi ki, od işığında nəzərə çarpan hər şeyi müşahidə etmək yəqin elminin dərəcəsidir və hər şeyi işıqlandıra bilən nurun qaynaqlandığı odun varlığını müayinə etmək eynül-yəqindir, odun təsiri ilə varlığın özünün məhv edilməsi isə həqqül-yəqindir. Amma vüsalın sonu arifin vücudunun yox olması ilə nəticələnir, hər vüsal məqamı yeni bir mahiyyətin məhvini tələb edir və üç mərtəbəni əhatə edir. «İşlərin həqiqətini Allah bilir».

*Altıncı fəsil.* Sükun [durma, sakitlik] haqqında. Allah-Təala buyurub: «Allahı zikr etməklə ürəkləri rahat olduğu halda iman gətirən kəslər» [Ər-Rə’d. 28].

Sükun iki növ olur. Birisi nöqsan əhlinə xas olmaqla sülukdan öncə baş verir. Belə sükun sahibi mətləbdən və kamillikdən xəbərsizdir. Başqası isə mətluba yetişən zaman, yəni sülukdan sonradır. O, kamal əhlinə xasdır və ona əminamanlıq, arxayınçılıq deyərlər. Bu iki sülukun arasındakı hala hərəkət və seyr ilə süluk deyərlər. Hərəkət vüsala meyllidir və məhəbbət üçün vacibdir. Sükun isə vüsalı müşayiət edər, ona bitişikdir və mərifət üçün vacibdir. Buna görə deyərlər ki: «Arifm hərəkəti həlak olmaqdır, məhəbbətin sükunu həlak olmaqdır». Mübaliğə ilə demişlər: «Arifin danışmağı həlak olmaqdır, məhəbbətin sükunəti həlak olmaqdır». Salikin vüsala yetişmək halı budur. Daha düzünü Allah bilər.

## Beşinci bab

*Vüsal əhlində baş verən hallar haqqında*

Altı fəsildən ibarətdir: *Birinci fəsil*: Təvəkkül haqqında; *İkinci fəsil:* Riza haqqında; *Üçüncü fəsil:* Təslim haqqında; *Dördüncü fəsil:* Tovhid haqqında; *Beşinci fəsil:* İttihad haqqında; *Altıncı fəsil:* Vəhdət haqqında.

*Birinci fəsil.* Təvəkkül haqqında. Allah-Təala buyurub: «Əgər möminsinizsə, Allaha təvəkkül edin» [Əl-Maidə. 23].

Təvəkkül bir işi kiməsə tapşırmaq və vəkalət etmək deməkdir. Burada bəndənin təvəkkülündən məqsəd odur ki, onun gördüyü və ya onun başına gələn işi Tanrı-Təalanın ondan daha bilikli və bacarıqlı olduğunu yəqin etməklə Ona tapşırsın. O da həmin işi bildiyi və istədiyi kimi görsün və bu işdən məmnun və razı olsun. «Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah öz buyuruğunu yerinə yetirəndir» [Ət-Təlaq. 23]. İnsanın sevinci Allahın gördüyü və düzəltdiyi işdən yaranır. İnsan öz keçmişi haqqında fikirləşər. Belə ki, Allah-Təala əvvəlcə onu bixəbər vücuda gətirib, lakin onun xilqətində o qədər hikmət tapıb ki, bəşər bütün ömrü ərzində onun mində birini də öyrənə bilməz və insanı yetişdirib və onun zahir ilə batinində bacardığı işləri, nöqsandan kamala doğru yüksəliş qabiliyyəti yerləşdirib, onu təmənnasız və öz məsləhətinə uyğun elə yaradıb ki, bəşər gələcəkdə da baş verəcəkləri Allah-Təaladan gözləsin və bilsin ki, Onun təqdir və iradəsindən kənara çıxa bilməz; bəşər Tanrı-Təalaya etimad etsin və nigarançılıqdan qurtulsun. Təvəkkül məqamında ona yəqin olur ki, onun iztirabından asılı olmayaraq hər nə iş düzəlirsə, Allahdan düzələr. «Özlərini Allaha həsr edənlərə Allah heç gözləmədikləri yerdən kifayət qədər azuqə və ruzi yetirər». Təvəkkül o demək deyil ki, insan əlini bütün işlərdən çəksin və desin:

«Allaha tapşırıram». Təvəkkül Allahdan başqa nə varsa, hər şeyin Allahdan baş verdiyini yəqin etməkdir və dünyada çox şeylərin mövcudluğu müəyyən şərtlər və səbəblər hesabına olur, Allah-Təalanın qüdrəti və iradəti isə hər şeyi əhatə edir. Şübhəsiz ki, hər şeyin özünəməxsus şərt və səbəbi vardır. Allahın hər şeylə əlaqəsi var və O, özünü və özünə məxsus bilik, qüdrət və iradətini həmin şərtlər və səbəblər sırasına daxil edər və bəzi işlərin baş verməsi Allaha aid edilir. Bu işlərdə Allahın qüdrət və iradəti belə işlərin şərti və səbəbidir. Sanki bir şəxs Onun vasitəsilə sahibi, yaradıcısı və aşiqi olduğu bu işi yerinə yetirmək istərkən daha ciddi və inadkar olur. Belə olanda cəbr ilə qədər müttəfiq və birləşmiş olar. Əgər insan bu işi Yaradana aid etsə, cəbr kimi xəyalda canlanar və əgər şərt və səbəb əlaqəsinə aid etsə, qədər mənasında xəyalda canlanar. Əgər düz nəzərlə təsəvvür etsə, nə mütləq cəbr olar, nə də mütləq qədər. Burada «La cəbr, la qədr, la təfviz və lakin əmrin beynə əmreyn» [nə cəbr, nə qədər, nə də təvəkkül və lakin işlər içində bir iş] sözünün mənası özünü doğruldur. Beləliklə, özünü ona nisbəti olan hərəkətlərin ixtiyar sahibi bilər, özü də vasitələrin faili deyil, vasitələrin ixtiyar sahibidir. Həqiqətən, bu iki etibar, yəni birinin hərəkətləri failə aiddir, o birinin hərəkətləri isə birləşmiş vasitələrə aiddir, bunların hər ikisi həmin vasitələrdən faydalanmağı tərk etmək şərti ilə faildən doğur. Aqil nəfs ilə müşahidə etmədən bu məqama yetişə bilməz və bu mərtəbəyə çatan hər bir şəxs yəqin bilir ki, bütün varlığın təqdir edəni o tək Allahdır, hər bir işi xüsusi vaxtda xüsusi şərt, vasitə və səbəblə icad edir, tələbdə tələsməyi, dəf etməkdə isə ləngiməyi təsirli saymır, özünü də şərtlər və səbəblər sırasından bilir, onda ixlas aləminin işlərilə bağlılıq tapır, ona xas olan tərtibdə başqasından daha inadcıldır. Bu ayə

onun haqqında və ona misal olaraq nazil edilib: «Qəti qərara gəldikdə Allaha təvəkkül et. Həqiqətən Allah təvəkkül edənləri sevər» [Ali-Imran. 159].

*İkinci fəsil.* Riza haqqında. Allah-Təala buyurub: «Bu, sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə verilənə də sevinib qürrələnməməyiniz üçündür» [Əl-Hədid. 23].

Riza məmnunluq, razılıq deməkdir, məhəbbətin səmərəsidir və inkardan vaz keçməyi tələb edir, istər zahirdə, istər batində, həm ürəkdə, həm gözdə, həm də əməldə. Zahir əhlindən tələb olunur ki, Tanrı-Təaladan razı olsunlar, onlar ölüm və yaşam, bəqa və fəna, əziyyət və rahatlıq, səadət və bədbəxtlik, varlılıq və yoxsulluq kimi müxtəlif hallardan heç birində xilqətə müxalif olmamalı, birini başqasından üstün tutmamalı və bilməlidirlər ki, onlar hamısı Bari-Təaladandırlar və Onun məhəbbəti onların təbiətlərində möhkəm yer tutmuşdur. Buna görə də gərək Onun iradətinin və muradının artırılmasını istəməsinlər və qarşılarına gələn hər şeydən razı olsunlar. Bu mərtəbənin böyüklərindən biri haqqında elə söyləyirlər ki, yetmiş il ömür sürmüşdür və bu müddət ərzində «Olması arzu olunmayan bir şeyin azalmasını hiss etmədi, olması arzu olunan isə olmadı». Ondan soruşdular ki: – Rizadan özündə nə əlamət tapmısan? Dedi: – Riza mərtəbəsinin heç qoxusu da mənə çatmamışdır. Buna baxmayaraq, əgər məni cəhənnəmə salsalar, sonra bir körpü tikdirib bütün ilkin və sonuncu xilqətləri bu körpüdən keçirib cənnətə çatdırsalar və məni cəhənnəmdə tək qoysalar, heç vaxt mənim ürəyimə gəlməz ki, niyə mənim yolum başqalarından fərqli olaraq tənhalıq oldu. Yuxarıda göstərilmiş müxtəlif halların bərabərliyi təbiətində yer tapmış hər bir şəxsin muradını həqiqətə çevirər. Burada deyiblər ki, hər kəsin başına gələn gəlməlidir, hər nə gəlməlidirsə, o da gələr və bəndənin Tanrı-

Təaladan razılıq əldə etməsi Tanrı-Təalanın bəndədən razı olmasıdır. «Allah onlardan, onlar da Allahdan razıdırlar» [Ət-Tövbə. 100]. Olacağı bəlli olan hadisələrin baş verməsinə görə etiraz edən ya etiraz etməyi mümkün sayan şəxs üçün riza mərtəbəsi nəsib olmaz və riza mərtəbəsi sahibinin ürəyi həmişə sakitdir, çünki onun üçün «olmalı» və «olmamalı» məfhumu yoxdur. Belə ki, «olmalı» və «olmamalı»nın hamısı baş verməlidir. «Allahdan olan razılıq daha böyükdür» [Ət-Tövbə. 72]. Buna görə də cənnətin qapıçısını «Rizvan» çağırırlar və deyirlər ki: «Riza Böyük Allahın qapısıdır». Hər riza dərəcəsinə yetişən cənnətə yetişər və hər baxdığı şeydə ilahi nurun mərhəmətini görər. «Mömin bəndə Allahın nuru ilə görər». Bari-Təala bütün varlığın yaradanıdır. Əgər O, işlərdən bir işi inkar etsə, o işin baş tutması mümkün deyil və heç bir işi inkar etməyəndə hər şeydən razı qalar, heç nəyə təəssüflənməz və heç bir hadisəyə görə sevinməz. «Əlbəttə, bu, məqsədə müvafiq işlərdəndir» [Ali- İmran. 186].

*Üçüncü fəsil.* Təslim haqqında. Allah-Təala buyurub: «Amma, xeyr. Sənin Allahına and olsun ki, onlar öz aralarında olan ixtilaflara səni hakim etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə iman gətirmiş olmazlar» [Ən-Nisa.65].

Təslim tapşırmaq deməkdir və burada təslim dedikdə məqsəd budur ki, salik nəyi özünə aid etsə, Tanrıya tapşırsın. Bu mərtəbə təvəkkül mərtəbəsindən üstündür, çünki təvəkküldə bir işi Tanrıya tapşıranda Allahın özünə vəkil edir və özünün bu işlə olan əlaqəsini saxlayır. Təslimdə isə bu əlaqəni kəsir və özünə aid olan işi Onun ixtiyarına verir. Bu mərtəbə riza mərtəbəsindən də üstündür, çünki riza mərtəbəsində Tanrı nə etsə, onun təbiətinə müvafiq edər.

Bu mərtəbədə isə öz təbiəti, təbiətinə müvafiq və müxalif olanların hamısı Tanrıya tapşırılar, insan üçün heç nə – nə müvafiq, nə də müxalif təbiət qalmır. Öncə bəhs edilən ayənin bu parçası: «Özlərində bir sıxıntı duymadan» [Ən-Nisa. 65] riza mərtəbəsindəndir, lakin bu parça, yəni «Tam bir itaətlə boyun əyməyincə» [Ən-Nisa. 65], daha yüksək mərtəbədəndir. Həqiqət axtaran salik nəzəri təhqiqə yetismәsə, Onun (Allahın) razılığını təmin edən, özünü Haqq-Təalanın yerinə qoyan nə riza həddində, nə də təslim həddində tapa bilməz. «Haqq ondan razı qalsın». O isə öz iradəsini təslim etməklə Haqq-Təalaya etiqad etsin. Onda tovhid olan bu qayda qüvvədən düşər.

*Dördüncü fəsil.* Tovhid haqqında. Allah-Təala buyurub: «Allahla yanaşı başqa tanrı qəbul etmə» [Əl-İsra. 22].

Tovhidin bir dərəcəsi söz ilədir, o birisi isə əməl ilə. Birinci mənada tovhid mərifətin başlanğıcı olan imanın şərtidir, yəni Haqq-Təalanın bir olmasının təsdiqilr. «Həqiqətən Allah tək bir tanrıdır» [Ən-Nisa. 171]. İkinci məna isə mərifətin kamalıdır və o, yəqin dərəcəsindən sonra əldə edilir. Yəqinlik mərtəbəsinə yetişən üçün tam yəqin olur ki, varlıq aləmində [vücudda] Bari-Təaladan və onun feyzindən savayı heç nə yoxdur, onun feyzi fərzi varlığa malik deyil. Ona görə yəqin və tovhid əhli gözünü kəsrətdən [varlığın çoxluq görüntüsündən] çəkib hər şeyi bir bilər və bir görər, hər şeyi bir etmiş olar, hüviyyət-mahiyyət mərtəbəsində olan şəriksizlikdən vücud və tovhid mərtəbəsindəki şəriksizliyə yetişər və bu mərtəbədə «masivallah», yəni Allahdan savayı olan varlıqlar onun hicabı olar. Allahdan qeyrisinə nəzər yetirmək isə mütləq şirk sayılar və bu halda belə deyilib: «Mən, həqiqətən, batildən haqqa tapınaraq üzümü göyləri və yeri yaradana

çevirdim. Mən şərik qoşanlardan deyiləmi» [Əl-Ən'am. 79].

*Beşinci fəsil.* İttihad haqqında. Allah-Təala buyurub: «Allahla yanaşı heç bir tanrıya ibadət etmə. Ondan başqa heç bir tanrı yoxdur» [Əl-Qəsəs. 88].

Tovhid bir etmək, birləşdirməkdir, ittihad isə bir olmaq, birləşmək deməkdir. O yerdə ki, «Allahla yanaşı ... qəbul etmə» [Əl-İsra. 22] başqa məna var, burada isə başqa bir məna, çünki tovhiddə mükəlləfiyyət gümanı var, amma ittihadda yoxdur. Hər dəfə daxildə mütləq yeganəlik açıq-aydın bəyan ediləndə buna heç əhəmiyyət verməz və ittihada yetişər. İttihad isə heç də o demək deyildir ki, dar-baxışlı camaat çaşıb bu məfhum adının altında bəndə ilə Allah-Təalanın birləşməsi haqqında fikirləşsin. Allah-Təala onlardan çox yüksəkdir, ittihad bəlkə o deməkdir ki, hamı Allahdan savayı nə varsa Ondan olduğunu asanlıqla gör-sün. Hamı Allah-Təalanın təcəlli nuruna baxdıqda birdir, Ondan başqasını görmür. Baxan, göz və baxılan şey olmur, hamısı bir olur. Mənsur [ibn Həllac]-un (r.ə.) duası, yəni «Mən bizim aramızda sıxışdırılmaqdayam və Sən öz lüt-fünlə bu ənaniyyəti aradan qaldır» müstəcab olmuşdur. Onun ənaniyyəti [xüdpəsəndliyi] aradan qalxmış və o, belə söyləmişdir: «Mən istənilən bir şəxsəm və istənilən şəxs mənəm». Bu yerdə bəlli olur ki, «Ənəlhəqq» deyən və «Sübhanə ma ə'zəmə şə'ni» deyənlər üluhiyyət, yəni Allah-lıq iddiasında olmayıblar, əksinə, öz fərdi mənini fəna et-məklə təkcə Allahın vücudunun bəqasını etiraf etmişlər. İs-tənilən məqsəd də budur.

*Altıncı fəsil.* Vəhdət haqqında. Allah-Təala buyurub: «Bu gün hökm kimindir? Bir olan və hər şeyə qadir olan Allahındır» [Əl-Mü'min. 16].

Vəhdət birlik, vahidlik deməkdir. O, ittihaddan üstündür, ittihadda birləşmək mənası var və ondan kəsrət qoxusu gəlir. Vəhdətdə isə ikilik nişanəsi yoxdur, orada sükunla hərəkət, fikirlə zikr, seyr ilə süluk, tələb ilə talib və mətlub, nöqsanla kamalın hamısı yox olur. «Sözünüz Allaha çatıbsa, susun».

## Altıncı bab

*Fəna haqqında*

Allah-Təala buyurub: Allahdan başqa hər şey məhvə məhkumdur» [Əl-Qəsəs. 88].

Vəhdətdə salik ilə süluk, seyr ilə məqsəd, tələb ilə talib və mətlub yoxdur. «Hər şey məhvə məhkumdur». Bu sözün isbatı və izahatı da yoxdur, təkzib ilə isbat isə qarşılıqlıdır. Kəsrət bundan başlanır. Burada təkzib ilə isbat yoxdur, təkzibin təkzibi və isbatın isbatı da yoxdur. Ona fəna deyərlər. O, yoxluğun başlanğıcıdır. «Sizə əyan olduğu kimi qayıdırsınız». Fənanın mənası kəsrətlə məhdudlaşır. «Yer üzündə olan hər kəs fanidir. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir» [Ər-Rəhman. 26-27]. Fəna həm də o mənada anlaşılır ki, nitqə gələn hər şey, vəhmə və xəyala gələn hər şey, ağıl yetişən hər şey – hamısı məhv olur. «Bütün işlər axırda Ona qayıdacaqdır». [Hud. 123].

Bu yazıda bəyan etmək istədiyimiz budur, burada söz bitir. Vəs-səlamü əla mən ittəbə’əl-hüda və li-vahibil-əql həmdü la yətənahi və səlatühü əla xeyri-xəlqihi Mühəmməd və alihit-tahirin və səlləm təslimən daimən kəsirən.

Bu risalə min yetmiş ikinci ilin cəmadiyül-əvvəl ayının doqquzu, şənbə günü[1] [köçürülüb] tamamlanmışdır.

---

[1]Miladi təqvimilə 31 dekabr 1661

# Bist bab dər elmi-üstürlab

**(Üstürlab elmi haqqında iyirmi bab)**

Fars dilindən tərcümə edən: **Hacı Rauf Şeyxzamanlı**

Redaktor: **Nəsib Göyüşov**
*filologiya elmləri doktoru*

## ÖN SÖZ

Böyük Azərbaycan alimi Xacə Nəsirəddin Tusinin bu əsəri Orta Əsr dünyasının bəlkə də ən böyük elmi-texniki nailiyyəti olan üstürlab cihazına həsr olunubdur. Tədqiqatçıların fikrinə görə III ya IV əsrdə ixtira edilmiş üstürlab böyük yol keçərək və saysız-hesabsız təkmilləşdirici dəyişiklərə uğrayaraq XIX əsrə qədər astronomların, coğrafiyaşünasların və dənizçilərin əsas texniki vasitələrindən biri olmuşdu.

Üstürlab (qədim yunan dilindən ἀστρολάβος – ulduz alan və ya ulduz tutan) elə adından da bilindiyi kimi Qədim Yunanıstanda icad olunmuş cihaz olub və ilk dəfə biz onun adına IV əsrdə yazılmış sənədlərdə rast gəlirik. Lakin o vaxt üstürlab ços sadə quruluşa malik olmuşdu və onun vasitəsilə yalnız ən elementar əməliyyatlar keçirmək mümkün idi. Sonralar Suriyada, Misirdə və Aralıq dənizi mədəniyyətinə aid digər ölkələrdə üstürlab get-gedə təkmilləşirdi və nəhayət islam dünyasına çatandan sonra məhz buradakı alimlər: Bağdadda xəlifə Əl-Mənsurun sarayında işləmiş İbrahim Əl-Fəzari və İran alimi Cabir ibn Həyyan (VIII əsr), Bağdadın Darül-hikmətində işləmiş Məhəmməd ibn Musa Əl-Xarəzmi və Bəsrə alimi Maşallah ibn Əsəri (IX əsr) və digərləri həm sözügedən cihazı yeni-yeni əlavələrlə zənginləşdirmiş, həm onun istifadə imkanlarını genişləndirmiş, həm də üstürlab haqqında mükəmməl əsərlər yazmışdılar. Biz fəxrlə deyə bilərik ki, bu böyük alimlərin sırasında Marağada rəsədxananın təsisçiisi və rəhbəri, şəxsən özü bir neçə astronomik cihazı ixtira etmiş, nücum elminə dair dəyərli əsərlərin müəllifi və tərcümə edəni Xacə Nəsirəddin Tusi özünəməxsus yer tutur. Onun yaratdığı rəsədxanada bütün dünyaya səs salan nailiyyətlər o vaxtkı

Azərbaycanda alimlərə nə qədər böyük dəyərin verilməsindən və elmin nə dərəcədə yüksək zirvələrə qalxmasından xəbər verir. Bəli, vaxt var idi ki, azərbaycanlı alimlər öz xarici həmkarlarından heç də geri qalmırdılar. Məhz həmin fakt məni müasir oxucularımızı Azərbaycanın və bütün İslam aləminin elm tarixinin bir nümunəsi ilə tanış etmək üçün "Bist bab dər elmi-üstürlab" əsərinin tərcüməsini yerinə yetirməyə yönəltdi. Onu da qeyd edək ki, hal-hazırda Azərbaycan Respublikası ərazisində ən azı üç xəzinədə üstürlab nüsxələri (AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda, Milli Azərbaycan Tarixi Muzeyində və "Suraxanı" gəmi-muzeyində) saxlnmaqdadır.

Hazırkı tərcümə üç mənbənin əsasında hazırlanıb:

1. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində hifz edilən A-366 şifrəli "Bist bab dər elmi-üstürlab" əlyazması (köçürülmə tarixi məlum deyil).
2. Qətər Milli kitabxanasında saxlanan MS 23569 şifrəli "Bist bab dər mərifəti-üstürlab" fotosurəti (köçürülmə tarixi 29 Zülqədə 1057/ 26 dekabr 1647)
3. Mirzə Əliəkbər Dehxodanın "Lüğətnamə"sində "Üstürlab" məqaləsi ki, Nəsirəddin Tusinin sözügedən əsərinin ilk 15 babını ehtiva edir.

Təəssüf ki, nüsxələrin heç birində əsərin dəqiq yazılma tarixi göstərilməmişdir.

Sonda bəzən "Orta əsrlərin kompüteri" də adlanan üstürlabın vasitəsilə həyata keçirə biləcək əsas əməliyyatların siyahısı təqdim olunur:

1. Günəşin ya ulduzun yüksəkliyinin təyin edilməsi.
2. Günəşin ekliptikada dərəcəsinin təyin edilməsi.
3. Müəyyən yüksəklikdə müqəntərənin təyin edilməsi.
4. Horoskopun təyin edilməsi.

5. Günəşin gündüz vaxtı səmada keçdiyi yol – Günəşin gündüz hərəkəti qövsünün təyin edilməsi.

6. Müstəvi (bərabər) saatların təyin edilməsi.

7. Bərabər saatlarda günün ya gecənin keçmiş saatlarının təyin edilməsiı.

8. Müstəvi (bərabər) saatdan müəvvəc (qeyri-bərabər) saata keçidinin təyin edilməsi.

9. On iki xananın təyin edilməsi (fala baxmaqda).

10. Günəşin ya sabit ulduzların orta səma xəttində meylin təyin edilməsi

11. İzadənin vasitəsilə günün və gücənin keçmiş saatlarının təyin edilməsi.

12. Günəşin yüksəkliyinin meridianda təyin edilməsi.

13. Günəşin yüksəkliyinin hər bərabər saatın başlanğıcında təyin edilməsi.

14. Səhifənin en dairəsinin təyin edilməsi.

15. Şəhərin en dairəsinin təyin edilməsi.

16. Zodiak nişanlarının çıxmasının və batmasınn təyin edilməsi.

17. Horoskopun saatın vasitəsilə təyin edilməsi.

18. Üfüqü ekliptikaya toxunan şimal şəhərlərdə uzunluq dairəsinin təyin edilməsi.

19. Öz şəhərinin uzunluq dairəsinin təyin edilməsi.

20. Günəşin və digər göy cismlərinin azimutunun təyin edilməsi.

21. Qiblənin və ya bir şəhərin azimutunun təyin edilməsi.

22. Günorta xəttinin çəkilməsi.

23. Günorta xəttinin azimutun vasitəsilə çəkilməsi.

24. Horoskopun azimutun köməyi ilə təyin edilməsi.

25. Göz cismlərinin en və uzunluq dairələrinin təyin edilməsi.

26. Göy cismləri arasında məsafənin təyin edilməsi.
27. Azan vaxtının təyin edilməsi.
28. Şəfəq vaxtınn təyin edilməsi.
29. Horoskopun üfüqlər səhifəsinin vasitəsilə təyin edilməsi.
30. Qalanın, divarın və ya dağın hündürlüyünün təyin edilməsi.
31. Hündürlüyü məlum olan qalaya ya dağa qədər məsafənin təyin edilməsi.
32. Düzənlikdə enliyin və məsafənin təyin edilməsi.
33. İki əlçatmaz obyekt arasında məsafənin təyin edilməsi.
34. Biri düz yerdə, digəri isə hündürlükdə yerləşən iki əşya arasında məsafənin təyin edilməsi.
35. Quyunun dərinliyinin təyin edilməsi.
36. Yer dairəsinin ölçülərinin təyin edilməsi.
37. Dünya qütbünün təyin edilməsi.
38. Ekliptika qütbünün təyin edilməsi.

Gördüyümüz kimi, üstürlabın vasitəsilə elmin müxtəlif sahələrində (müşahidə astronomiyası, hesablama astronomiyası, ilahiyyat, coğrafiya və topoqrafiya, riyaziyyat, münəccimlik və s.) qabağımıza çıxan məsələləri həll etmək mümkün olmuşdu.

# Bismillahir-rəhmanir-rəhim

Üstürlabın öyrənilməsinə həsr olunmuş bu müxtəsər risalə iyirmi babdan ibarətdir.

## Birinci bab

*Üstürlabın ləqəbləri, alətləri, xəttləri və dairələri haqqında*[1]

Onda olan “halqa” bir dairədir və onun içindəki dairəyə “ürvə” deyərlər. Ürvənin bağlandığı hissəyə isə “kürsi” deyərlər. Üstündə kürsi olan və içində səhifələr və digərləri yığılmış olan şeyə “hücrə” və ya “ümm” (ana)deyərlər. Hücrədə səhifələr olur və səhifələrin üzərində şəbəkəli səhifə olur ki, ona “ənkəbut” və ya “şəbəkə” deyərlər.O dairə ki, üstündə hücrə var, üç yüz altmış hissədən ibarətdir. Əvvəli o xəttdən olur ki, kürsinin üstünə qoyulub və hər 5 və 10 fasiləsi ilə üstündə rəqəmlər yazılıbdır. Onlara hücrənin “cüz”ləri (bölgüləri) deyərlər. Üstürlabın “zəhr”ində, yəni hücrənin arxa tərəfində iki ayrı və düz bucaq altında xətt çəkilibdir. Birisi əlaqə tərəfdən gəlir və ona “xətti-əlaqə”[2]və ya “xətti-vəsətüs-səma”[3] və “xətti-intisaf”[4] deyərlər, digər xəttə isə “xətti-məşriq və məğrib”[5] deyərlər. Hücrənin arxasında çəkilmiş dairəhəmin xətlərlə dörd bərabər hissəyə bölünür. Kürsinin hər tərəfində iki rübdən hər birisi doxsana bölünmüşdür. Ona “əczayi-irtifa” (yüksəklik bölgüləri) deyərlər. Beləliklə, hər iki rüb

---

[1]Üstürlab cihazı ilə əyani şəkildə tanış olmaq üçün risalənin sonunda “Üstürlabın quruluşu” adlı rəsm verilib.

[2]Xətti-əlaqə – əlaqə xətti. Əlaqə – bəzən halqaya bağlanan başqa bir halqadır.

[3]Xətti-vəsətüs-səma – orta səma xətti, münəccimlikdə, fala baxmaqda işlənir.

[4]Xətti-intisaf – yarıya bölən xətt.

[5]Xətti-məşriq və məğrib – şərq-qərb xətti.

bölünübdür və o iki rübdən o rübə ki, maili xətt üstündədir, “zill”in[1] bölgüləri nəqş olunubdur. Səhifələrdə dairələr çoxdur, o cümlədən üç parallel dairə var ki, hər üçünün (hər üç orbitin) mərkəzi səhifənin mərkəzidir. Ortada olan Qoç tropikinin və Tərəzi tropikinin dairəsidir, kənarda olan Oğlaq tropikinin dairəsi, içəridə olan isə Xərçəng tropikinin dairəsidir. Bu şimali üstürlabda olur, cənubi üstürlabda Oğlaq tropikinin dairəsi içəridə olur, Xərçəng tropikinin dairəsi kənarda. Digər dairələr də bir-birinin üzərində çəkiliblər və onların mərkəzləri səhifənin mərkəzi olmaz. O dairələrin bəziləri tam, bəziləri isə natamamdır və onlara “dəvairi-müqəntərat”[2] deyərlər və onlar səhifənin Yerin üstündəki qismindədir. Bütün dairələrin arasında olanın mərkəzində “Sad”[3] nişani qoyulubdur və ona “səmtür-rə’s”[4] deyərlər. Kənarda olan natamamdır və ona “üfüqi-məşriq və məğrib”[5] deyərlər. Çökük cəhətdə olana “fövqül-ərz”[6], qabarıq cəhətdə olana isə “təhtül-ərz”[7] deyərlər. Səhifənin mərkəzində iki düz xətt kəsişir. “Sad” nöqtəsinə qədər çəkilənə və əlaqəyə bitişənə “xətti-vəsətüs-səma” və “xətti-nisfün-nəhar”[8] deyərlər. Digərinə “xətti-məşriq və məğrib” və “xətti-istiva”[9] deyərlər. O cümlədən sağ tərəfdə olan yarıya “xətti-məğrib” (qərbi xətt) deyərlər, sol tərəfdə olana isə “xətti-məşriq” (şərqi xətt) və həmçinin ”üfüqi-məğrib”

---

[1]Zill – şkala.

[2]Dəvairi-müqəntərat – müqəntərələr dairələri. Müqəntərələr – səma sferasının üfüqə paralel kiçik dairələri, bərabər azimutlar xətləri.

[3]Sad – ص– ərəb əlifbasında bir hərfdir, bir şərti nişan kimi üstürlabın üstündə həkk olunur.

[4]Səmtür-rə’s – zenit.

[5]Üfüqi-məşriq və məğrib – şərq-qərb üfüqü.

[6]Fövqül-ərz – Yer üstü.

[7]Təhtül-ərz – Yer altı.

[8]Xətti-nisfün-nəhar – meridian.

[9]Xətti-istiva – ekvator.

(qərb üfüqü) və “üfüqi-məşriq” (şərq üfüqü). Müqəntəratların arasında artan rəqəmlər yazılıbdır. Onlar zenitə çatmır və bu artma müxtəlif üstürlablarda fərqli olur. “Südsi”də[1] altı-altı artır, “sülsi”də[2] üç-üç, “nisfi”də[3] iki-iki, “tam”da isə bir-bir. Müqəntəratın altındakı “təhtül-ərz” adlanan qismdə xırda qövslər çəkilib və o, on iki hissəyə bölünübdür. Altısı sağ tərəfdə qərb üfüqü ilə orta səma xətti arasında və digər altısı sol tərəfdə şərq üfüqü ilə orta səma xətti arasında olur və onlara “xətti-saati-müəvvəc”[4] və “saati-zəmani” deyərlər.Ola bilər ki, digər qövslər də çəksinlər ki, bir yerdə “Sad” nöqtəsinə çatsınlar. Onlara “dəvairi-sümut” (səmtlər dairələri) deyərlər və çox vaxt o qövsləri “təhtül-ərz” qismində də çəkərlər. Ənkəbutda dairə tamdır və on iki bürc (zodiak bürcləri) orada yazılır. Ona “mintəqətül-büruc”[5] deyərlər. Hər bürc “südsi”də altı-altı, “sülsi”də üç-üç hissəyə bölünübdür və bu qaydada davam edir. Rə’sül-Cədydə[6] bir artırma vardır ki, hücrənin bölgülərinə bərabərdir və ona Rə’sül-Cədyin mürisi[7] deyərlər. Digər artırmalar da var ki, hər birinin üstündə sabit ulduzlardan birinin adı yazılıbdır, onlara “şəzayaül-kəvakib” (ulduzların şəziyyələri) deyərlər və hər birinə “şəziyyeyi-kövkəb” (ulduzun şəziyyəsi) və “müri’i-kövkəb” (ulduzun mürisi) də deyərlər. Şimali üstürlablarda zodiakın içində

---

[1]Süds – altıda bir.
[2]Süls – üçdə bir.
[3]Nisf – yarım.
[4]Xətti-saati-müəvvəc – saatların əyilmiş xətti. Saati-müəvvəc – gecənin ya gündüzün on ikidə bir hissəsi, qeyri-bərabər saatlar.
[5]Mintəqətül-büruc – zodiak.
[6]Rə’sül-Cədy – qış gün dönümü. Zodiakın Qoç bürcünün əvvəli ilə bərabər bir hissəsidir. Günəş bu nöqtədə olanda bu dövrün sonu ekvatordan cənubda və qışın əvvəlinə bərabər olur.
[7]Müri bir artırmadır Rə’sül-Cədyin yanında və hücrə ilə təmasda olan, toxunan.

olan ərzi-şimalidir (şimal en dairəsidir), çöldə olan isə ərzi-cənubidir (cənub en dairəsidir). O şey ki, mıx kimi hücrənin, səhifələrin və ənkəbutun üzərinə qoyulub, ona "qütb" deyərlər. Hücrənin arxasında olan şey ki, "alati-irtifa" (yüksəklik alətləri) ona bağlanıbdır, ona "izadə" deyərlər. İzadənin hər iki böyründə bağlanmış şeylərə "dəfətan" (iki böyür) deyərlər, hər birinə ayrılıqda isə "lübnə" deyərlər. İzadənin iki tərəfində olan iki şəziyyəyə "müri'i-izadə" (izadənin mürisi) və iki "şəziyyeyi-irtifa" (yüksəklik şəziyyəsi) deyərlər. İki lübnədə iki "süqbə" (dəlik) var ki, onlara yüksəklik süqbələri deyərlər. O şey ki, üstündə qütb bərkidilib, ona "fərəs" (at) deyərlər. Fərəsin altındakı halqa ənkəbutun səthindən fərəsədək yüksəlir, ona "pəşizə" və ya "füls" deyərlər.  O artırma ki, ənkəbutun səthindən yüksəlir və o ənkəbuta dolanır, ona "müdir" deyərlər və o şeyə ki, ona səhifələr bərkidilib ki, ənkəbut hərəkət edə bilməsin, ona "mümsəkə" deyərlər. Bəzi üstürlablarda izadənin üstünə enləməsinə 12 xətt çəkərlər. Onlara "xütuti-saati-müəvvəc" (müəvvəc saatların xətləri) deyərlər. Müxtəlif şəhərlər üçün çoxlu səhifələr olur[1]. Bəzi üstürlablarda "səfheyi-afaqi" (üfüqlər səhifəsi) olur. Belə səhifələr var ki, onların rüblərinin üzərinə çoxlu dairələr çəkilmişdir. Hər rübdə bir neçə qövs var ki, hamısı bir nöqtədə kəsişir. Həmin nöqtə şərqi xətlə Qoç və Tərəzi tropikinin kəsişdiyi yerdir. O qövslərin hər birisi o yerin şərq üfüqüdür ki, onun en dairəsionun üstündə yazılıbdır. Səhifəni elə qoyarlar ki, o qövs sol tərəfə düşsün və aşağıya qabarıq olsun. O üfüqün orta səma xətti o səhifənin mərkəzindən yuxarı qalxan xətdir. Üstürlabda məşhur olan ləqəblər bunlardır. Bəzi qərib

[1]Azərbaycan üçün hazırlanmış səhifənin şəkli risalənin sonunda verilibdir.

(fərqli) düzəldilmiş üstürlablardakı hissələrin mənasına müvafiq ləqəblər var. *Hər şeyi bilən Allahdır*.

## İkinci bab

*Günəşdən və ulduzdan yüksəkliyi təyin etmək haqqında*

Məlum olduğu kimi, yüksəklik Günəşdən və ulduzlardan alınmalıdır. Əgər Günəş varsa, əlaqəni[1] sağ əldə tutarlar və ona bağlanmış üstürlabı fırladarlar, üstürlabın arxasını özünə tərəf saxlayarlar və onun bir tərəfini ki, üzərində yüksəklik bölgüləri çəkilibdir, Günəşə tərəf tutarlar və izadəni elə fırladarlar ki, Günəşin işığı bir süqbədən[2] keçib o birisinə düşsün. Bundan sonra baxmaq lazımdır ki, yüksəklik şəziyyəsi neçənci bölgüyə düşüb. O ki hasil oldu, onun[3] həmin vaxtda olan yüksəkliyidir. Əgər yüksəkliyi ulduzdan alırlarsa, onda gecə üstürlabı yuxarıda tutub bir gözlə bir süqbədən baxmaq lazımdır və izadəni elə fırlatmaq lazımdır ki, göz işığı hər iki süqbəyə düşsün və ulduz görünsün. İndi yüksəklik şəziyyəsi neçənci bölgüyə düşübsə, hasil olan həmin ulduzun yüksəkliyidir. Əgər Günəş qürsü buludların arasında görünür, ammaGünəşin nuru yerdə görsənmirsə, onda yüksəkliyi aşağıdakı yolla almaq olar. Əvvəl məlum edərlər ki, Günəş şərqidir ya qərbi. Bunun üçün bir andan sonra yüksəkliyi almaq lazımdır. Əgər artıbsa, yüksəklik şərqidir, əgər əskilibsə, onda qərbidir. Günəş ya ulduz nisfünnəhara[4] yaxın olan vaxt tam ehtiyat etmək lazımdır, çünki kiçik müddətdə təfavüt hiss olunmur və bir yüksəklik bölgüsü uzun müddət qalır.

---

[1]Əlaqə – bəzən halqaya bağlanan başqa bir halqa.
[2]Süqbə – lübnənin içindəki dəlik.
[3]Yəni Günəşin
[4]Nisfünnəhar – 1)Günorta; 2)Meridian, ekvator dairəsini düz bucaqlara bölən xətt və onun başlanğıcı ürvədədir.

## Üçüncü bab

*Məkanın yüksəkliyindən çıxmanın mərifətini öyrənmək haqqında*

Günəşin dərəcəsini zodiakdan tələb etmək lazımdır, yəni təqvimdən, və həmçinin səhifə müqəntərələrindən olan yüksəklik müqəntərəsindən. Əgər yüksəklik şərqidirsə, sol tərəfdən. Əgər qərbidirsə, sağ tərəfdən. Sonra Günəşin dərəcəsini o yüksəklik müqəntərəsinə qoyub baxmaq lazımdır ki, şərq üfüqünə zodiakın dərəcələrindən hansı dərəcə düşübdür və o dərəcə həmin vaxtda çıxmanın[1] dərəcəsidir. Həmçinin gecə yüksəklik almaq üçün istənilən ulduzun mürisini onun yüksəklik müqəntərəsinin üstünə qoymaq lazımdır (şərqi ya qərbi, necə olursa olsun) və baxmaq lazımdır ki, zodiakdan hansı dərəcə şərq üfüqünə düşüb – bu elə o vaxtın çıxmanın dərəcəsidir. Qeyri-tamam üstürlablarda bu əməl gah belə olur ki, Günəşin dərəcəsinin nişanıı iki xətt arasına düşdüyünə görə müəyyən olunmur və həmçinin gah belə olur ki, səhifədə çəkilmişyüksəklik müqəntərəsi axtarılan yüksəkliyə müvafiq olmur, bəlkə o yüksəklik iki müqəntərə xəttinnin arasına düşür. Həmçinin belə də olur ki, çıxmanın dərəcəsi bürclər bölgülərinin iki xətti arasındadır və bu vəziyyətdə əgər o təfavütdən bir miqdar nəzərə çarpsa, ola bilər ki, təqribən məqsəd hasil olsun. Hesabın bir növünü məlum etmək istəyəndə bu cür əməl etmək lazımdır və bu əmələ "tə'dil" (düzəliş) deyərlər. Amma Günəşin mövqeyində düzəliş etmək üçün aralarında Günəşin olduğuiki xətti məlum etmək lazımdır. O iki xəttin hərəsinin əvvəlini yüksəklik müqəntərələrindən bir müqəntərəyə qoysunlar və Rəsül-Cədy mürisini nişan

[1]Çıxma – hazırki mətndə bu istilah bir səma cisminin çıxması, doğması mənasında işlənibdir.

etsinlər, yəni o bölgünü ki, müri onun müqabilindədir, hücrənin bölgülərindən saysınlar və nişan etsinlər. Ardınca ikinci xətti həmin müqəntərəyə qoyub mürini nişan etsinlər. Hücrənin bölgülərində iki nişan arasındakını ölçərlər. Hasil olana düzəliş bölgüləri deyərlər. Ardınca baxarlar ki, birinci xəttlə Günəşin mövqeyi arasında necə dərəcə var. O dərəcələri düzəliş bölgülərinə vurarlar və hasili zodiakın bölgülərinin təfavütünə, yəni südsi üstürlabda altı-altı və sülsi üstürlabda üç-üç bölərlər. Əldə edilən ədədi mürinin birinci nişanından ikinci nişana tərəf sayarlar. Çatanda mürini onun üstünə qoyarlar və baxarlar ki, verilən (fərz edilən) müqəntərəyə zodiakın hansı hissəsi düşübdür. Üstünə qara nişan qoyarlar ki, o mövqe Günəşin yeridir. Onun misalı: altılıq üstürlabda "Lu"[1] en səhifəsində fərz etdik ki, Günəş Buğanın on altıncı dərəcəsindədir və o, iki xətt arasındadır. Biri on ikinci xəttdir, digəri on səkkizinci xəttdir və o vaxtın yüksəkliyi iyirmi dördüncü şərq dərəcəsidir. Əvvəl on ikinci xətti şərqi "Kod"[2] müqəntə rəsinin üstünə qoyuruq və mürini nişan edirik. Ardınca on səkkizinci xətti onun (həmin müqəntərənin) üstünə qoyuruq və mürini nişan edirik və iki nişan arasında 4,5 dərəcə əldə edirik. Bu,düzəliş bölgüsüdür. Ardınca birinci xətt, yəni Buğanın on ikisi ilə Günəşin mövqeyi, yəni Buğanın on altısı arasında təfavütü götürürük – 4 olur və düzəliş bölgülərinə vururuq – 18 hasil edirik. Onu məntəqə bölgülərinin təfavütünə, yəni altıya bölürük – 3 çıxır. Ardınca birinci nişandan ikinci nişana tərəf üç bölgü sayırıq, çatan yerin üstünə mürini qoyuruq və laməhalə (istər-istəməz) müri ilə ikinci nişan arasında 1,5 bölgü qalır. Baxırıq ki, şərqi "Kod" müqəntərəsinə hansı bölgü

[1]Lu –لو–səhifələrin birinə qoyulmuş şərti addır.
[2]Kod –كد –müqəntərələrin birinə qoyulan şərti addır.

düşübdür. O bölgü Günəşin mövqeyidir. Oraya bir nişan qoyuruq ki, ehtiyac yarananda məlum olsun. Amma müqəntəratın düzəlişini elə yerinə yetirmək lazımdır: mövcud yüksəklik iki müqəntərə arasına düşəndə Günəşin mövqeyini birinci müqəntərənin üstünə qoyub mürini nişan etmək lazımdır. Ardınca daha böyük olan ikinci müqəntərəyə qoyub mürini nişan etmək lazımdır. İki nişan arasındakına düzəliş bölgüləri deyərlər. Ardınca birinci müqəntərə ilə mövcud yüksəklik arasındakı təfavütü düzəliş bölgüsünə vurmaq lazımdır və hər iki müqəntərə arasındakı təfavütə ki, südsi üstürlablarda altıdır və sülsilərdə üçdür, bölmək lazımdır. Ardınca mürini birinci nişandan ikinci nişana tərəf alınmış qismət miqdarında fırlatmaq lazımdır ki, Günəşin dərəcəsi tapılan yüksəkliyin üstündə olsun. Onun misalı. Südsi üstürlabda "Lu" en səhifəsində Günəşin Buğanın 12 dərəcəsində olduğunu fərz edək və Günəşin yüksəkliyini 26 dərəcədə tapdıq və o, "Kod" müqəntərəsi ilə "Lam"[1] müqəntərəsi arasındadır. Günəşin mövqeyini "Kod" müqəntərəsinin üstünə qoyuruq və mürini nişan edirik, ardınca Günəşin mövqeyini "Lam" müqəntərəsinə qoyuruq və mürini nişan edirik. İki nişan arasında 7,5 dərəcə tapdıq və bu,düzəliş bölgüləridir. Ardınca "Kod" müqəntərəsi ilə "Ku"[2] (Günəşin yüksəkliyi) arasındakı təfavütü, və o 2-yə bərabərdir, düzəlişin bölgülərinə vururuq – 15 hasil olur. Onu iki müqəntərənin arasındakı təfavütə ki, 6-yə bərabərdir, bölürük – 2,5 çıxır. Birinci nişandan sayırıq, o mövqeyə çatır ki, ondan ikinci nişanadək 5 olur. Mürini o mövqeyə qoyuruq. Günəş mövcud yüksəkliyə düşür. Amma çıxmanın düzəlişini elə yerinə yetirmək lazımdır: zodiakdan bir mövqe şərq

[1]Lam – ل – müqəntərələrin birinə qoyulan şərti addır.
[2]Ku – كو –şərti addır.

üfüqünə düşəndəiki xəttin arasında mürini nişan etmək lazımdır. Ardınca o iki xəttdən birinci xətti şərq üfüqünə qoyaraq mürinin mövqeyini nişan etmək lazımdır. İki nişan arasındakı təfavütü alırıq və ona bölgülərin təfavütü adı qoyulubdur. Ardınca ikinci xətti şərq üfüqünə qoyuruq və mürini nişan edirik. Birinci xəttin nişanı ilə ikinci xəttin nişanı arasındakı təfavütü alırıq və ona düzəliş bölgüləri deyirik və o, hər halda bölgülərin təfavütündən çox olur. Ardınca iki xətt arasında olan bölgülərin təfavütünü iki xətt arasında olana, yəni altıya ya üçə ya da bu üstürlabın hesabıyla olana vurmaq lazımdır və hasili düzəlişin bölgülərinə bölmək lazımdır. Nəticəni birinci xəttə əlavə etmək lazımdır. Hasil olan çıxma dərəcəsidir. Onun misalı. Günəş Buğanın 12-ci dərəcəsindədir. Şərqi yüksəklik südsi üstürlabda "Lu"səhifəsində 18 dərəcədir. Buğanın 20 dərəcəsini "Yəh"[1] müqəntərəsinə qoyuruq. Zodiakdan Əkizlərin xətt 6 və xətt 12 arasındakı nöqtəsişərq üfüqünə düşüb və mürini nişan edirik və Əkizlərin xətt 6-nı şərq üfüqünə qoyuruq və nişan edirik. Görürük ki, bölgülər təfavütü 3,5 dərəcədir. Ardınca Əkizlərin xətt 12-ni şərq üfüqünə qoyuruq və nişan edirik. Görürük ki,Əkizlərin 6 dərəcəsində qoyduğumuz nişanla bu nişan arasında təfavüt 5,5-dır. Bu, düzəliş bölgüsüdür. Üstürlab südsi olanda iki xətt arasındakı təfavüt 6-dır. 3,5-a bərabər olanbölgülər təfavütünü 6-ya vururuq. Hasili ki, 21 oldu, 5,5-a bərabər olandüzəliş bölgüsünə bölürük, 3 və kəsri yarımdan çox çıxır. Onu (yəni yarımdan çox olanı) da 1 kimi götürdük, 4 oldu. Birinci xəttə, və o, Əkizlərin 6-sıdır, əlavə edirik, Əkizlərin 10 dərəcəsi olur və bu, çıxma dərəcəsidir.

---

[1]Yəh – يه–şərti addır.

## Dördüncü bab

*Çıxmanın yüksəkliyinin öyrənilməsi haqqında*

Bu bab ondan əvvəlki babın əksidir və buna ehtiyac o yerdə olar ki, çıxmanı müəyyən ediblər və həmin vaxtda Günəşin və ya ulduzun yüksəkliyini məlum etməyi istəsinlər. Bir vaxt ya digər vaxt baxıb görərlər ki, yüksəklik o yüksəkliyə müvafiqdir və bilərlər ki, çıxma vaxtı o dərəcədədir ki, ixtiyar ediblər. Bu işin yolu budur ki, çıxmanın təyin olunmuş dərəcəsini şərq üfüqünün üstünə qoyarlar və baxarlar ki, Günəşin dərəcəsi müqəntərələrdən hansı müqəntərədədir, şərqidə ya qərbidə. O ki var, Günəşin yüksəkliyidir. Elə ki, Günəş yüksəkliyin o dərəcəsinə çatdı, tələb olan vaxtdır. Əgər Günəşin dərəcəsi müqəntərənin üstünə düşməyibsə və Yerin altındadır, çıxma vaxtı gecəyə düşür. Yerin üstündə sabit ulduzlardan birinə baxmaq lazımdır ki, hansı müqəntərədədir, şərqidə ya qərbidə və vaxta baxmaq lazımdır ki, o ulduzun yüksəkliyi həmin miqdara (nöqtəyə) şərqdə ya qərbdə çatıb. Həmin vaxt o dərəcədə çıxmanın vaxtıdır.

## Beşinci bab

*Dair, müstəvi və müəvvəc saatlar və müəvvəc saatların bölgüləri haqqında*

Günəşin dərəcəsini mövcud yüksəklik müqəntərəsinin üstünə qoyarlar və Rəsül-Cədy mürisini nişan edərlər, ardınca Günəşin dərəcəsini şərq üfüqünə qoyarlar və mürini nişan edərlər və ikinci nişandan birinci nişanadək ardıcıllıqla sayarlar. O ki hasil oldu, gündən keçmiş dairdirvə əgər qərb üfüqə qoysalar, nişan etsələr və ikinci nişanla birinci nişan arasında saysalar, o ki hasil oldu, gündən qalmışdairdir. Həmçinin əgər ulduzun şəziyyəsini mövcud yüksəklik müqəntərəsinin üstünə qoysalar və Rəsül-Cədy

mürisini nişan etsələr, ardınca da Günəşin bölgüsünüqərb üfüqünə qoysalar və nişan etsələr və ikinci nişanla birinci nişan arasında ardıcıllıqla saysalar, onda gecədən keçmiş dair olar. Amma əgər Günəşin bölgüsünü şərq üfüqünə qoysalar və nişan etsələrvə birinci nişandan bu nişanadək saysalar, gecədən qalmış dair məlum olar.Əgər çıxma məlumdur və indi çıxmadan dairi məlum etmək istəsələr, Günəşi və ya ulduzun şəziyyəsini yüksəklik müqəntərəsinin üstünə qoymağın yerinə çıxmanın dərəcəsini şərq üfüqünə qoyarlar və nişan edərlər və bundan öncə deyilən əməllərin qalanlarını da yerinə yetirərlər, nəticədə keçmiş ya qalmış dair məlum olar. Dairi on beş hissəyə böləndə nəticəsi (qismət) saəti-müstəvidir[1]. Belə ki, dövri-fələk (səma dairəsi) 360 dərəcədir və onu 24 saata böləndə hər saata düşən pay 15-ə bərabərdir. Yerdə qalanların hər birini 4 kimi götürərlər, bundan saatın dəqiqələri çıxılar və o saatlarla dəqiqələr gündən və ya gecədən keçənlər ya qalanlardır. Əgər günün bütün saatlarını (məcmuəsini) öyrənmək istəsələr, Günəşin bölgüsünü şərq üfüqünə qoyarlar və mürini nişan edərlər. Ardınca qərb üfüqünə qoyarlar və nişan edərlər. İki nişan arasındakını sayarlar – qövsün-nəhar[2] məlum olar. Ardınca, deyildiyi kimi, qövsün-nəharı on beş yerə bölərlər və yerdə qalanı (yəni nəticəsini) dördə vurarlar ki, günün saatları və dəqiqələri məlum olsun. Onu iyirmi dörddən çıxanda yerdə qalanı gecənin saatları və dəqiqələridir. Əgər istəsələr,Günəşin bölgüsünün əvvəlini qərb üfüqünə qoyub nişan edərlər, ardınca şərq üfüqünə qoyub nişan edərlərvə iki nişan arasındakını sayarlar – qövsül-leyl[3] çıxar. Onu on

[1]Saəti-müstəvi – müstəvi saat, bərabər saat ,gecə-gündüzün 24-də biri, səmada 15 dərəcə dövr edən mədardır, yoldur.
[2]Qövsün-nəhar – Günəşin gündüz hərəkətinin qövsü.
[3]Qövsül-leyl – Günəşin gecə hərəkətinin qövsü.

beş yerə bölərlər – gecə saatları çıxar. Əgər sabit ulduzlardan birinin ki, gecə çıxır, hansı saatda çıxdığını bilmək istəsələr, Günəşin bölgüsünü qərb üfüqünə qoyarlar, mürini nişan edərlər, ulduzun şəziyyəsini isə şərq üfüqünə qoyarlar və mürini nişan edərlər. Hər iki nişan arasındakını sayarlar. Nə çıxsa – Günəşin batmasından o ulduzun çıxmasınadək keçən saatlardır. Amma müəvvəc saatların[1] bölgülərinə gəlincə, belə olur ki, qövsün-nəharı on ikiyə bölərlər, gün saatlarının bögüləri əldə edilər. Onu beşə vurarlar ki, günün müəvvəc saatlarının bölgüləri və onun dəqiqələri məlum olsun. Onu otuzdan çıxanda gecə müəvvəc saatlarının bölgüləri məlum olur. Digər vəch (misal). Günəşin dərəcəsinin nəzirini, yəni Günəşə müqabil dərəcəni müqəntərələrin altında çəkilmiş müəvvəc saatlarının xəttlərindən olan bir xəttin üstünə qoyarlar, mürini nişan edərlər və ardınca Günəşin dərəcəsinin nəzirini o xəttin yanındakı başqa bir xəttin üstünə qoyarlarvə mürini nişan edərlər. O iki nişanın arasında olan günün müəvvəc saatlarının bölgüləridir. Əgər Günəşin dərəcəsini bu xəttlərin üstünə qoysalar, o ki çıxsa – gecə saatlarının bölgüləridir. Əgər qövsül-leyli on ikiyə bölsələr, gecə saatlarının bölgüləri əldə edilər. Əgər onun üstünə günün ya gecənin müstəvi saatlarının rübünü artırsalar, hasil olan günün müəvvəc saatlarının bölgüləridir. Əgər müəvvəc saatların bölgülərinin beşdəbirini çıxsalar, yerdə qalan günün müstəvi saatlarının bögüsüdür. Belə ki, müəvvəc saatlarla müstəvi saatlar bərabər olanda müəvvəc saatların bölgüsü müstəvi saatların bölgüsündən saatın rübü qədər artıq olur, saatlar isə bölgüdən bölgünün beşdəbiri qədər əskik olur və bu aydındır. Müstəvi saatlar gah artar, gah azalar, onda bölgülər də müvafiq olaraq artıb

[1]Müəvvəc saatlar – əyri saatlar, qeyri-bərabər saatlar, gecənin ya gündüzün on ikidə bir hissəsi.

azalar və saatlarla bögülər arasındakı bu nisbət daim qorunar (dəyişməz qalar). Amma gündən ya gecədən keçmiş müəvvəc saatları bu yolla məlum edərlər: Günəşin bölgüsünü yüksəklik müqəntərəsinin üstünə qoyub baxarlar ki, nəziri qərb üfüqünün müəvvəc saatlarının xətlərindən hansı xəttin üstünə düşübdür. Ardınca baxarlar ki, xəttin hansı hissəsinə düşübdür. O ki məlum oldu, gündən keçən müəvvəc saatlardır. Əgər iki xətt arasına düşübsə, mürini nişan edərlər, ardınca Günəş dərəcəsinin nəzirini o xəttə qoyarlar ki, qərb cəhətdədir, yenə nişan edərlər və iki nişan arasını alarlar, altmışa bölərlər və günün saatlarının bölgülərinə bölərlər ki, dəqiqələri alsınlar. Onu tam saatlara əlavə edərlər – gündən keçən saatlar və dəqiqələr məlum olar. Əgər gecədirsə, onda ulduzu yüksəklik müqəntərəsinə qoyarlar və baxarlar ki, Günəşin bölgüsü hansı saatın xəttinə düşüb. Nəyin üstünə düşübsə, deməli, o qədər saat gecədən keçib. Əgər iki xətt arasına düşübsə, onda, gündüzdə dediyimiz kimi, dəqiqələrə baxarlar ki, gecədən keçmiş saatlar və dəqiqələr məlum olsun. Bu halda gün saatlarının yerinə gecə saatlarının bölgülərinə baxarlar. Əgər müəvvəc saatların xəttlərini izadədə çəksələr, əvvəl Günəşin dərəcəsini meridianın üstünə qoyarlar və baxarlar ki, hansı müqəntərədədir. O ki oldu – o gün üçün dəqiq Günəşin yüksəkliyidir. Ardınca yüksəkliyin şəziyyəsini üstürlabın arxasında o yüksəkliyin mislində (?) qoyarlar və üstürlabı fırladarlar ki, böyrü Günəşə doğru olsun, onda lübnənin kölgəsi izadənin üstünə düşər və heç bir tərəfdən təhrif olmaz. Ardınca kölgə tərəfin hansı xəttin üzərinə düşdüyünə baxarlar. İndi baxarlar ki, o xəttin üstündə hansı rəqəm yazılıbdır və o rəqəm günün keçən saatlarıdır. Əgər o gündən ya gecədən keçmiş müstəvi saatı məlum olsa və müəvvəc saatı məlum etmək istəsələr, müstəvi saatı on beşə vurarlar. Əgər onda

dəqiqələr olsa, hər dörd dəqiqəni bir dərəcə kimi götürərlər, hamısını toplayarlar ki, dair məlum olsun. Ardınca bu dairi günün ya gecənin saatlarının bölgülərinə bölərlər ki, müəvvəc saatlar məlum olsun. Əgər müəvvəc saatlar məlum olsa və müstəvi saatları məlum etmək istəsələr, onu müəvvəc saatların bölgülərinə vurarlar ki, dair məlum olsun və on beşə bölərlər ki, müstəvi saatlar məlum olsun.

## Altıncı bab

*Günəşin meylinin, onun dəqiq yüksəkliyinin və ulduzun uzunluq dairəsinin müəddilünnəhardan[1] və onun yüksəkliyindən öyrənməsi haqqında*

Günəş dərəcəsini meridianın üstünə qoyub baxarlar ki, yüksəklik müqəntərələrindən hansı müqəntərəyə düşübdür. O müqəntərə bu en dairəsi səhifəsində Günəşin dəqiq yüksəkliyidir. Baxmaq lazımdır ki, Günəşin mövqeyi ilə Qoçtropiki arasında neçə dərəcə var. Əldə edilən nəticə Günəşin meylidir. İndi əgər Günəşin mövqeyi Qoç tropikinin xaricindədirsə, meyl cənubidir, amma içindədirsə – şimalidir və o müqəntərə ki, Qoç tropiki onun üzərindən keçir, bütün bu bələdin[2] en dairəsinə bərabərdir. Üzərindən Qoç tropikinin keçdiyi müqəntərə bələdin bütün en dairəsinə bərabərdir və Qoç tropiki ilə iki digər tropik (Xərçəng və Oğlaq tropikləri) arasında meyl ümumi olur. Əgər ulduzun şəziyyəsini meridianın üstünə qoysalar, həmin yer ulduzun dəqiq yüksəkliyidir. İndi əgər ulduzun şəziyyəsi səhifənin qütbü ilə "Sad" nöqtəsi arasında olsa, ulduz zenitin şimal tərəfindən hərəkət edir, amma əgər onların xaricindədirsə, onda cənub tərəfindən keçir. Ulduz şəziyyə-

[1]Müəddilünnəhar – gecə-gündüzün bərabərliyi.
[2]Bələd – üstürlabdan istifadə edənin tədqiqat apardığı əsnada dayandığı yer, şəhər, ölkə.

sinin mövqeyi ilə Xərçəng tropiki arasında olan şey gecə-gündüz bərabərliyindən ulduzun uzunluq dairəsinin müqəntərələrindəndir. Xərçəng tropikinin içindən keçən şəziyyələrin uzunluq dairəsi şimalidir və kənarından keçənlərin uzunluq dairəsi[1] cənubidir. Xərçəng tropikindən keçən və gecə-gündüzün bərabərliyində olanın uzunluq dairəsi olmur, yüksəkliyi isə bütün bələdin en dairəsidir.

## Yeddinci bab

*Ekvatorda və bələddə bürclərin çıxması, məmərrin[2],çıxmanın və batmanın dərəcələri və tədilünnəhar[3] haqqında*

Əgər ekvatorda bürclərin çıxmasını məlum etmək istəsələr, əvvəl istənilən bürcü və dərəcəni şərq xəttinə qoyub baxarlar ki, müri hansı bölgüdədir. Bölgülərin başlanğıcından, yəni əlaqə xəttindən, ardıcıllıqla, yəni sağ tərəfə, bir neçə bölgü gəlir. Ekvatorda o bürcün çıxması və dərəcəsi Xərçəngin əvvəlindən başlayır. Əgər bu bələddə bürclərin çıxmasını istəsək, bürcü və dərəcəni şərq üfüqünə qoymalıyıq və dediyimiz şəkildə bələddə çıxması məlum olar. Əgər fərz edilən qövsün çıxmasını bələddə ya ekvatorda məlum etmək istəsək, o qövsün başlanğıcını şərq xəttinin və ya şərq üfüqünün üstünə qoymalıyıq və mürini nişan etməliyik. Ardınca qövsün axırını da oraya qoyub mürini nişan etməliyik və iki nişan arasını saymalıyıq – o qövsün çıxmaları məlum olar. Əgər şərq xəttinə qoysaq – ekvatorda çıxmalar olar. Əgər şərq üfüqünə qoysaq – bələddə

[1]Burada səma cismlərinin uzunluq dairəsi nəzərdə tutulur.
[2]Məmərr – meridianı ulduzla eyni vaxtda keçən ekliptika dərəcəsi.
[3]Tədilün-nəhar – Əbu Reyhan Biruni özünün "Ət-Təfhim" əsərində bi istilahın tərifini belə vermişdir: Tədilün-nəhar Fəzlün-nəharın yarısıdır. Fəzlün-nəhar isə günün orta gündən (on iki saatdan) artıq ya əskik olanıdır.

çıxmalar olar. Əgər sabit ulduzlardan birinin şəziyyəsini şərq üfüqünə qoyub baxsaq ki, müri hücrənin başlanğıcında bölgülərin hansı bölgüsünə düşübdür, o bölgüyədək sayarıq. Kənara düşən – o ulduzun çıxma dərəcəsidir. Əgər şərq xəttinə qoysaq, onda kənara düşəno meridianda ulduzun məmərrinin çıxmalarıdır. Əgər ulduzun şəziyyəsini qərb üfüqünə qoysaq, onda əmələ gələn – ulduzun batma dərəcəsinin nəzirinin çıxmasıdır. Fələkül-bürucda[1] çıxmanın, batmanın və məmərrin dərəcələrini də bu yolla məlum etmək olar. Belə ki, ulduzun şəziyyəsini şərq üfüqünə qoysaq, fələkül-bürucun o hissəsi ki, onunla şərq üfüqündədir – onun (ulduzun) çıxma dərəcəsidir. Əgər qərb üfüqünə qoysaq, onda batma dərəcəsi olar. Əgər şərqi xəttə və ya orta səma xəttinə qoysaq, o bölgü ki onda olur, onun məmərrinin dərəcəsidir. Əgər fələkül-bürucdan və ya sabit ulduz şəziyyəsindən bir dərəcəni şərq üfüqünə qoyub mürini nişan etsək, ardınca şərq xəttinə qoyub mürini nişan etsək, səhifənin üzərində iki nişan arasında olan o dərəcənin və ya o ulduzun tədilünnəharı olar.

## Səkkizinci bab

*On ikilik xanaların[2]öyrənməsi haqqında*

Çıxma dərəcəsini şərq üfüqünə qoysaq, qərb üfüqündə olan yeddinci dərəcədir, meridian xəttiyerin üstündədirsə – onuncu dərəcədir vəyerin altındadırsa – dördüncü dərəcədir və bunlar vətədlərdir[3]. Ardınca yeddinci dərəcəni zəmani saatı ilə 2-yə qoyuruq, günorta meridianında 11-ci dərəcə

[1]Fələkül-büruc – qədim elmi nəzəriyyəyə görə zodiak bürclərinin də yer aldığı səkkizinci fələk.
[2]Xana – bir insanın falına baxmaq üçün üfüqə və həmçinin ekliptikanın üfüqlə və meridianla kəsişən nöqtələrə bağlı olan səma sferasının bölünməsi. Hər xana 30 dərəcədir.
[3]Vətəd – rəmmallıqda xananın halıdır.

olur, gecəyarısı meridianında – beşinci. Ardınca yeddinci dərəcəni zəmani saatı ilə 4-cü xəttə qoyuruq, günorta meridianında 12-ci dərəcə olur, gecəyarısı meridianında 6-cı olur. Ardınca çıxma dərəcəsini zəmani saatı ilə 10-cu xəttə qoyuruq, günorta meridianında 9-cu dərəcə olur, gecəyarısı meridianında 3-cü olur. Ardınca çıxma dərəcəsini zəmani saatı ilə 8-ci xəttə qoyuruq, günorta meridianında 8-ci dərəcə olur, gecəyarısı meridianında 2-ci olur. Bu yolla 12-lik xanaların dərəcələri məlum olar.

## Doqquzuncu bab

*Sübhün və şəfəqin saatları haqqında*

Günəş dərəcəsinin nəzirini qərbi 18 dərəcəli müqəntərənin üstünə qoyub mürini nişan edirik. Ardınca qərb üfüqünə qoyub mürini nişan edirik, iki nişan arasını sayırıq və 15-ə bölürük. O ki əmələ gəldi – sübhün açılması (fəcri-sadiq) ilə Günəşin çıxması arasındakı saatlardır. Həmçinin Günəş bölgüsünün nəzirini şərq üfüqü üstünə qoyub mürini nişan edirik. Ardınca şərqi 18 dərəcəli müqəntərənin üstünə qoyub mürini nişan edirik və iki nişan arasını sayırıq və 15 hissəyə bölürük. O ki əmələ gəldi – Günəşin batması ilə şəfəqin batması arasındakı saatlardır. Əgər bir ulduzun yüksəkliyini alsaq, o ulduzun şəziyyəsini onun müqəntərəsinin üstünə qoyuruq, ardınca baxırıq ki, Günəş bölgüsünün nəziri yüksəklik müqəntərələrindən hansı müqəntərədədir. Alınan nəticəYerin zilli konusunun təpəsinin yüksəkliyi oldu. Əgər şərqi olub və 18 dərəcədən əskikdirsə, şəfəq hələ düşməyib. Əgər ondan artıqdırsa, onda şəfəq düşübdür. Əgər qərbi olub və artıqdırsa, onda sübh hələ açılmayıb və əgər 18 dərəcədən əskikdirsə, sübh açılıb. Əgər orta səma xəttindədirsə, deməli, gecəyarısıdır.

## Onuncu bab

*Zillin[1] yüksəklikdən və yüksəkliyin zilldən öyrənilməsi haqqında*

Əgər üstürlabın arxasında çəkilmiş zillərin başlanğıcı əlaqə xəttindədir və qərbi xəttədək çəkilibdirsə, onlar zilli-müstəvidirlər (üfüqi şkala). Bir yüksəklik şəziyyəsini 45 dərəcə yüksəkliyə qoyub baxmaq lazımdır ki, o biri şəziyyə hansı əlaqənin üstünə düşübdür. Əgər 12-nin üstünə düşübsə, onda bu zilli-əsabedir[2] (barmaqlar şkalası). Əgər 7-yə və ya 6,5-ə düşübsə – zilli-əqdamdır (ayaqlar şkalası). Yüksəklik məlum olan kimi ulduzun şəziyyəsini onun üstünə qoyarlar. Onda digər şəziyyə tələb olunan yüksəkliyin zillinin üstünə düşəcək. Amma əgər o rübü ki, üzərində zill nəqş edilibdir, iki yarıya bölsələr və ortadan iki perpendikulyar çıxarsalar – biri əlaqə xəttinə, digərini isə şərq-qərb xəttinə tərəf – və hər əmudu on iki hissəyə bölüb üzərində əlamətləri (nişanları) yazsalar – birində əlaqə xəttindən, digərində isə şərq-qərb xəttindən başlayaraq – ona zilli-sülləm (pilləkan şkalası) deyərlər. Baxarlar ki, əgər yüksəklik 45 dərəcədən çoxdursa, onda sözügedən zilli-əsabedir və zilli-müstəvidir (üfüqi şkala). Əgər 45 dərəcədən əskikdirsə, onda zilli-mə'kusdur (şaquli şkala). 144-ü ona bölmək lazımdır. O ki çıxdı, zilli-müstəvidir. Əgər zill məlum olsa, amma yüksəklik məlum olmasa, onda izadənin şəziyyəsini o zillin üstünə qoyarlar. Bu halda digər şəziyyə tələb olunan yüksəkliyin üzərinə düşəcəkdir. Əgər üstürlabın arxasında zilli-sülləm varsa, baxmaq lazımdır. Əgər məlum zilli-müstəvi 12-dən əskikdirsə, bu əməli yerinə ye-

---

[1]Zill – ərəbcə kölgədir.Üstürlabın zəhrində (arxasında) çəkilən şkalaya deyilir.

[2]Zilli-əsabe – adətən zillər kvadratının sol yarısı 12 hissəyə (barmaqlara), sağ yarısı isə 7 hissəyə (ayaqlara) bölünürdü.

tirmək lazımdır. Amma əgər artıqdırsa, onda 144-ü ona bölmək lazımdır. Nəticəsi (qismət) o perpendikulyarda ki, şərq-qərb xəttinə düşübdür, zilli-məkusdur. Tələb etmək lazımdır və şəziyyəni onun üzərinə qoymaq lazımdır ki, digər şəziyyə tələb olunan yüksəkliyin üzərinə düşsün.

## On birinci bab

*Gələn ilin başlanğıcını keçən ilin başlanğıcından öyrənilməsi haqqında*

Keçən ilin başlanğıcı məlumdursa və gələn ilin başlanğıcını öyrənmək istəsələr, ilin başlanğıcının dərəcəsini şərq üfüqünə qoyarlar və baxarlar ki, müri hansı bölgüyə düşübdür. Bundan sonra bürclərin bölgülərinin ardıcıllığına zidd olan hücrə bölgülərinin ardıcıllığı ilə 87 bölgü sayarlar və şəziyyəni (və ya mürini) oraya gətirib baxarlar ki, şərq üfüqünə hansı bürc və dərəcə düşübdür. O ki düşüb – gələn ilin başlanğıcıdır. Ardınca baxarlar ki, Günəşin mövqeyi Yerin üstündədir ya altındadır. Əgər Yerin üstündədirsə, ilin təhvili gündüz vaxta, əgər altındadırsa, onda gecə vaxtına düşür. Ardınca dediyimiz qaydada təhvil saatını məlum etmək lazımdır. Doğum ilinin təhvilinin çıxmasını də hesablayıb almaq lazımdır.

## On ikinci bab

*Bələdin en dairəsinin öyrənilməsi və dəqiqləşdirilməsi haqqında*

Əgər bələdin en dairəsi dəqiq məlum deyilsə və günün günorta yüksəkliyini məlum etmək lazım olsa, onda yüksəkliyi hər an öyrənərlər, ta bir həddə çatar ki, daha artmaz vəondan sonra üzünü azalmağa tutar. Ardınca o gün Günəş təqviminin dərəcəsini məlum edərlər və dediyimiz kimi onun müəddildən (orta göstəricidən) meylini alarlar. Əgər

Günəş Qoçun əvvəli və Tərəzinin arasındadırsa, Günəşin meylini yüksəkliyin həddindən (maksimumundan) çıxarlar və əgər digər yarıdadırsa, onda yüksəkliyin həddinə (maksimumuna) artırarlar. O ki hasil oldu, onu 90-dan çıxarlar, yerdə qalanı bələdin en dairəsidir. Əgər gecə vaxtı olsa, ulduzun maksimal yüksəkliyini məlum edərlər və uzunluq dairəsini dediyimiz kimi gecə-gündüzün bərabərliyindən alarlar. Əgər ulduz Qoç tropikindən kənar dövr edirsə, uzunluq dairəsini maksimal yüksəkliyə əlavə edərlər. Əgər tropikin içində dövr edirsə, uzunluğu maksimal yüksəklikdən çıxarlar. Ardınca əldə edilmiş hasili ya fərqi 90-dan çıxarlar. Yerdə qalan bələdin en dairəsidir. Əgər gecə vaxtı olsa, onda ulduzun maksimal yüksəkliyini məlum edərlər və uzunluq dairəsini dediyimiz qaydada gecə-gündüzün bərabərliyindən alarlar. İndi əgər ulduz Xərçəng tropikindən kənar çölündə dövr edirsə, onda uzunluq dairəsini maksimal yüksəkliyə artırarlar, əgər tropikin içində dövr edirsə, uzunluq dairəsini maksimal yüksəklikdən çıxarlar və hasili ya fərqi 90-dan çıxarlar. Yerdə qalan bələdin en dairəsidir. Əgər həmişə görünən ulduzlardan bir ulduzu götürsələr ki, ən yüksək yüksəkliyini və ən alçaq yüksəkliyini məlum etsinlər, ən kiçiyini ən böyüyündən çıxarlar, əldə ediləni iki yarıya bölərlər və bir yarını daha kiçik yüksəkliyə artırarlar və yaxud daha böyük yüksəklikdən çıxarlar – bələdin en dairəsi əmələ gələr.

## On üçüncü bab

*Səhifəsi olmayan şəhərdə çıxma vaxtının öyrənilməsi haqqında*

Əgər bir bələdin en dairəsi səhifədə yoxdursa və onun çıxma vaxtını məlum etməyi istəsək, ona yaxın olan səhifəni götürüb çıxma vaxtını o səhifədə məlum edərik və onu

bizim şəhərin en dairəsi ilə səhifənin en dairəsi arasındakı təfavütə vurarıq və ümumi meylə bölərik. Əmələ gələn – düzəlişdir. Ardınca çıxma dərəcəsini o səhifədə şərq üfüqünə qoyarıq və baxarıq ki, müri haraya düşübdür. Onu nişan edərik. Əgər səhifənin en dairəsi bizim şəhərimizin en dairəsindən böyükdür və çıxma meyli şimalidirsə, ənkəbutu bürclərin ardıcıllığı istiqamətində fırladarıq ki, müri öz mövqeyindən düzəlişə bərabər ölçüdə əskilsin. Amma əgər çıxma meyli cənubidirsə, onda o ardıcıllığa zidd istiqamətdə fırladarıq ki, müri düzəliş qədər öz mövqeyindən əskilməsin. Əgər səhifənin en dairəsi bizim şəhərimizin en dairəsindən kiçikdir və çıxma meyli şimalidirsə, onda ənkəbutu bürclərin ardıcıllığına zidd istiqamətdə fırladarıq və əgər meyl cənubidirsə, ardıcıllıq istiqamətində fırladarıq ki, düzəliş qədər əskilsin. Ardınca baxarıq. Şərq üfüqünə düşən – tələb olunan şəhərin çıxmasıdır. *Və hər şeyi bilən Allahdır.*

## On dördüncü bab

*Fələkül-büruc qütbünün yüksəkliyinin öyrənilməsi haqqında*

Çıxma vaxtından 90 dərəcəni çıxırıq. Yerdə qalana baxırıq ki, çıxma dərəcəsini şərq üfüqünə qoyduğumuz vaxt hansı müqəntərəyə düşür və yüksəkliyi neçədir. Olanı 90-dan çıxırıq. Yerdə qalan o vaxt üçün fələkül-bürucun qütbünün yüksəkliyidir.

## On beşinci bab

*Yüksəklikdən səmtin və səmtdən yüksəkliyin öyrənilməsi haqqında*

Üzərində dəvairi-sümut (səmt dairələri) çəkilmiş üstürlaba səmt üstürlabı deyərlər. Yuxarıda dediyimiz kimi, on-

lar bəzilərində təhtül-ərz hissəsində, bəzilərində isə fövqül-ərz hissəsində çəkilib. Əgər fövqül-ərz hissəsində çəkilibsə, yüksəklik müqəntərəsinə qoyub baxırıq ki, səmt dairələrindən hansı dairəyə düşübdür. Səmti budur. Səmtin başlanğıcını əvvəlüs-sümut[1] dairəsindən alarlar və o həmin dairədir ki, şərq üfüqü ilə Qoç tropikinin kəsişməsindən keçir. İndi əgər Günəşin çıxması mövqeyi Qoç tropikinin içindən keçirsə, günün başında və sonunda ki, Günəş hələ əvvəlüs-sümut dairəsinə çatmayıb ya da ondan çıxıbdır, səmt şimalidir. Günün başlanğıcında o dairədən keçəndən sonra və günün sonunda o dairəyə çatmamışdan qabaq səmt cənubi olur. Gah da olur ki, səmtin başlanğıcını orta səma xəttindən çəkərlər. Əgər səmt 90-dan azdırsa, cənubidir və ondan artıq olan hər şey şimalidir. Əgər səmt təhtül-ərzdə çəkilibsə, Günəşin dərəcəsini məlum yüksəkliyə qoyub nəzirinə (ona əks olan yerə) baxarlar ki, hansı dairəyə düşübdür. Həmin yer səmtdir. Amma əgər səmti və cəhəti məlumdur və fövqül-ərz hissədə çəkilibsə, onda Günəşin dərəcəsini o səmtə qoymalıyıq. Dörd rübdən (şimal-şərq, şimal-qərb, cənub-şərq və cənub-qərb) bir rübdə olan səmtin müqəntərəyə düşdüyü yer Günəşin yüksəkliyidir. Əgər səmt təhtül-ərzdə çəkilibsə, Günəşin nəzirini səmt rübünün nəzirində o səmtə qoyub baxmaq lazımdır ki, Günəşin dərəcəsi hansı müqəntərədədir. O müqəntərədən yüksəklik məlum olur. Şimal-şərq rübünün nəziri cənub-qərbdir və cənub-şərq rübünün nəziri şimal-qərbdir. Səmt üstürlabı ilə şərq amplitudanı da məlum etmək olar. Bu da belə olur ki, Günəşin və ya zodiakın istənilən hissəsinin dərəcəsini şərq üfüqünə qoyub baxarlar ki, səmt dairələrindən neçəsi bu mövqe ilə

[1]Əvvəlüs-sümut – səmtlərin əvvəli.

Qoç tropikinin arasına düşüb. O elə həmin şərq amplitudasıdır.

## On altıncı bab

*Günəş təqvimi haqqında*

Əgər biz bir şəhərdəyik ki, en dairəsi məlumdur[1] və üstürlabın vasitəsilə Günəş təqvimini öyrənmək istəsək, əvvəl öyrənməliyik ki, Günəşin yüksəkliyi günbəgün artmaqdadır ya azalmaqdadır. Əgər artmaqdadırsa, məlum olacaq ki, Günəş fələkül-bürucun Qoçun əvvəli ilə Əkizlərin axırı arasındakı yarısında yerləşir. Əgər azalmaqdadırsa, onda məlum olacaq ki, Günəş digər yarıdadır. İndi istədiyimiz gündə maksimal yüksəkliyin neçəyə bərabər olduğunabaxmalıyıq. Yüksəkliyi elə məqamda alarlar ki, maksimuma çatsın və ondan sonra üzünü azalmağa qoysun. Ardınca baxmaq lazımdır ki, əgər maksimal yüksəklik bələdin tamam (maksimal?) en dairəsindən çoxdursa, onda Günəş məlum yarıda o iki rübdən şimali rübdədir. Məsələn: əgər yüksəklik günbəgün artmaqdadırsa və bununla belə maksimal yüksəklikbələdin tamam en dairəsindən çoxdursa, Günəş yaz rübündədir. Amma əgər azdırsa, onda qış rübündədir. Həmçinin əgər Günəş yüksəkliyi günbəgün azalmaqda olan digər yarıdadır və maksimal yüksəklik bələdin tamam en dairəsindən artıqdırsa, Günəş yay rübündədir və əgər bələdin tamam en dairəsindən əskikdirsə, Günəş payız rübündədir. Günəşin olduğu rüb məlum olandan sonra bələdin tamam en dairəsi ilə maksimal yüksəklik arasındakı təfavütü bilmək lazımdır və o təfavüt Günəşin meylidir. İndi əgər Günəş yaz və ya yay rübündədirsə, meyl şimalidir. Meridiandan o bölgülər qədər Qoç tropikindən

[1]MS 23569 nüsxəsində: *məlum deyil*

Xərçəng tropiki istiqamətində saymaq lazımdır. Əgər Günəşiki digər rübdədirsə, onda meyl cənubidir və digər istiqamətdə, yəni Oğlaq tropiki tərəfdən sayılmalıdır. Çatan yerdə bir nişan qoymaq lazımdır. Ardınca Günəşin olduğu rübü zodiakdan meridian xəttilə fırladıb düşünmək lazımdır ki, o nişana hansı bölgü düşübdür. O nişanın üzərinə düşən hər bölgü həmin gündə Günəş təqviminin dərəcəsidir.

## On yeddinci bab

*Obyektlərin yerdən hündürlüyünün və çayların eninin öyrənilməsi haqqında*

Minarə, divar ya dağ kimi bir obyektin yerdən hündürlüyünü öyrənmək istədikdə ki, nə qədərdir, əgər həmin obyektin təməl daşına çatmaq mümkündürsə (əl çatırsa), yəni bir divar ki, əgər daşı onun üstündən aşağı atsalar və o daşın yerə düşdüyü nöqtəyə yetişmək mümkün olsa, onda yüksəklik şəziyyəsini 45 dərəcəyə qoymaq lazımdır və ulduzun yüksəkliyini aldığımız qaydada sözügedən obyektin başının yüksəkliyini 45 dərəcə götürməliyik və o obyektin başının yüksəkliyi 45 dərəcə olanadək dala-qabağa gəzməliyik və o anda[1] yüksəkliyi aldığımız mövqedən həmin obyektin əsasını təşkil edən təməl daşınadək ölçmək və öz boyunu ona artırmaq lazımdır. Əldə olunan miqdar həmin obyektin hündürlüyünə bərabərdir. Əgər o obyekt, məsələn, bir dağdırsa ki, onun təməlinə (ətəyinə) çatmaq mümkün deyil, onda uzaqdan hamar bir yerdə dayanıb o obyektin başının yüksəkliyini alırıqvə baxırıq ki, digər şəziyyə zill xəttlərindən (kölgələr şkalasından) hansı xəttə düşübdür. Öz durduğumuz mövqeyi nişan edirik və bir barmaq ya da bir addım artıq ya əskik edirik, dala-qabağa

[1]Yəni yüksəklik 45-ə çatanda

gəzirik ta həmin obyektin başının yüksəkliyi həmin artıq ya əskik miqdarda olsun. Ardınca baxırıq ki, ikinci durduğumuz yerdən birinci durduğumuz yerədək nə qədərdir. O ki var, onu 12 barmağa və ya ayağa ki, ölçü vahidləridir, vururuq. Əldə olunan – həmin obyektin hündürlüyüdür. Əgər birinci durduğumuz mövqeyin yüksəkliyini 45 dərəcə götürsək, daha düz və dürüst olar. Onun misalı. Bir dağın müqabilində, yüksəkliyi 45 dərəcə olan mövqedə dayanmışıq. Üstürlabın arxasında zilli-əqdam (ayaqlar şkalası) varsa, bir ayaq artıq edirik və dağdan elə tərzdə uzaqlaşırıq ki, onun başının (təpəsinin) yüksəkliyi həmin zill ilə düz gəlsin. Ardınca bu durduğumuz yerlə birinci durduğumuz yer arasını ölçürük – 55 sər (baş? Və ya gəz?)[1] hasil olur. 7-yə ki, ölçü vahidlərinin (ayaqların) sayıdır[2], vururuq – 385 olur. Bu miqdar dağın hündürlüyüdür. Əgər birinci durduğumuz yerdən dağın ətəyinədək məsafəni öyrənmək istəsək, iki mövqe (durduğumuz yer) arasındakı miqdarı birinci yüksəkliyin zillinə vururuq və o surətdə ki, yüksəklik 45-dir, birinci mövqedən ətəyədək həmçinin, təfavütsüz, dağın hündürlüyü olur[3]. Əgər üstündən keçə bilmədiyimiz bir çayın enini məlum etmək istəsək, onda üstürlabı götürüb şəziyyəni fırladırıq ki, iki dəlikdən baxanda o tərəfi görə bilək. Ardınca durduğumuz yerdə arxaya çevrilirik və bu dəliklərdən səhraya baxırıq ki, nəzərimiz hansı mövqeyə düşübdür. Durduğumuz mövqedən o yerədək məsafəni ölçürük. Əldə etdiyimiz miqdar həmin çayın enidir.

## On səkkizinci bab

*Üfüqlər səhifəsindən istifadə etməyin qaydası haqqında*

---

[1]Bu söz dəqiq oxunmur

[2]Yuxarıda qeyd olunduğu kimi, ayaqlar şkalası adətən 7-yə bölünürdü.

[3]Yəni mövqedən ətəyədək məsafə dağın hündürlüyünə bərabərdir.

Üfüqlər səhifəsindən istifadə etməkdən məqsəd çıxmanın və gecə-gündüzün digər vəziyyətlərini en dairələrinin çoxunda öyrənməkdir. Bir çox üstürlablarda səhifənin vəziyyəti ... (?) olur. Üfüqlər səhifəsində üç tropiki, hər en dairəsi üçün üfüqün şərq yarısını, şərq-qərb xəttini vəorta səma xəttini çəkərlər. Ondan başqa fərz etmək istədiyimiz üfüqü və o xətti ki, ona nisbətdə orta səma xəttidir. İndi isə tələb olunanı bu yolla çıxartmaq (əldə etmək) olar. Tədilünnəharı isə bu yolla öyrənmək olar. Günəşin dərəcəsini və ya ulduzun şəziyyəsini şərq üfüqünə qoyub mürini nişan etmək lazımdır. Ardınca şərq xəttinə qoyub mürini nişan etmək lazımdır. Elə ki müri nişanın mövqeyindən keçir– tədilün-nəhar olur. Gecə-gündüz saatları və Günəş dərəcəsinin saat bölgülərini ya ulduzun şəziyyəsini şərq üfüqünə qoyub mürini nişan etmək lazımdır. Ardınca orta səma xəttinə qoymaq və iki nişan arasında olan qövsün-nəharın yarısıdır. Əgər istəsələr, tədilün-nəhara 90-ı artırarlar (əgər Günəşin meyli şimalidirsə) ya azaldarlar (əgər cənubidirsə), onda nisfün-nəhar hasil olar. Ardınca qövsün-nəharın yarısını 15-ə bölmək lazımdır ki, yarım günün müstəvi saat məlum olsun. Ardınca onu 2-yə vurmaq lazımdır ki, günün saatları olsun və günün saatını 24-dən çıxmaq lazımdır ki, gecə saatları məlum olsun. Həmçinin qövsün-nəharın yarısını 6-ya bölmək lazımdır ki, müəvvəc saatların bölgüsü əmələ gəlsin və gündüz saatlarının bölgüsünü 30-dan çıxmaq lazımdır ki, o üfüqdə gecə saatlarının bölgüsü əmələ gəlsin. Amma gündüz ya gecə saatlarından səma cisminin çıxması dərəcəsini öyrənməyə gəlincə, əgər bərabər saatlar məlumdursa, necə ki 5-ci babın axırında demişdik, 15-ə vurmaq lazımdır və hər 4 dəqiqəni 1 dərəcə saymaq lazımdır və vurmanın hasilinə əlavə etmək lazımdır ki, fələk dairəsi əldə edilsin. Əgər müəvvəc saat məlumdur və

gündüz vaxtıdırsa, gün saatlarının bölgüsünə vurmaq lazımdır. Əgər gecə vaxtıdırsa, onda gecə saatlarının bölgüsünə vurarlar ki, fələk dairəsi əldə edilsin.Əgər müəvvəc saatda dəqiqə varsa, onda saatların bölgüsünə vurarlar və hasili 60-a bölərlər. Qismətdən xaric olan dəqiqə və dərəcəni dairəyə əlavə edərlər.İndi əgər saatlar gündən keçibsə, Günəşin dərəcəsini şərq üfüqünə qoyub mürini nişan etmək lazımdır və dərəcə qədərində hücrənin dərəcələrinin yuxarısına (üstünə) fırladarlar. Müri oraya çatan kimi baxarlar ki, şərq üfüqündə hansı dərəcəyə düşübdür. Həmin dərəcə çıxmanın dərəcəsidir. Əgər gecə vaxtıdırsa, əvvəl Günəş dərəcəsinin nəzirini şərq üfüqünə qoyarlar və mürini dərəcə qədərində fırladarlar ki, çıxma məlum olsun. Amma yüksəklikdən saatları öyrənməyə gəlincə: elə ki Günəşin ya ulduzun yüksəkliyini aldılar, onu üfüqlər səhifəsində fırladıb saatlarıəldə etmək olar. Bu işi görmək üçün digər yollar da var. O yollardan biri də odur ki, əgər üstürlab müceyyəb üstürlablardandırsa, yəni onun zəhrində sinuslar/kosinuslar şkalası (sinus/kosinus dərəcələri) qeyd edilibsə, onda izadənin yüksəklik rübünün müqabilində olan yarısını şəziyyəsini əlaqə xəttinin üstünə qoyub 60 hissəyə bölərlər və əvvəlini mərkəzdən sayarlar və o yüksəklik bölgülərindən əlaqə xəttinə şərq-qərb xəttinə paralel şəkildə düz xəttlər çəkərlər. İndi yüksəklik rübündən fərz edilənhər qövsün sinus/kosinus bölgüləri izadədən o qövsün müqabilinə gəlir. Şəziyyəni Günəşin ya ulduzun maksimum yüksəkliyinə qoyub baxmaq lazımdır ki, bu vaxtın yüksəkliyi neçə dərəcədir və o yüksəklikdən çıxan xətt izadədən hansı bölgüyə düşübdür. Oraya bir nişan qoymaq lazımdır, ardınca şəziyyəni əlaqə xəttinə qoyub baxmaq lazımdır ki, o nişandan gələn xətt yüksəklik qövsündən hansı dərəcəyə düşübdür. Əldə ediləni 15-ə bölərlər. O ki əldə edildi, Gü-

nəşin və ya ulduzun çıxmasının ortasında fərz edilən vaxtda zəmani (müəvvəc) saatdır, əgər yüksəkliyin ədədi şərqidirsə. Amma əgər qərbidirsə, Günəşin və ya ulduzun batmasının ortasında fərz edilən vaxtdadır. Günəşin ya ulduzun gündüz saatlarının bölgülərini məlum etsələr və o saatlara vursalar, onda keçən ya qalan dair[1] məlum olar. Əgər bu dairlə çıxmanı məlum etmək istəsələr, bundan qabaq dediyimiz kimi, və əgər istəsələr dairi 15-ə bölərlər ki, müstəvi saat məlum olsun. Amma əgər üstürlab müceyyəb deyilsə, onda ona rüb şəkli çəkmək lazımdırvə gah olur ki, bunu üstürlaba çəkərlər bu surətdə[2]. İndi baxmaq lazımdır ki, maksimum yüksəklik neçədir və o miqdardan rübün mərkəzinə gedən xətti tələb etmək lazımdır. O vaxtın yüksəkliyindən 60-lıq əczalara istiqamətlənmiş xətti tələb etmək lazımdır. Və bu iki xəttin kəsişdiyi yeri əldə edib baxmaq lazımdır ki, o nöqtədən keçən və mərkəzi rübün (kvadrantın?) mərkəzi olan dairə 60-lıq əczalardan hansı bölgüyə düşübdür və o bölgüdən çıxan düz xətt 90 bölgüdən hansı bölgüyə düşübdür. O bölgüyə baxmaq lazımdır və o ədədi 15-ə bölmək lazımdır. O ki hasil oldu, zəmani saatdır, keçən ya qalan. Onun misalı. Şərqi yüksəklik 31 dərəcə və maksimum yüksəklik 50 dərəcədir. Bundan sonra 50-dən mərkəzə gedən xəttin və 31-dən 60-lıq bölgülərə gedən xəttin kəsişməsini əldə edirik və bu həmin mövqedir ki, üstündə qara nişan qoyduq və baxdıq ki, bu mövqedən keçən dairə 60-lıq bölgülərdən hansı bölgüyə düşübdür? 40-a düşübdür. Bundan sonra tələb edirik ki, görəsən, 40-dan çıxan düz xətt rübün (kvadrantın) hansı bölgüsünə düşübdür? 41,5-ə düşübdür. 41,5-i 15-ə böldük – 2 çıxdı. 11,5

[1]Dair – ulduz mərkəzinin orbitindən ulduzun mərkəzi ilə üfüq dairəsi arasında olan bir qövsdür.
[2]Ehtimal var ki, əlyazmanın bu yerində bir rəsm nəzərdə tutulmuşdu.

qaldı. Onu 4-ə vurduq – 46 oldu. İndi dedik ki, bu vaxt günün zəmani saatından 2 saat 46 dəqiqəkeçibdir. Onu saatların bölgülərinə vurduq və dediyimiz kimi əməl etdik. Digər misal. Yüksəklikdən dairi öyrənməyin bir yolu. Əvvəl üfüqlər səhifəsindən tədilün-nəharı məlum edirik. Ardınca, dediyimiz kimi, maksimum yüksəkliyi bu rübdə tələb edirik və vaxtın yüksəkliyini (hazırkı yüksəkliyi) və maksimum yüksəklikdən mərkəzə gedən və hazırkı yüksəklikdən 60-lıq bölgülərə gedən xəttlərin kəsişməsini əldə edirik. İndi bu kəsişmədən dairəyə baxırıq ki, 60-lıq bölgülərdən hansı bölgüyə düşübdür. Onun üzərində bir nişan qoyuruq. İndi hamısını olduğu kimi 60-adək götürürük və artıq olanı tədilün-nəhara vururuq və 60-a bölürük. Əldə olana tədil (düzəliş) deyərik və baxarıq: əgər Günəşin meyli və ya ulduzun uzunluq dairəsi müəddilün-nəhardan şimaldadırsa, onu üzərində nişan qoyduğumuz 60-lıq bölgülərdən çıxırıq, amma əgər cənubidirsə, onda üstünə gəlirik. Hasil olana baxırıq ki, o məbləğdən (mövqedən) çıxan və rübə çatan düz xətt hansı bölgüyə düşübdür və ona fəzli-dair (?) deyirik. Əgər yüksəklik şərqidir və Günəşin meyli və ya ulduzun uzunluq dairəsi müəddilün-nəhardan şimaldadırsa, fəzli-nəharı 90 ilə tədilün-nəharın cəmindən çıxırıq ki, dair qalsın. Əgər yüksəklik qərbidir və meyl ya uzunluq dairəsi şimalidirsə, onda fəzli-dairi, tədilün-nəharı və 90-ı – hamısını toplayırıq. Əgər meyl ya uzunluq dairəsi cənubidirsə, onda fəzli-dair ilə 90-ın cəmindən tədilün-nəharı çıxırıq. Bütün hallarda hasil olan keçmiş dairdir. İndi Günəşin dərəcəsini və ya ulduzun mürisini şərq üfüqünə qoyuruq və Rəsül-Cədy mürisini nişan edirik və bu nişanın mövqeyindən dair qədərində hücrənin bölgülərinə parallel fırladırıq. Üfüqdə qalan – çıxmadır. Əgər dairi 15-ə bölsək,  Günəşin ya ulduzun qaxmasından fərz edilən vax-

tadək keçmiş müstəvi saat məlum olar. Dediyimizə bir misal. Şərqi iritfa 31 dərəcədir və maksimum yüksəklik 50 və kəsişmədən keçən dairə 40-a düşübdür. 40-ı yadda saxladıq. Bu halda həmin gün Günəş cənuba meyillidir, tədilün-nəhar 6 dərəcədir və 40-dan 60-adək 20 var. Onu 6-ya vururuq – 120 olur. 60-a bölürük – 2 çıxır. İndi madam ki, meyil cənubadır, yadda saxladığımız 40-a əlavə edirik – 42 olur. Ondan çıxan düz xətt 45-ə çatır. 90-ın bölgülərindən tamamınadək də 45-dir və bu fəzli-dairdir. Yüksəklik şərqi, meyil isə cənubi olanda 51-ə bərabər olan fəzli-dair ilə tədilün-nəharın cəmini 90-dan çıxırıq – 39 dərəcə qalır. Bu dairdir və müstəvi saat 2 saat 36 dəqiqəyə bərabərdir ki, gündən keçibdir. Üfüqlər səhifəsindən təsviyyətül-büyut etmək istəsək, çıxma dərəcəsini bizə lazım olan bəl追din üfüqü üzərinə qoyuruq. Orta səmaya (0-cu düşübdür və dördlük övtad məlum olur.[1] İndi, dediyimiz kimi, çıxmanın qövsün-nəharının yarısını məlum edirik, onun üçdə birini alırıq və çıxmanı üfüqün üstünə qoyuruq və baxırıq ki, müri haradadır? Ardınca qövsün-nəharın yarısının üçdə biri qədər hücrənin bölgülərinin ardınca fırladırıq. Orta səmaya düşən 11-cidir və bir dəfə də həmin miqdarda ardınca fırladırıq. Orta səmada olan 12-cidir. Bir daha çıxmanı üfüqün üzərinə qoyuruq və qövsün-nəharın yarısının üçdə birini 60-dan çıxırıq. Yerdə qalan qədərində mürini hücrə bölgülərinə zidd istiqamətdə fırladırıq. Orta səmaya düşən 9-cudur. Bunun ardınca bir daha həmin qaydada fırladırıq. Orta səmaya düşən 8-cidir. Bunlar məlum olan kimi hər xananın nəziri onun müqabilinə düşür. Beləliklə 12 xana məlum olur. Amma bürclərin ekvatorda və fərz edilən bələddə çıxmasını, gələn ilin çıxmasının

[1]Zənnimizcə, bu əməliyyat fala baxmaqda işlənir.

keçənilkinin əsasında hesablanmasını, ulduzların çıxma dərəcəsini, batma dərəcəsini və məmərr dərəcələrini həmçinin bu qayda ilə üfüqlər səhifəsindən məlum etmək olar. *Bu qədər kifayətdir.*

## On doqquzundcu bab

*Üstürlabın yoxlanması və onun düz və ya əyri olması haqqında*

Üstürlabın əlaqəsini şaquli vəziyyətdə əldə tutub və bir nazik ipi ona bağlayıb ürvənin altından aşağı salanda ip əlaqənin xəttinə uyğun olmalıdır, yoxsa düz olmaz. Ondan sonra hər dairənin rübləri pərgarla yoxlanmalıdır. Bərabər olmalıdırlar. İzadənin bir tərəfi ilə yüksəkliyi alanda dərhal izadəni fırladarlar. Əgər yenə də həmin yüksəklik çıxsa, izadə düzdür. Əks halda düz deyil. Bir şəziyyəni əlaqə xəttinə və ya şərq-qərb xəttinə qoyanda, o biri şəziyyə heç bir təfavütsüz həmin xətdə oturmalıdır. Müqəntərələrə gəldikdə isə Qoç tropiki səhifənin bütün sahəsinə bərabər olan müqəntərənin üzərinə düşməlidir. Xərçəng və Oğlaq tropikləri isə hər biri ümumi meyl qədər ondan uzaq olmalıdırlar. Üfüq dairəsi, şərq-qərb xətti və Qoç tropiki – hamısı bir nöqtədə kəsişməlidir. Əgər pərgar alıb onun bir başını Oğlaq tropikinin və orta səma xəttinin kəsişdiyi yerə qoysalar və digər başını müqəntərələrdən bir müqəntərənin və ya şərq-qərb xəttinin və yaxud şərq tərəfdə tropiklərdən bir tropikin kəsişməsinə qoysalar, həmin qayda ilə pərgarın başı o kəsişmənin qərb tərəfindəki nəzirinə düşməlidir. Zodiakın hissələrinə (nişanlarına) gəldikdə isə şərq üfüqünə bir dərəcəni qoyanda onun nəziri qərb üfüqünə düşməlidir. Həmçinin əgər şərq-qərb xəttinə və ya orta səma xəttinə qoysalar və Qoçun əvvəli şərq üfüqünə düşərsə, Oğlağın əvvəli orta səma xəttinə düşməlidir. Pərgarla yoxlayarlar ki,

Oğlaq, Oxatan, Dolça, Əqrəb və dönmə nöqtəsindən onlardan sonra gələn iki bürcün miqdarı bərabərdir ya yox? Əgər bərabərdirsə, düzdür, əks halda əyridir. Xərçəngin, Oğlağın və Qoçun başı təfavütsüz öz tropikində hərəkət etməlidir. Müəvvəc saatların xətlərini pərgarla yoxlayarlar. Budur məşhur yoxlama üsulları *və ondan artığı uzunçuluğa gətirib çıxarar.*

## İyirminci bab

*Üstürlabda qeyd olunan bir neçə sabit ulduz haqqında*

Sabit ulduzlardan bir neçəsindən başqa ulduzların yüksəkliyini gecə almaq mümkün deyil. Biz bu mövzuda daha məşhur olanları açıqlayırıq ki, bəlkə onu öyrənmək istəyən olar. Onlardan ən məşhuru Sürəyyadır ki, ona avam adamlar Pərvin[1] deyərlər. Bu ulduz qalxan vaxt bir böyük və parlaq ulduz şimal tərəfdən qalxır ki, onların arasındakı məsafə iki nizə və ya ondan artıqdır. O ulduza Əyyuq[2] deyərlər. Pərvin bir nizə yuxarı qalxan kimi onun arxasından cənuba meyillənmiş bir parlaq ulduz ondan nazik daha dörd ulduzla "dal"[3] hərfi şəklində çıxacaqlar. Onun bir tərəfində olan parlaq ulduza Eynüssur və həmçinin Dəbəran[4] deyərlərki, Ayın mənzillərindən biridir. Ondan sonra Cövza[5] çıxır ki, avam adamlar ona Tərəzi deyərlər, münəccim isə ona Cəbbar deyər. Kəmərli və qılınclıbir kişidir və onun iki əli kəmərin üç ulduzundan yuxarıdır. Bu iki əl iki ulduzdur, amma sağ əl daha parlaqdır və ondan yüksəkliyi öyrənərlər.

---

[1]Bu ulduza həmçinin Ülkər və Yeddiqardaş da deyərlər.
[2]Əyyuq – Kapella ulduzu.
[3]Ərəb əlifbasınn səkkizinci hərfi "Dal" hərfi belə yazılır: د
[4]Əldəbəran ulduzu.
[5]Cövza – Orion bürcü.

Ona Yədül-Cövzal-Yəməni[1] deyərlər. Kəmərlə qılıncın altındakı iki ayağından sol ayaq daha parlaq və böyükdür. Ondan yüksəkliyi öyrənərlər. Ona Rəclül-Cövzal-Yəsri[2] deyərlər. Onun iki əli arasında üstdə bir-birinə bağlı üç ulduz var ki, "sə"[3] hərfinin üstündəki üç nöqtəyə bənzəyir. Ona Rə'sülcəbbar və Əsafi deyərlər və Həq'ə[4] Ayın mənzillərindəndir. Cövzanın arxasında iki böyük parlaq ulduz çıxır. Onlar hücrənin iki yanında arada iki-üç nizə olaraq biri cənuba, digəri isə şimala meyillidir. Cənubi daha böyük və parlaq, şimali isə daha kiçik və qırmızıdır və hər birinin arxasından kiçik ulduz çıxır. İki-üç zər' aralı iki böyük ulduz iki Şe'radır. Cənubda olan daha böyük Şe'rayi-Yəmanidir[5], şimalda olan daha kiçiyə isə Şe'rayi-Şami[6]deyərlər. Yəmaniyə Übur da deyərlər, Şamiyə isə Ğəmisa. Hər biri ilə yanaşı çıxan ulduza Mirzəm deyərlər. Bu ulduz yayda gecənin sonunda, qışda isə gecənin əvvəlində görsənər. Şe'rayi-Şaminin müqabilində şimal tərəfdə bir-birinə yaxın iki parlaq ulduza Zira' deyərlər və hər birinə Rə'süt-Tov'əm[7] deyərlər. Əvvəl gələn və qərbə daha yaxın olana Rə'süt-Tov'əmi-müqəddəm, digərinə isə Rə'süt-Tov'əmi-müəxxər deyərlər. İki-üç nizə onların arxasında qövsvari xəttin üstündə dörd ulduz gəlir. Onların içində cənubda olan üçüncü ulduz daha böyük və parlaqdır. Ona Qəlbül-Əsəd[8] deyərlər. Onun cənubunda tək bir ulduz var ki, onun yanında başqa biri yoxdur. Ona Fərd deyərlər.

---

[1]Yəni Cövzanın sağ əli

[2]Yəni Cövzanın sol ayağı

[3]Ərəb əlifbasının dördüncü hərfi olan "Sə" hərfi belə yazılır: ث

[4]Həq'ə Ayın beşinci mənzilidir.

[5]Şe'rayi-Yəmani – Prosion  Sirius, Böyük Köpək bürcündə bir ulduz.

[6]Şe'rayi-Şami – Prosion, Kiçik Köpək bürcündə bir ulduz.

[7]Rə'süt-Tov'əm – Əkizin başı.

[8]Qəlbül-Əsəd – Şirin ürəyi.

Qəlbül-Əsədin arxasında daha bir parlaq ulduz gəlir və daha biri var ki, parlaqlıqda ona yaxındır. Bu iki ulduz çox da parlaq deyillər. Onlara Zəbrə[1] deyərlər. Bir nizə onun arxasında bir parlaq ulduz var ki, böyük-kiçiklikdə ortabab-dır, ona Sürfə[2] deyərlər. Sürfənin arxasında iki nizədə tək bir ulduz gəlir və onun şimal tərəfində üç-dörd nizədə çox böyük və parlaq ulduz və iki gəz ondan yuxarı daha kiçik ulduz var. Bu iki parlaq ulduza Simakan[3] deyərlər. O tək olana Simaki-Ə'zəl[4], ondan parlaq və şimalda yerləşənə Simaki-Ramih[5] deyərlər. Yanında olan ulduza Rümhi-Ramih[6] deyərlər. Yazın sonunda gecənin əvvəlində Simaki-Ramih səmanın ortasında, Simaki-Ə'zəlin müqabilində, onun cənub-qərbində olur. Onun şimal-şərqində, iki nizədə natamam dairə şəklində yeddi ulduz varki, avam adamlar ona Kaseyi-şikəstə[7] və ya Kaseyi-dərvişan[8] deyərlər, amma münəccimlər ona Fəkkə[9] deyərlər. O ulduzlardan ən par-lağına Neyyirəl-Fəkkə deyərlər. Fəkkə səmanın ortasına çatanda onların cənub tərəfində Əqrəbin ulduzları çıxır. O ulduzlardan daha parlaq bir ulduz var ki, onun da iki tərə-fində daha kiçik iki ulduz var ki, onunla birlikdə qövsvari xəttin üzərindədirlər. Onlara Qəlbül-Əqrəb[10] deyərlər. Sə-manın ortasında bir parlaq ulduz başqa iki ondan daha az parlaq ulduzla birlikdə bərabərtərəfli üçbucaq təşkil edirlər

---

[1]Zəbrə –çiyin.
[2]Sürfə Ayın on ikinci mənzilidir.
[3]Yəni Simaklar
[4]Simaki-Ə'zəl – Sünbül (Qız) bürcündə ən parlaq ulduz.
[5]Simaki-Ramih– Arktur ulduzu.
[6]Rümhi-Ramih –nizədaşıyanın nizəsi.
[7]Kaseyi-şikəstə – sınıq kasa.
[8]Kaseyi- dərvişan – dərvişlərin kasası.
[9]Fəkkə – Şimal tac bürcü.
[10]Qəlbül-Əqrəb – Əqrəbin qəlbi, Antares ulduzu.

və avam adamlar ona Digpayə[1] deyərlər. Yayın sonunda gecənin əvvəlində düz Rə'ს istiqamətində Nəsri-Vaqe'[2] ulduzu olur. Onun müqabilində cənub-şərq tərəfdən hücrənin kənarına yaxın iki digər daha az parlaq ulduzun arasında ki, düz xətt üstündədirlər, parlaq bir ulduz var. Avam adamlar ona Tərəzinin Şahini deyərlər. Həmin parlaq ulduz Nəsri-Tairdir[3]. Onların qərb tərəfində daha az parlaq ulduz onlarla birlikdə üçbucaq təşkil edir. Ona Rə'sül-Həvva[4] deyərlər. Daha bir ulduz isə onların şimal-şərqindədir və onlarla birlikdə müxtəlif tərəfli üçbucaq təşkil edir. O ulduz hücrənin ortasındadır və ona Ridf[5] və ya Zənəbüd-Düccacə[6] deyərlər. Onun ardınca hücrədə parlaqlığı bir-birinə yaxın olan və dəvəyə oxşayan bir neçə ulduz gəlir ki, avam adamlar ona Şütür[7] deyərlər. Onlardan ən öndə gələnə və dəvənin hörgücündə olana Kəffül-xəzib, yəni "xınalanmış ovuc" deyərlər. Beləliklə, iyirmi ulduz təsvir edildi ki, onların yüksəkliyini almaq mümkündür. Həmin ulduzlar bunlardır. Ulduz adları. Üyunüs-Sur[8], Əyyuq, Yədül-Cövzal-Yəməni, Rəclül-Cövzal-Yəsri, Şe'ral-Übur, Şe'ral-Ğəmisa, Rə'süt-Tov'əmi-müqəddəm, Rə'süt-Tov'əmi-müəxxər, Qəlbül-Əsəd, Fərd, Sürfə, Əs-Simakür-Ramih, Əs-Simakül-Ə'zəl, Neyyirəl-Fəkkə, Qəlbül-Əqrəb, Ən-Nəsrül-Vaqe, Ən-Nəsrüt-Tair, Rə'sül-Həvva, Ridf, Kəffül-Xəzib. Üstürlabların çoxunda bu ulduzları qeyd edərlər. Bir

---

[1]Digpayə – sacayaq .
[2]Nəsri-Vaqe' – Veqa ulduzu.
[3]Nəsri-Tair – Əltair ulduzu.
[4]Rə'sül-Həvva – Həvvanın (İlandaşıyan, Ophiucus bürcünün) alfası, ən parlaq ulduzu.
[5]Ridf – sağrı.
[6]Zənəbüd-Düccacə – qu quşunun quyruğu, Deneb ulduzu.
[7]Şütür – dəvə
[8]Üyunüs-Sur – Buğanın gözləri.

səhvə yol verilməsə, hər kim bunları öyrənsə, bu sahədə ona kifayət edər. *Allah hər şeyin həqiqətini hamıdan yaxşı bilir. Bu şərafətli risalə tamamlandı.*



**Üstürlab**




**Üstürlabın quruluşu**



**Mir Möhsün Nəvvaba məxsus üstürlab**
**Cihaz AMEA Məhəmməd Füzuli adına**
**Əlyazmalar İnstitutunun xəzinəsində saxlanır**



**Azərbaycan üçün nəzərdə tutulmuş üstürlab səhifəsi**
**Şəkil t.e.d. Həsən Həsənov tərəfindən**
**təqdim olunub**

# QEYDLƏR

Bələd – üstürlabdan istifadə edənin tədqiqat apardığı əsnada dayandığı yer, şəhər, ölkə.

Çıxma – hazırki mətndə bu istilah bir səma cisminin çıxması, doğması mənasında işlənibdir.

Dair – ulduz mərkəzinin orbitindən ulduzun mərkəzi ilə üfüq dairəsi arasında olan bir qövsdür.

Dəvairi-müqəntərat – müqəntərələr dairələri. Müqəntərələr – səma sferasının üfüqə paralel kiçik dairələri, bərabər azimutlar xətləri.

Digpayə – sacayaq.

Əlaqə – bəzən halqaya bağlanan başqa bir halqa.

Əvvəlüs-sümut – səmtlərin əvvəli.

Fələkül-büruc – qədim elmi nəzəriyyəyə görə zodiak bürclərinin də yer aldığı səkkizinci fələk.

Fəzlün-nəhar – günün orta gündən (on iki saatdan) artıq ya əskik olanıdır.

Fövqül-ərz – Yer üstü.

Xana – bir insanın falına baxmaq üçün üfüqə və həmçinin ekliptikanın üfüqlə və meridianla kəsişən nöqtələrə bağlı olan səma sferasının bölünməsi. Hər xana 30 dərəcədir.

Xətti-əlaqə – əlaqə xətti. Əlaqə – bəzən halqaya bağlanan başqa bir halqadır.

Xətti-intisaf – yarıya bölən xətt.

Xətti-istiva – ekvator.

Xətti-məşriq və məğrib – şərq-qərb xətti.

Xətti-nisfün-nəhar – meridian.

Xətti-saati-müəvvəc – saatların əyilmiş xətti. Saati-müəvvəc – gecənin ya gündüzün on ikidə bir hissəsi, qeyri-bərabər saatlar.

Xətti-vəsətüs-səma – orta səma xətti, münəccimlikdə, fala baxmaqda işlənir.
Kod – كد – müqəntərələrin birinə qoyulan şərti addır.
Ku – كو – şərti addır.
Qövsül-leyl – Günəşin gecə hərəkətinin qövsü.
Qövsün-nəhar – Günəşin gündüz hərəkətinin qövsü.
Lam – ل – müqəntərələrin birinə qoyulan şərti addır.
Lu –لو – səhifələrin birinə qoyulmuş şərti addır.
Məmərr – meridianı ulduzla eyni vaxtda keçən ekliptika dərəcəsi.
Mintəqətül-büruc – zodiak.
Müəddilünnəhar – gecə-gündüzün bərabərliyi.
Müəvvəc saatlar – əyri saatlar, qeyri-bərabər saatlar, gecə-nin ya gündüzün on ikidə bir hissəsi.
Müri – Rə’sül-Cədyin yanında və hücrə ilə təmasda olan, toxunan bir artırmadır.
Nisf – yarım.
Nisfünnəhar – 1)Günorta; 2)Meridian, ekvator dairəsini düz bucaqlara bölən xətt və onun başlanğıcı ürvədədir.
Rə’sül-Cədy – qış gün dönümü. Zodiakın Qoç bürcünün əvvəli ilə bərabər bir hissəsidir. Günəş bu nöqtədə olanda bu dövrün sonu ekvatordan cənubda və qışın əvvəlinə bərabər olur.
Sad – ص – ərəb əlifbasında bir hərfdir, bir şərti nişan kimi üstürlabın üstündə həkk olunur.
Saəti-müstəvi – müstəvi saat, bərabər saat, gecə-gündüzün 24-də biri, səmada 15 dərəcə dövr edən mədardır, yoldur.
Səmtür-rə’s – zenit.
Süds – altıda bir.
Süqbə – lübnənin içindəki dəlik.
Süls – üçdə bir.

Tədilün-nəhar – Əbu Reyhan Biruni özünün "Ət-Təfhim" əsərində bi istilahın tərifini belə vermişdir: Tədilün-nəhar fəzlün-nəharın yarısıdır.
Təhtül-ərz – Yer altı.
Təsviyyətül-büyut – on iki xanın bir səviyyədə düzülməsi (fala baxmaqda).
Üfüqi-məşriq və məğrib – şərq-qərb üfüqü.
Vətəd – rəmmallıqda xananın halıdır.
Yəh – يه –şərti addır.
Zill – ərəbcə kölgədir. Üstürlabın zəhrində (arxasında) çəkilən şkalaya deyilir.
Zilli-əsabe (barmaqlar şkalası) və zilli əqdam (ayaqlar şkalası) – adətən zillər kvadratının sol yarısı 12 hissəyə (barmaqlara), sağ yarısı isə 7 hissəyə (ayaqlara) bölünürdü.

## ƏDƏBİYYAT


1. Xacə Nəsirəddin Tusi. "Bist bab dər elmi-üstürlab". AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsi. A-366. vv. 111b-136a.
2. Xacə Nəsirəddin Tusi. "Bist bab dər mərifəti-üstürlab". Qətər Milli kitabxanası. MS 23569.vv. 78a-103b.
3. Xacə Nəsirəddin Tusi. "Övsafül-əşraf". AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsi. M-140. vv.155a-161a.
4. Xacə Nəsirəddin Tusi. "Övsafül-əşraf" (şərafət sahiblərinin vəsfi). Fars dilindən tərcümə edən Rauf Şeyxzamanlı. Bakı. "Nurlan". 2002
5. Əbdürrəhman bin Ömər Sufi. "Süvərül-kəvakib" (ulduzların surətləri). Xacə Nəsirəddin Tusinin ərəbcədən farscaya tərcüməsi. Tərcümə edən Hacı Rauf Şeyxzamanlı. Bakı. "Qanun". 2014.
6. Mirzə Əliəkbər Dehxoda. "Lüğətnamə".Tehran."Çapxaneye-sazemane-çape-daneşqahe-Tehran". 1349 (h.ş.).
7. Məhəmmədhüseyn ibn Xələf Təbrizi. "Bürhani-qate". AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsi. D-183.
8. Əbu Reyhan Məhəmməd bin Əhməd Biruni Xarəzmi. "Ət-Təfhim" (Anlatma). Tehran. 1362 (h.ş.).
9. Həzən Həsənzadə Amüli. "Dürusi-heyət" (Astronomiya dərsləri). Tehran. "Mərkəze-enteşarate-dəftəre-təbliğate-eslamiye-Qom". Qış 1371 (h.ş.).